RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 96 (10116) 4 iyun 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## AZƏRBAYCAN-ABŞ: enerji sektorundan süni intellektəcən inkişaf edən tərəfdaşlıq



Azərbaycan-ABŞ İqtisadi Dialoqunda həmçinin biznes dairələri ilə görüş keçirilib, özəl sektor arasında əməkdaşlığın inkişafı və yeni tərəfdaşlıqların qurulmasının əhəmiyyəti qeyd olunub. Eləcə də bildirilib ki, ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə əldə olunmuş tarixi sülh razılaşması Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutunu da özündə ehtiva edir. Bu, investisiya yatırılan tarixi infrastruktur dəhlizidir və multimodal xarakter daşıyacaq. Bu dəhlizin yalnız sərnişin daşımalarını deyil, həm də enerji və rəqəmsal infrastrukturun inkişafını təmin edəcəyi gözlənilir.

Göründüyü kimi, ikitərəfli iqtisadi münasibətlərin möhkəm təməli enerji sektoru olsa da, artıq bu çərçivədən daha geniş əməkdaşlığa doğru irəliləyir. Təsadüfi deyil ki, sözügedən tədbirin iqtisadi investisiyalar üzrə panelində hər iki xalqın qarşılıqlı rifahına xidmət edən iqtisadi layihələrin, o cümlədən nəqliyyat və logistika, enerji və rəqəmsal texnologiyalara ikitərəfli investisiyaların təşviqi məsələləri müzakirə olunub. Həmçinin investorlar üçün təşviq mexanizmləri, üstünlüklər və əlverişli hüquqi rejim təklif edən Ələt Azad İqtisadi Zonası daxil olmaqla müxtəlif istiqamətlərdə ABŞ sərmayələrinin təşviqi imkanları diqqət mərkəzində olub.

Süni intellekt və rəqəmsal infrastruktur üzrə müzakirələrdə isə ABŞ-nin yüksək texnoloji həlləri barədə məlumat verilib. Data mərkəzləri, süni intellekt texnologiyalarının tətbiqi istiqamətində əməkdaşlıq, tənzimləyici çərçivələrin inkişafı və bu sahədə gələcək tərəfdaşlıq nəzərdən keçirilib. Tərəflər iqtisadi əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı investisiyaların təşviqi və innovativ layihələrin dəstəklənməsinin əhəmiyyətini vurğulayıblar.

ABŞ-nin Azərbaycanın rəqəmsal infrastrukturunun inkişafı və təhlükəsizliyinin gücləndirilməsi məqsədilə süni intellekt sahəsində əməkdaşlığı genişləndirməyə hazır olduğu vurğulanıb. Qeyd edilib ki, süni intellekt yeni iqtisadi imkanlar yaradacaq əsas istiqamətlərdən biridir. Kaleb Orr bu barədə belə deyib: "Süni intellektin görünməmiş rifah yaratmaq potensialını nəzərə alaraq, Azərbaycanın rəqəmsal infrastrukturunun yenilənməsi və təhlükəsizliyinin gücləndirilməsi üçün süni intellekt texnologiyalarının daha geniş tətbiqi istiqamətində yol xəritəsini müəyyən etdik".

Azərbaycan və ABŞ arasında kritik minerallar sahəsində əməkdaşlığa dair çərçivə sazişinin imzalanması isə iqtisadi münasibətlərdə yeni mərhələnin əsasını qoyur və müasir iqtisadiyyat üçün mühüm əhəmiyyət daşıyan sahənin inkişafına xidmət edəcək. Qeyd edək ki, bu sənəd "Bakı Enerji Həftəsi" çərçivəsində Prezident İlham Əliyevin iştirakı ilə imzalanıb.

7

## Yüksək funksionallığa və qabaqcıl texnoloji göstəricilərə malik binalar Bakıya xüsusi gözəllik verir



### Prezident İlham Əliyev Mərkəzi Bankın yeni binasının açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mərkəzi Bankın yeni inzibati binasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Mərkəzi Bankın sədri Taleh Kazımov dövlətimizin başçısına binada yaradılmış şərait barədə məlumat verdi.

2

## Strateji tərəfdaşlığın uğurlu modeli

### Azərbaycan - İtaliya münasibətləri qarşılıqlı etimada, etibarlı müttəfiqliyə əsaslanır



Azərbaycan Prezidenti bəyan edib ki, siyasi əlaqələrimizin yüksək səviyyəsi Azərbaycan-İtaliya qarşılıqlı fəaliyyətinin inkişafında mühüm rol oynayır: "Uğurlu iqtisadi-ticari, enerji, sənaye istehsalı tərəfdaşlığından tutmuş təhsilə qədər uzanan və ildən-ilə yeni sahələri əhatə edən əməkdaşlığımız strateji xarakter daşıyır. İqtisadi əlaqələrimizin mövcud potensialının tam şəkildə reallaşdırılması, sərmayə, müdafiə, humanitar, o cümlədən yeni istiqamətlər üzrə əməkdaşlığın şaxələndirilməsi qarşımızda duran əsas məsələlərdəndir".

6

## Bir yol, üç ölkə

### Bakı-Tbilisi-Qars dəmir yolunun modernləşdirilməsi başa çatdı



Layihənin reallaşdırılması ilə bağlı üç ölkə arasında ilkin razılaşma 2005-ci ilin yanvarında imzalansa da, maliyyə çatışmazlığına görə icrası bir müddət təxirə salındı. Amma 2005-ci ilin may ayında Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinin Azərbaycan hissəsinin açılışı zamanı Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri yeni dəmir yolu xəttinin tikintisində maraqlı olduqlarını bəyan edərək, layihəyə yenidən təkan veriblər. 2007-ci il noyabrın 21-də Gürcüstanın Marabda stansiyasında hər üç ölkənin prezidentlərinin iştirakı ilə BTQ dəmir yolu xəttinin təməlqoyma mərasimi keçirilib və layihənin tikintisinə rəsmi olaraq start verilib.

7

## Sosial dəstək mexanizmləri yeni modelə keçir



Dövlətimizin qayğısı təkcə ev təminatı ilə məhdudlaşmayıb, məcburi köçkünlərin gündəlik ehtiyacları üçün vahid aylıq müavinət başda olmaqla çevik sosial yardım mexanizmləri reallaşdırılıb. Xüsusilə gənc nəslin ali təhsilə cəlb olunması prosesi diqqət mərkəzində saxlanılıb. Bu istiqamətdə tətbiq edilən güzəştlər gənclərin təhsildən kənarda qalmasının qarşısını alıb. Bunun əyani sübutu kimi, 2025-2026-cı tədris ilində ali və orta ixtisas müəssisələrinə ödənişli əsaslarla daxil olmuş 3923 məcburi köçkün statuslu tələbənin təhsil haqlarının tamamilə dövlət büdcəsi hesabına ödənilməsini qeyd etmək olar.

4

## Zəngəzur dəhlizi Naxçıvanın sosial-iqtisadi inkişafına yeni imkanlar yaradacaq




Zəngəzur dəhlizi vasitəsilə Azərbaycan strateji hədəflərindən birini reallığa çevirəcək: "Dəhliz vasitəsilə uzun illər blokada şəraitində qalan Naxçıvan Muxtar Respublikası ilə maneəsiz quru bağlantısı yaranacaq. Uzunluğu 42 kilometr olan Zəngəzur dəhlizinin açılması ilk növbədə Naxçıvan Muxtar Respublikasının təcriddən çıxmasını təmin edəcək və bölgənin sosial-iqtisadi inkişafına yeni imkanlar yaradacaq. Eyni zamanda Azərbaycanın digər bölgələri ilə daha sıx inteqrasiyasına xidmət edəcək. Yeni yollar, dəmir yolları, enerji xətləri və rəqəmsal bağlantı Naxçıvanı mühüm logistika mərkəzinə çevirəcək. Bu isə ticarət və turizm imkanlarının genişlənməsinə, yerli istehsalın ixrac potensialının artmasına şərait yaradacaq".

6

## Yaxın Şərqin "boğaz ağrısı"

Vəziyyəti daha da dramatikləşdirən amil Yaxın Şərqdəki "ikiqat blokada" böhranıdır. Yəməndəki husilərin Qırmızı dənizdə mülki gəmilərə hücumları bərpa etməsi ilə eyni vaxtda Hörmüzün də bağlanması dünya ticarətini çıxılmaz vəziyyətə salıb. Müasir tarixdə ilk dəfədir ki, Yaxın Şərqin hər iki əsas marşrutu eyni anda bloklanır. Gəmilər alternativ olaraq Afrikanın cənubundakı Ümid burnunu dolanmaq məcburiyyətindədirlər. Bu isə daşınma müddətini 10-14 gün uzadır, logistika xərclərini fantastik səviyyəyə qaldırır və qlobal konteyner çatışmazlığı yaradır.

Beynəlxalq Enerji Agentliyi (BEA) mövcud vəziyyəti "dünya neft bazarı tarixinin ən böyük tədarük kəsintisi" kimi xarakterizə edib. Hörmüzün bağlanması qlobal neft tədarükünün 20 faizini, maye qazın isə beşdəbirini bazarlardan qoparıb.

8

## Ermənistanda seçki rəqabətinin son günləri yaşanır

### Rəy sorğularına görə, Nikol Paşinyanın qalib gəlmək şansı revanşistlərdən çoxdur



Seçki marafonunda iki blok və 17 partiya daxil olmaqla 19 siyasi təşkilat iştirak edir. Lakin sorğulara əsasən, bu qüvvələrdən yalnız dördünün parlamentə düşmək uğrunda real mübarizə şansı var. ABŞ-nin "International Republican Institute" təşkilatının sifarişi ilə "Breavis" şirkəti tərəfindən 1511 nəfər vətəndaş arasında keçirilən sorğuda iştirakçılardan 29 faizi, yəni 491 nəfəri Baş nazir Nikol Paşinyanı və onun rəhbərlik etdiyi "Mülki Müqavilə" Partiyasını dəstəkləyiblər. Sorğuda ikinci yerdə oliqarx Samvel Karapetyan qərarlaşıb, respondentlərin 8 faizi onu baş nazir kimi görmək istədiyini bildirib.

8

# Yüksək funksionallığa və qabaqcıl texnoloji göstəricilərə malik binalar Bakıya xüsusi gözəllik verir

## Prezident İlham Əliyev Mərkəzi Bankın yeni binasının açılışında iştirak edib









*Əvvəli 1-ci səh.*

Yeni bina paytaxtın Heydər Əliyev prospektində yerləşir. Müasir şəhərsalma prinsiplərinə uyğun inşa edilmiş bina yüksək funksionallığa və qabaqcıl texnoloji göstəricilərə malikdir.

Prezident İlham Əliyev milli pul nişanlarının konseptual yanaşmasının, dizayn xüsusiyyətlərinin və texnoloji inkişaf xəttinin müasir təqdimat üsulları ilə nümayiş olunduğu sərgiyə baxdı.

Bildirildi ki, sərgidə milli pul nişanlarının tarixi, inkişaf mərhələləri, dizayn və mühafizə elementləri əks olunub.

Bina 35 mərtəbədən ibarətdir, burada ümumilikdə 1300 nəfərlik iş sahəsi, konfrans və mətbuat zalları, müxtəlif təlim və toplantı otaqları var.

Yeni binanın layihələndirilməsi zamanı əlçatanlıq və inklüzivlik prinsiplərinə xüsusi diqqət yetirilib, fiziki məhdudiyyətli şəxslərin binaya rahat və təhlükəsiz şəkildə girişinin, həmçinin sərbəst hərəkətinin təmin edilməsinə imkan verən infrastruktur yaradılıb.





Binada rəsmi görüş və toplantılar üçün 25 otaq nəzərdə tutulur. Otaqların hamısı zəruri avadanlıqla təchiz olunub.

Yüksək keyfiyyət, təhlükəsizlik və dayanıqlı inkişaf standartlarına cavab verən binada müasir texnologiya və informasiya sistemləri də quraşdırılıb.

Burada həmçinin əməkdaşların asudə vaxtının səmərəli təşkili məqsədilə istirahət məkanı yaradılıb, 340 nəfərlik yeməkxana da onların ixtiyarına veriləcək.

Müxtəlif tədbirlərin və təqdimatların keçiriləcəyi 240 nəfərlik konfrans zalında isə hər bir şərait mövcuddur.

Gecə saatlarında binanın vizual tanınmasını təmin edən multimedia fasad sistemi müxtəlif işıq ssenarilərinin və proyeksiyaların tətbiqinə imkan verir. Fasad da daxil olmaqla, ərazinin və binanın işıqlandırılması hərəkət sensorlu LED texnologiyası ilə təchiz olunub. Bu isə öz növbəsində günün işıqlı saatlarında elektrik enerjisinə qənaət etməyə imkan verir.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Milli bayramınız münasibətilə zati-alinizə və xalqınıza həmrəylik və firavanlıq arzularımı çatdırmaqdan məmnunam.

Uca Tanrıya dua edirəm ki, azərbaycanlıları öz cəmiyyətlərini daha da inkişaf etdirməyə ruhlandırsın. Qoy, onlar ümumi rifah uğrunda çalışaraq, hər bir insanın ləyaqətini müdafiə edərək, ehtiyacı olanlara yardım göstərərək həmişə sülhün tərəfdarı olsunlar.

Zati-alinizə, dövlət işlərinə məsul şəxslərə və bütün həmvətənlərinizə İlahidən xeyir-dua diləyirəm.

***XIV LEO,***
***Roma Papası***

# Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 725 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin sisteminə işə götürülən işçilərin ştat sayının həddi"ndə və 2022-ci il 26 iyul tarixli 1764 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin bəzi hərbi qulluqçularının pul təminatının tənzimlənməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 725 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 47 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin sisteminə işə götürülən işçilərin ştat sayının həddi"ndə dəyişiklik təsdiq edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 26 iyul tarixli 1764 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 3, maddə 366 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin bəzi hərbi qulluqçularının pul təminatının tənzimlənməsi Qaydası"nda dəyişiklik təsdiq edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyun 2026-cı il*

# Azərbaycan və Keniya arasında məhkəmə-hüquq sahəsində əlaqələrin inkişaf perspektivləri nəzərdən keçirilib

**İyunun 3-də Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev ölkəmizdə səfərdə olan Keniya Respublikası Ali Məhkəməsinin sədri Marta Koomenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Bu barədə AZƏRTAC-a Konstitusiya Məhkəməsindən məlumat verilib.

Bildirilib ki, qonaqları salamlayan Fərhad Abdullayev Azərbaycan və Keniya arasında əlaqələrin son illər dinamik şəkildə inkişafının məmnunluq doğurduğunu, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin həyata keçirilməsinin əlaqələrimizin möhkəmləndirilməsində mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Sədr may ayında Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin Keniya Prezidenti Uillyam Samoei Ruto ilə görüşünün ölkələrimiz arasında bir sıra sahələrdə əməkdaşlığın inkişafı və qarşılıqlı etimadın göstəricisi olduğunu xüsusilə vurğulayıb.

Daha sonra Fərhad Abdullayev Konstitusiya Məhkəməsinin fəaliyyəti və qərar qəbuletmə proseduru, həmçinin məhkəmənin bir sıra hüquqi mövqeləri barədə ətraflı məlumat verib.

Səmimi qəbula görə minnətdarlığını bildirən Marta Koome qeyd edib ki, məhkəmə-hüquq sahəsində təcrübə mübadiləsinin aparılmasında, xüsusilə Azərbaycanın məhkəmə proseslərinin rəqəmsallaşdırılması prosesi ilə tanışlıq maraqlıdır. O, Keniya Ali Məhkəməsinin fəaliyyəti barədə məlumat verərək, iki ölkə arasında qarşılıqlı əməkdaşlığın genişləndirilməsi üçün birgə təşəbbüslərin əhəmiyyətini vurğulayıb. Marta Koome başçılıq etdiyi nümayəndə heyəti ilə birlikdə ölkəmizə səfəri çərçivəsində Qarabağ bölgəsində həyata keçirilən yenidənqurma və inkişaf layihələri ilə tanış olduğunu, işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərini, bölgənin sosial-iqtisadi inkişafını və əhalinin doğma torpaqlara qayıdışı istiqamətində görülən tədbirləri yüksək qiymətləndirdiyini nəzərə çatdırıb.

Görüş zamanı tərəflər məhkəmə-hüquq sahəsində ikitərəfli əlaqələrin inkişaf perspektivlərini müzakirə edib, həmçinin maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıblar.

Görüşdə ölkəmizin Keniyadakı fövqəladə və səlahiyyətli səfiri Sultan Hacıyev də iştirak edib.

Sonda qonaqlar Konstitusiya Məhkəməsinin binası ilə tanış olublar.

# Birləşmiş Krallığın ölkəmizə yeni təyin olunmuş səfiri etimadnaməsinin surətini nazirə təqdim edib

İyunun 3-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Krallığın ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Dankan Norman ilə görüşüb.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Görüş zamanı səfir Dankan Norman etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib. Nazir səfiri yeni təyinatı münasibətilə təbrik edib, ona Azərbaycandakı diplomatik fəaliyyətində uğurlar arzulayıb.



Söhbət zamanı Azərbaycan-Birləşmiş Krallıq münasibətlərinin mövcud vəziyyəti və perspektivləri, qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Tərəflər Azərbaycan ilə Birləşmiş Krallıq arasında siyasi, iqtisadi, enerji, ticarət, investisiyalar, təhsil və digər sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyini məmnunluqla qeyd ediblər.

Bununla yanaşı, münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi, yüksəksəviyyəli qarşılıqlı təmasların və iqtisadi tərəfdaşlığın daha da genişləndirilməsinin vacibliyi vurğulanıb.

Nazir Ceyhun Bayramov bölgədə mövcud vəziyyət, postmünaqişə dövründə yaranmış reallıqlar, habelə Azərbaycan-Ermənistan normallaşma prosesi, ölkəmiz tərəfindən atılan addımlar barədə qarşı tərəfi ətraflı məlumatlandırıb.

Səfir Dankan Norman Azərbaycanda fəaliyyətə başlamaqdan məmnunluğunu ifadə edib, ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də nəzərdən keçirilib.

# Avropa İttifaqı-Azərbaycan Tərəfdaşlıq Prioritetləri sənədinin layihəsi ilkin olaraq razılaşdırılıb

**İyunun 2-3-də Bakı şəhərində Azərbaycan Respublikası ilə Avropa İttifaqının nümayəndə heyətləri arasında yeni hərtərəfli saziş layihəsi və 2026-2030-cu illəri əhatə edən Tərəfdaşlıq Prioritetləri sənədi üzrə danışıqlar aparılıb.**

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Avropa İttifaqı tərəfinə isə Avropa Xarici Fəaliyyət Xidmətinin icraçı direktorunun müavini Audrone Perkauskiene rəhbərlik edib. Konstruktiv ruhda keçən müzakirələrin nəticəsində 2026-2030-cu illəri əhatə edən Avropa İttifaqı-Azərbaycan Tərəfdaşlıq Prioritetləri sənədinin layihəsi ilkin olaraq razılaşdırılıb.

Yeni hərtərəfli saziş üzrə aparılan danışıqlar çərçivəsində Azərbaycan Respublikasının aidiyyəti dövlət qurumlarının nümayəndələri Avropa İttifaqından olan həmkarları ilə birlikdə saziş layihəsinin müxtəlif bölmələri üzrə məhsuldar müzakirələr aparıb, bir sıra istiqamətlərdə irəliləyişlər əldə edilib və danışıqların növbəti mərhələləri ilə bağlı planlar müəyyən edilib.

Görüşün yekununda tərəflər yeni ikitərəfli saziş layihəsi üzrə danışıqların onlayn və fiziki görüşlər formatında intensiv şəkildə davam etdirilməsi barədə razılığa gəliblər.

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 9 iyul tarixli 294 nömrəli Qərarı ilə təsdiq edilmiş “Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə və ya əlilliyi olan uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün ödənilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı**

**№ 166** **Bakı şəhəri, 3 iyun 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 10 oktyabr tarixli 265-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 28 noyabr tarixli 537 nömrəli və "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 28 noyabr tarixli 538 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 9 iyul tarixli 294 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1317 (Cild I); 2025, № 10, maddə 976) ilə təsdiq edilmiş "Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə və ya əlilliyi olan uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün ödənilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1.7-ci bənd əlavə edilsin:

"1.7. Bu Qaydada nəzərdə tutulan qəyyumluq və himayəçilik orqanının funksiyalarını himayədar ailəyə verilmiş əlilliyi olan uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideyn himayəsindən məhrum olmuş əlilliyi olan uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (bundan sonra - Nazirlik), digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar həyata keçirirlər.".

2. 2.1-ci bəndin birinci cümləsində "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra - Nazirlik)" sözləri "Nazirliyin" sözü ilə əvəz edilsin.

3. 3.5.5-ci yarımbənddə "himayə" sözü "himayəçilik" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan-Belarus Hökumətlərarası Komissiyanın 16-cı iclası keçirilib

**Azərbaycan-Belarus Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq üzrə Komissiyasının 16-cı iclasında iştirak etmək məqsədilə Belarus Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikası Baş nazirinin müavini Samir Şərifovun rəhbərlik etdiyi nümayəndə heyəti Minsk şəhərindəki Qələbə abidəsini ziyarət edib.**



Mərasim zamanı Baş nazirin müavini və nümayəndə heyətinin üzvləri İkinci Dünya müharibəsi illərində faşizm üzərində qələbə uğrunda canlarından keçmiş qəhrəmanların əziz xatirəsini dərin ehtiramla yad edib, abidənin önünə əklil qoyublar. Daha sonra nümayəndə heyəti əbədi məşəlin önünə tər çiçəklər düzərək, həlak olanların xatirəsinə sükutla hörmətlərini bildiriblər.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, Belarusa səfər çərçivəsində Samir Şərifov Minskdə fəaliyyət göstərən Azərbaycan Ticarət Evi və Belarusun yerli məhsullarının nümayiş olunduğu "Perşı Regional Ticarət Mərkəzi" ilə tanış olub. Azərbaycan Ticarət Evində "Made in Azerbaijan" brendi altında təqdim edilən məhsullarla tanış olan Samir Şərifov bu platformanın Azərbaycan məhsullarının Belarus bazarında tanıdılması, ixrac imkanlarının genişləndirilməsi və işgüzar əlaqələrin inkişafında mühüm rol oynadığını vurğulayıb.

"Perşı" ticarət mərkəzində Belarusun müxtəlif regionlarında istehsal olunan məhsullara baxış keçirən Baş nazirin müavini yerli istehsalın təşviqi və ticarət infrastrukturunun inkişafı sahəsində təcrübə mübadiləsinin əhəmiyyətini qeyd edib.

Belarusun Nazirlər Kabinetində görüş zamanı Azərbaycan nümayəndə heyətini salamlayan Belarus Respublikasının Baş naziri Aleksandr Turçin bildirib ki, Azərbaycan-Belarus qarşılıqlı iqtisadi əməkdaşlığında sənaye kooperasiyası və yeni layihələr strateji "artım nöqtələri" kimi vacib rol oynayır. Turçin iki ölkə arasında uzunmüddətli və möhkəm tərəfdaşlıq münasibətlərinin olduğunu vurğulayıb və qarşılıqlı ticarət-iqtisadi əməkdaşlığın genişləndirilməsinin, yeni sənaye layihələrinin həyata keçirilməsinin qarşılıqlı fayda gətirəcəyini qeyd edib.

A.Turçin sənaye kooperasiyasında birgə istehsal sahələrinin, o cümlədən maşınqayırma, xüsusi və kommunal texnika, eləcə də digər məhsulların birgə istehsalının perspektivlərini yüksək qiymətləndirib.

Baş nazir əməkdaşlığın dərinləşdirilməsinin Belarus və Azərbaycan arasında ticarət dövriyyəsinin artmasına, qarşılıqlı investisiya layihələrinin genişlənməsinə və yeni birgə müəssisələrin yaradılmasına töhfə verəcəyini vurğulayıb. Bu çərçivədə tərəflər sənaye kooperasiya sahəsində yeni təşəbbüslərin irəli sürülməsi və praktiki layihələrin həyata keçirilməsi üçün qarşılıqlı işgüzar əlaqələrin möhkəmləndirilməsinin vacibliyini qeyd ediblər.

Daha sonra Minsk şəhərində Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 16-cı iclası keçirilib. İclasa Azərbaycan tərəfdən Baş nazirin müavini Samir Şərifov, Belarus tərəfindən isə Baş nazirin müavini Natalya Petkeviç rəhbərlik edib.

Belarus Respublikası Baş nazirinin müavini Natalya Petkeviç Azərbaycan və Belarus arasında münasibətlərin zamanın sınağından çıxmış dostluq və qarşılıqlı etimada əsaslandığını bildirib. O qeyd edib ki, dövlət başçıları tərəfindən qarşıya qoyulan ikitərəfli ticarət dövriyyəsinin 1 milyard ABŞ dollarına çatdırılması hədəfi ölkələr arasında əməkdaşlıq potensialının yüksək olduğunu göstərir.

N.Petkeviç sənaye kooperasiyası, birgə müəssisələrin yaradılması və kənd təsərrüfatı sahəsində əməkdaşlığın ikitərəfli münasibətlərin əsas inkişaf istiqamətlərindən olduğunu vurğulayıb. Forum çərçivəsində işgüzar dairələr arasında yeni tərəfdaşlıq imkanları və birgə investisiya layihələri də müzakirə olunub.

İclasda çıxış edən Samir Şərifov vurğulayıb ki, Azərbaycan-Belarus münasibətləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko arasında formalaşmış qarşılıqlı etimad və yüksəksəviyyəli siyasi dialoq əsasında uğurla inkişaf edir. O qeyd edib ki, Hökumətlərarası Komissiya iki ölkə arasında əməkdaşlığın genişləndirilməsində və əldə olunmuş razılaşmaların icrasının təmin edilməsində mühüm rol oynayır.

S.Şərifov bildirib ki, qlobal iqtisadi çağırışlara baxmayaraq, Azərbaycan və Belarus arasında ticarət əlaqələri müsbət dinamika nümayiş etdirir. 2026-cı ilin ilk dörd ayı ərzində qarşılıqlı ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 11 faizdən çox artaraq 158 milyon ABŞ dollarına çatıb. Tərəflər ticarət dövriyyəsinin daha da artırılması, ixrac nomenklaturasının şaxələndirilməsi və investisiya əməkdaşlığının genişləndirilməsi üçün əlavə tədbirlərin həyata keçirilməsi barədə razılığa gəliblər.

S.Şərifov Belarusda fəaliyyət göstərən Azərbaycan Ticarət Evinin ikitərəfli ticarət əlaqələrinin inkişafında mühüm rol oynadığını qeyd edib. Bildirilib ki, bu platforma Azərbaycan məhsullarının Belarus bazarında təşviqinə, ixracın genişlənməsinə və biznes əlaqələrinin möhkəmlənməsinə əhəmiyyətli töhfə verir.

İclasda sənaye kooperasiyası əməkdaşlığın ən perspektivli istiqamətlərindən biri kimi qiymətləndirilib. Qeyd olunub ki, Gəncə Avtomobil Zavodu Belarusun aparıcı sənaye müəssisələri ilə əməkdaşlıq çərçivəsində traktor, yük avtomobili, kommunal və xüsusi texnika istehsalını uğurla davam etdirir.

Tərəflər həmçinin Azərbaycanda məişət texnikasının istehsalı, lift avadanlıqlarının yığılması, farmasevtika və baytarlıq preparatlarının istehsalı, eləcə də mineral gübrələrin hazırlanması sahələrində yeni birgə layihələrin həyata keçirilməsi imkanlarını müzakirə ediblər.

İclasda Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən birgə layihələr xüsusi diqqət mərkəzində olub. Ağdam rayonunun Qızıl Kəngərli kəndində Belarus tərəfinin iştirakı ilə həyata keçirilən aqroşəhərcik layihəsinin icrası yüksək qiymətləndirilib. Tərəflər layihənin növbəti mərhələlərinin vaxtında həyata keçirilməsi və aqrar-sənaye komplekslərinin yaradılması istiqamətində əməkdaşlığın davam etdirilməsi barədə razılığa gəliblər.

Kənd təsərrüfatı sahəsində əməkdaşlığın inkişafı, ərzaq təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarət sistemləri arasında inteqrasiyanın gücləndirilməsi, kənd təsərrüfatı məhsullarının qarşılıqlı ixracının artırılması məsələləri də geniş müzakirə olunub.

Nəqliyyat və logistika sahəsində əməkdaşlığın inkişafı da iclasın əsas mövzularından biri olub. Qeyd edilib ki, 2026-cı ilin yanvar-aprel aylarında tranzit daşımalarının həcmi 63 faizdən çox artıb. Tərəflər yükdaşımaların rəqəmsallaşdırılması, elektron məlumat mübadiləsinin genişləndirilməsi və beynəlxalq nəqliyyat marşrutları üzrə əməkdaşlığın dərinləşdirilməsi istiqamətində birgə fəaliyyətin davam etdirilməsi barədə razılığa gəliblər.

Humanitar əməkdaşlıq sahəsində əldə olunmuş nəticələr də yüksək qiymətləndirilib. Mədəniyyət, təhsil, səhiyyə, gənclər siyasəti və idman sahələrində yeni əməkdaşlıq mexanizmlərinin yaradılması, mütəxəssis mübadiləsinin genişləndirilməsi və birgə layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

İclas çərçivəsində Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasının 16-cı iclasının yekun Protokolu, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi ilə Belarus Respublikası Milli Statistika Komitəsi arasında əməkdaşlığa dair Anlaşma Memorandumu, 2026-2030-cu illər üçün bədən tərbiyəsi və idman sahəsində əməkdaşlıq proqramı, Azərbaycan və Belarus Səhiyyə nazirlikləri arasında 2026-2027-ci illər üçün səhiyyə sahəsində əməkdaşlıq üzrə Yol Xəritəsi, Gəncə Avtomobil Zavodu ilə "POJSNAB" arasında yanğınsöndürmə texnikasının yığılmasına dair müqavilə imzalanıb.

İclasın yekununda tərəflər Azərbaycan-Belarus strateji tərəfdaşlığının möhkəmləndirilməsi, iqtisadi əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı maraq doğuran bütün istiqamətlər üzrə əlaqələrin inkişaf etdirilməsi istiqamətində birgə səylərin davam etdirilməsi barədə qətiyyətlərini bir daha təsdiqləyiblər.

Növbəti 17-ci Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasının iclasının 2027-ci ildə Bakı şəhərində keçirilməsi barədə razılıq əldə olunub.

Azərbaycan-Belarus Hökumətlərarası Komissiyanın 16-cı iclasından sonra hökumət nümayəndələrinin və iş adamlarının iştirakı ilə Azərbaycan-Belarus biznes-forumu keçirilib.

# Milli Məclisin Sədri Sahibə Qafarova Belqradda Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib

**Serbiya Respublikasında işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova paytaxt Belqraddakı Taşmaydan parkında Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker Sahibə Qafarova abidənin önünə gül dəstələri düzüb.

Qeyd edək ki, Ulu Öndər Heydər Əliyevin Taşmaydan parkında ucaldılmış abidəsinin açılışı Prezident İlham Əliyevin iştirakı ilə 2011-ci ildə olub.

Spiker Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti görkəmli serb yazıçısı Milorad Paviçin də abidəsini ziyarət edib.

***"Azərbaycan"***

# Azərbaycanla Serbiya dost və strateji tərəfdaş dövlətlərdir

**Milli Məclisin Sədri Sahibə Qafarova Serbiyaya işgüzar səfəri çərçivəsində bu ölkənin Milli Assambleyasının Sədri Ana Brnabiçlə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədrini salamlayan Serbiya Milli Assambleyasının Sədri Ana Brnabiç bildirib ki, Azərbaycan Serbiya üçün dost və müttəfiq ölkədir və iki ölkə arasında münasibətlər günbəgün inkişaf edir. O, Parlamentlərarası İttifaqın Qadın Parlamentarilərin Qlobal Konfransında iştirak etdiyinə görə Milli Məclisin Sədrinə təşəkkürünü bildirib.

Milli Assambleya Sədri ölkələrimiz arasında iqtisadi sahədə mövcud olan münasibətlərin, o cümlədən enerji sektorunda əməkdaşlığın önəmindən danışıb, enerji təhlükəsizliyi sahəsində Azərbaycanın dəstəyinə görə təşəkkürünü bildirib.

Ana Brnabiç iki ölkənin parlamentləri arasındakı münasibətlərin perspektivləri barədə də fikirlərini bölüşüb.

Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın Qadın Parlamentarilərin Qlobal Konfransının yüksək səviyyədə təşkilini qeyd edərək, bu cür tədbirlərin mövcud problemlərin müzakirəsində mühüm platforma olduğunu diqqətə çatdırıb.

Dost və strateji tərəfdaş olan ölkələrimiz arasında ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin mühüm rolundan danışan spiker Sahibə Qafarova bu kontekstdə Prezident İlham Əliyevin və Prezident Aleksandar Vuçiçin qarşılıqlı səfərlərinin, görüşlərinin və bu səfərlər zamanı imzalanmış sənədlərin önəmini diqqətə çatdırıb. Bildirilib ki, Prezident Əliyevin 2026-cı ilin fevralında Serbiyaya səfəri zamanı Qaz-Turbin Elektrik Stansiyasının tikintisi haqqında sazişin imzalanması isə enerji sahəsində əməkdaşlığın daha da inkişafına xidmət edir.

Görüşdə iqtisadi və siyasi sahələrlə yanaşı, humanitar istiqamətdə də əməkdaşlığın əhəmiyyəti qeyd olunub.

Söhbət zamanı parlamentlərin qarşılıqlı münasibətlərin dərinləşməsinə müsbət təsirini qeyd edən spiker Sahibə Qafarova parlamentlərarası əlaqələrin inkişafında qarşılıqlı dostluq qruplarının rolunu vurğulayıb, beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlıqdan, xüsusilə ölkələrimizin ərazi bütövlüyü, suverenlik məsələlərində bir-birini dəstəkləməsindən məmnunluğunu bildirib və parlament komitələri arasında əməkdaşlığın yaradılması imkanlarından danışıb.

Görüşdə parlamentlər arasında qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova Belqradda bir sıra görüşlər keçirib











Milli Məclisin Sədri Sahibə Qafarova Serbiyanın paytaxtı Belqrad şəhərində keçirilən Parlamentlərarası İttifaqın Qadın Parlamentarilərin Qlobal Konfransı çərçivəsində bir sıra görüşlər keçirib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Parlamentlərarası İttifaqın prezidenti Tulia Akson, ATƏT Parlament Assambleyasının prezidenti Pere Joan Pons, Zimbabve Senatının Sədri Mabel Memori Çinomona, Parlamentlərarası İttifaqın yeni seçilmiş Baş katibi Anda Filip, təşkilatın vitse-prezidenti Qabriela Moravska-Stanetska, İcraiyyə Komitəsinin üzvü Karen Bredli və Büro sədri Sintia Lopez Kastro, Mərakeş Nümayəndələr Palatasının vitse-spikerləri - Nadia Tuhami və Zaina İd Hali, Mavritaniya parlamentinin Sədr müavini Siham Nacem ilə görüşlərdə Qlobal Konfransın qadın parlamentarilər arasında





əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyəti qeyd edilib.

Söhbətlər zamanı çoxtərəfli platformaların önəmi vurğulanıb, beynəlxalq parlament təşkilatları çərçivəsində həmçinin qanunvericilik orqanları arasında ikitərəfli əməkdaşlıq məsələləri nəzərdən keçirilib.

***"Azərbaycan"***



# Sosial dəstək mexanizmləri yeni modelə keçir

**Ermənistanın təcavüzkar siyasəti nəticəsində doğma yurdlarını tərk etmək məcburiyyətində qalan vətəndaşlarımızın sosial müdafiəsinin təmin olunması hər zaman dövlət siyasətinin prioriteti olub. Ötən müddət ərzində qaçqın və məcburi köçkün statusunda olan insanlarımızın məskunlaşma problemlərinin aradan qaldırılması üçün müasir qəsəbələr tikilib, çoxmənzilli yaşayış kompleksləri istifadəyə verilib.**





Paralel olaraq, qaçqın və məcburi köçkünlərin məşğulluğu və təhsili istiqamətində ardıcıl tədbirlər icra edilib. Büdcədən ayrılan xüsusi müavinətlər və kommunal xidmətlər üzrə güzəştlər bu təbəqənin maddi durumunun yaxşılaşdırılmasında mühüm rol oynayıb.

Azərbaycan Prezidenti tərəfindən 2004-2019-cu illərdə 75 fərman və sərəncam imzalanıb, Nazirlər Kabineti tərəfindən 224 qərar və sərəncam, parlamentdə 11 qanun qəbul edilib. Dövlətimizin başçısının 2004-cü il 1 iyul tarixli sərəncamı ilə qüvvəyə minən "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" irimiqyaslı layihələrin əsas fəaliyyət planına çevrilib. 1990-cı illərin çətin dövrlərindən qalan çadır şəhərciklərinin və sığınacaqların mərhələli şəkildə aradan qaldırılması humanitar fəaliyyətin nüvəsini təşkil edib. Nəticədə 2007-ci ildə respublika ərazisindəki 12 çadır şəhərciyi və yük vaqonlarından ibarət müvəqqəti məskunlaşma yerləri tamamilə tarixə qovuşub. Keçici xarakter daşıyan 16 fin tipli qəsəbənin varlığına isə 2016-cı ildə son qoyulub.

Bununla yanaşı, qaçqın və məcbur köçkün statusunda olan vətəndaşlarımızın ev problemlərinin həlli üçün ölkə rəhbərliyinin xüsusi tapşırığı əsasında müasir infrastruktura malik 121 yeni qəsəbə və yaşayış binası inşa edilib.

Dövlətimizin qayğısı təkcə ev təminatı ilə məhdudlaşmayıb, məcburi köçkünlərin gündəlik ehtiyacları üçün vahid aylıq müavinət başda olmaqla çevik sosial yardım mexanizmləri reallaşdırılıb. Xüsusilə gənc nəslin ali təhsilə cəlb olunması prosesi diqqət mərkəzində saxlanılıb. Bu istiqamətdə tətbiq edilən güzəştlər gənclərin təhsildən kənarda qalmasının qarşısını alıb. Bunun əyani sübutu kimi, 2025-2026-cı tədris ilində ali və orta ixtisas müəssisələrinə ödənişli əsaslarla daxil olmuş 3923 məcburi köçkün statuslu tələbənin təhsil haqlarının tamamilə dövlət büdcəsi hesabına ödənilməsini qeyd etmək olar.

44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər dövlətimizin bu təbəqəyə olan diqqət və qayğısını yeni inkişaf mərhələsinə daşıyıb. Hazırda ölkənin ən mühüm strateji hədəfi olan "Böyük qayıdış" proqramı çərçivəsində, azad edilmiş torpaqlarda şəhər və kəndlər yenidən qurulur. 30 il ərzində əsarətdə qalan torpaqlarımız indi azaddır və viran edilmiş məkanlarımız milli memarlıq üslubu qorunmaqla ən müasir şəkildə bərpa olunur. Ata-baba ocaqlarına ləyaqətlə və təhlükəsiz şəraitdə dönən ailələr üçün dövlətin inzibati, texniki və maliyyə imkanları səfərbər edilib.

Yurduna qayıdan hər bir vətəndaşımız iş yerləri, istehsalat və kənd təsərrüfatı imkanları ilə təmin olunur. Məhz bu yeni reallıq keçmiş köçkün statusunun və indiyədək qüvvədə olan müvəqqəti dəstək mexanizmlərinin vətəndaşın mülkiyyətçi kimi güclənməsi fəlsəfəsinə uyğun olaraq, yeni dövrün tələbləri çərçivəsində yenidən tənzimlənməsini zəruri edir.

Yeni qaydalara əsasən, işğaldan azad edilmiş bölgələrə köçürülən, eləcə də köçürülmə təklifindən imtina edən şəxslər məcburi köçkün statusunda sayılmayacaq. Lakin sosial dəstək tədbirləri statusun itirildiyi gündən sonrakı 3 il müddətində də qüvvədə saxlanılır. Qanun qüvvəyə minənədək artıq köçürülmüş şəxslər üçün bu 3 illik müddət onların köçdükləri gündən etibarən hesablanır. Azad olunmuş ərazilərdə keçmiş məcburi köçkünlərə təqdim edilən ev və mənzillər dərhal onların şəxsi mülkiyyəti kimi rəsmiləşdirilir. Təhsil alan gənclərin təhsil haqlarının dövlət tərəfindən ödənilməsi isə onların oxuduqları müddətin sonuna qədər qüvvədə qalır.

Dövlətin sosial dəstək sistemi ünvanlı sosial yardım, məşğulluq layihələri, təhsil və səhiyyə dəstəyi kimi çoxşaxəli mexanizmlərə əsaslanır. Bu səbəbdən status dəyişsə də, ailələrin rifahı üçün dövlətin sosial inteqrasiya və reabilitasiya proqramları davamlı şəkildə qüvvədə qalacaq. Keçid dövründə sosial yardımların kəsilməməsi isə dövlət siyasətinin mərkəzində vətəndaş amilinin dayandığını bir daha sübut edir. Beləliklə, Böyük qayıdış keçmiş məcburi köçkünlərin sosial rifahının, təhlükəsizliyinin və gələcək inkişafının ən yüksək səviyyədə təminatıdır.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Keçmiş məcburi köçkünlərin doğma yurdlarında dayanıqlı məskunlaşmasının hüquqi əsasları təkmilləşdirilir



**İyunun 3-də Milli Məclisin Əmək və sosial siyasət, İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclası keçirilib. İclasda Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirə edilib.**

**Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa QULİYEV** iclası açaraq bildirib ki, müzakirəyə təqdim olunan qanun layihəsi keçmiş məcburi köçkünlərin doğma yurdlarında dayanıqlı məskunlaşmasının hüquqi əsaslarının təkmilləşdirilməsini, işğaldan azad edilmiş ərazilərə köçürülən şəxslərin statusunun və onlara göstərilən sosial dəstək mexanizmlərinin tənzimlənməsini nəzərdə tutur.

Komitə sədri qeyd edib ki, məcburi köçkünlər uzun illər Azərbaycan dövlətinin xüsusi qayğısı ilə əhatə olunub. Onların sosial və digər problemlərinin həlli Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın daim diqqət mərkəzində olub. Məcburi köçkünlərin sosial problemlərinin həlli ilə əlaqədar Azərbaycan Prezidenti tərəfindən 2004-2019-cu illər ərzində 75 fərman və sərəncam imzalanıb. Milli Məclis tərəfindən isə 11 qanun qəbul edilib. Torpaqlarımızın işğal altında olduğu dövrdə məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 121 yeni qəsəbə və yaşayış kompleksi tikilərək onların istifadəsinə verilib. 62 mindən çox məcbur köçkün ailəsinin, yəni 300 min nəfərdən çox məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Dövlətimiz tərəfindən məcburi köçkün ailələrinə uzun illər ərzində təhsil və vergi güzəştləri, vahid aylıq müavinət, ünvanlı sosial yardım, məşğulluq proqramları, tibbi-sosial reabilitasiya və digər sosial müdafiə mexanizmləri çərçivəsində davamlı dəstək göstərilib.

İclasda bildirilib ki, məcburi köçkünlərə göstərilən diqqət və qayğı torpaqlarımız işğaldan azad edildikdən sonra da davam etdirilib. Vətən müharibəsində qələbədən sonra işğaldan azad olunmuş ərazilərdə bərpa və geniş quruculuq işləri həyata keçirilir. Prezidentin 2021-ci il 7 iyul tarixli Fərmanı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb, yeni mərhələdə qarşıya qoyulan hədəflərin reallaşdırılması məqsədilə dövlət başçımızın 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Birinci Dövlət Proqramı"nın Tədbirlər Planı təsdiq edilib. Böyük Qayıdışa dair Dövlət Proqramının icrasına başlanmasından ötən dörd il ərzində bu məqsədlə dövlət büdcəsindən 28 milyard manata yaxın vəsait ayrılıb, Qarabağda və Şərqi Zəngəzurda 40-dan çox yaşayış məntəqəsində keçmiş məcburi köçkünlərin daimi yaşayışı təmin olunub. Hazırda işğaldan azad edilmiş ərazilərdə 85 minə yaxın soydaşımız yaşayır, təhsil alır və işlə təmin edilib.

Musa Quliyev bildirib ki, Birinci Dövlət Proqramının icrası ilə bağlı möhkəm hüquqi baza yaradılıb, qanunvericilikdə müvafiq dəyişiklik edilərək Qarabağda və Şərqi Zəngəzurda işləyən və məskunlaşan şəxslər üçün yeni müavinət növü təsis edilib, məzuniyyət, vergi, sosial sığorta güzəştləri və imtiyazları müəyyən olunub. Komitə sədri nəzərə çatdırıb ki, müzakirəyə təqdim olunan qanun layihəsi məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərdə yaşayış sahələrinə köçürülməsi, onların mülkiyyət hüququnun təmini və məcburi köçkün statusu ilə bağlı qanunvericilik aktlarının təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

İclasda İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib ki, qanun layihəsi Vətən müharibəsində əldə olunan qələbənin hüquqi nəticəsi olmaqla, məcburi köçkünlük dövründən Böyük qayıdış mərhələsinə keçidi təsbit edir. Onun sözlərinə görə, qanun layihəsi qalibiyyət dövrünün reallıqlarına uyğun məcburi köçkünlərin uzunmüddətli köçkünlük vəziyyətindən çıxarılaraq, daimi yaşayış və sabit həyat şəraiti ilə təmin olunmasının dəqiq hüquqi mexanizmlərini yaradır. Yeni hüquqi tənzimləmə müvəqqəti məskunlaşma modelini daimi məskunlaşma və mülkiyyət hüququ ilə əvəz edir, bununla da işğaldan azad edilmiş ərazilərə qayıdan məcburi köçkünlər öz evlərinin tamhüquqlu sahibi olurlar. Komitə sədri vurğulayıb ki, qanun layihəsi mülkiyyət hüququnun təmin olunması, daimi məskunlaşmanın təşviqi və sosial müdafiə tədbirlərinin davamlılığının qorunması baxımından xüsusi əhəmiyyət daşıyır.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli çıxış edərək, qanun layihəsinə əsasən məcburi köçkünlərin konstitusion mülkiyyət hüququnun bərpa olunduğunu, onun icra mexanizminin yaradıldığını söyləyib. O, mülkiyyət hüququnun bərpasını insan hüquqlarının təntənəsi kimi dəyərləndirib. Layihənin konseptual, hüquqi, vətəndaşların sosial müdafiəsi, insan hüquqlarının təmin edilməsi baxımından əhəmiyyətli olduğunu deyib, rəhbərlik etdiyi komitənin sənədi dəstəklədiyini bildirib.

Məsələ ətrafında aparılan müzakirələrdə deputatlar Vüqar Bayramov, Jalə Əliyeva, Azay Quliyev, Vüqar Rəhimzadə, Elman Nəsirov, Bəhruz Məhərrəmov çıxış edərək fikirlərini, bəzi qeyd və təkliflərini səsləndiriblər.

Müzakirələrin sonunda Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov və Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsi rəisinin müavini Səkinə Əliyeva çıxış edərək layihə barədə fikirlərini bildiriblər. Onlar qanun layihəsinin Böyük qayıdış prosesinin hüquqi əsaslarının möhkəmləndirilməsinə, məcburi köçkünlərin mənzil və mülkiyyət hüquqlarının daha dolğun təmin olunmasına xidmət etdiyini nəzərə çarpdırıblar. Həmçinin layihədə əksini tapan yeni hüquqi mexanizmlərin tətbiqi ilə bağlı məsələlərə aydınlıq gətiriblər.

İclasın yekununda qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# "Azərbaycan enerji resurslarını geosiyasi gücə və inkişaf modelinə çevirə bilib"

**"Azərbaycanın son 30 ildə həyata keçirdiyi enerji strategiyası yalnız enerji istehsalı və ixracı ilə məhdudlaşan uğur hekayəsi deyil. Bu, eyni zamanda təbii sərvətlərin düzgün planlaşdırma, güclü dövlət baxışı və effektiv diplomatiya vasitəsilə dayanıqlı inkişaf alətinə necə çevrilə biləcəyini göstərən mühüm nümunələrdən biridir".**

Bunu AZƏRTAC-a açıqlamasında türk ekspert Mehmet Emir Aksoy bildirib.

Onun sözlərinə görə, 1994-cü ildə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə əsası qoyulan enerji siyasəti Prezident İlham Əliyevin dövründə daha da inkişaf etdirilərək Azərbaycanı regional enerji istehsalçısından qlobal enerji təhlükəsizliyinə töhfə verən strateji aktora çevirib.

"Bu gün Azərbaycanın enerji diplomatiyası yalnız iqtisadi gəlirlər formalaşdırmır, eyni zamanda regional sabitliyi, beynəlxalq əməkdaşlığı və geosiyasi balansı dəstəkləyən mühüm amillərdən biri kimi çıxış edir. Azərbaycanın təcrübəsində diqqətçəkən əsas məqamlardan biri enerji gəlirlərinin infrastruktur layihələrinə, nəqliyyat sisteminin inkişafına, sənayeləşməyə, təhsilə və dövlət institutlarının gücləndirilməsinə yönəldilməsidir. Bir çox ölkələr təbii sərvətlərə malik ola bilər, lakin həmin resursları uzunmüddətli milli inkişaf strategiyasına çevirmək xüsusi bacarıq tələb edir. Azərbaycanın təcrübəsi bu baxımdan enerji ehtiyatlarına malik dövlətlər üçün öyrənilməsi vacib olan model kimi qiymətləndirilə bilər. Hazırda Azərbaycan yalnız neft və qaz ixracatçısı deyil, həm də enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri və regional bağlantılar sahəsində söz sahibi olan ölkələrdən biridir. Bu uğurun əldə edilməsində enerji diplomatiyasının rolu xüsusi əhəmiyyət daşıyır".




Mehmet Emir Aksoy həmçinin Türkiyə ilə Azərbaycan arasında enerji sahəsində formalaşmış strateji tərəfdaşlığın əhəmiyyətinə toxunaraq qeyd edib ki, bu əməkdaşlıq qardaşlıq münasibətlərinin strateji müttəfiqliyə çevrilməsinin ən uğurlu nümunələrindəndir.

"Bakı-Tbilisi-Ceyhan və TANAP kimi layihələr yalnız iki ölkəyə deyil, bütövlükdə Avropanın enerji təhlükəsizliyinə mühüm töhfələr verib. Müasir dövrdə enerji anlayışı artıq yalnız neft və təbii qazla məhdudlaşmır. Bərpaolunan enerji mənbələri, "yaşıl keçid", elektrikötürmə xətləri və enerjisaxlama texnologiyaları yeni dövrün əsas istiqamətlərinə çevrilib. Bu baxımdan Türkiyə ilə Azərbaycan arasında əməkdaşlığın yeni enerji sahələrinə genişlənməsi təbii və strateji zərurət kimi çıxış edir. TANAP modelinin gələcəkdə elektrik enerjisinin ötürülməsi sahəsinə tətbiqi türk dünyasının enerji inteqrasiyası baxımından tarixi imkanlar yarada bilər. Azərbaycanın malik olduğu bərpaolunan enerji potensialı ilə Türkiyənin Avropaya açılan enerji qapısı funksiyasının birləşməsi nəticəsində yalnız iqtisadi deyil, həm də geostrateji baxımdan güclü əməkdaşlıq modeli formalaşır", - deyə o bildirib.

Mehmet Emir Aksoy vurğulayıb ki, Zəngəzur dəhlizinin tam gücü ilə fəaliyyətə başlaması enerji, nəqliyyat və ticarət marşrutlarının eyni strateji xətt üzrə birləşməsinə imkan verəcək: "Bu isə Türkiyə, Azərbaycan və bütövlükdə türk dünyası arasında iqtisadi inteqrasiyanın daha da güclənməsinə xidmət edəcək. Qarşıdakı dövrdə enerji sahəsində əməkdaşlıq yalnız enerji resurslarının nəqli ilə məhdudlaşmayacaq, həmçinin texnologiya transferi, birgə investisiyalar, elektrik şəbəkələrinin inteqrasiyası və bərpaolunan enerji layihələri istiqamətində daha da dərinləşəcək. Bu proses türk dünyasında iqtisadi həmrəyliyin möhkəmlənməsinə və regional sabitliyin güclənməsinə mühüm töhfə verəcək".

# Sankt-Peterburqda MDB Dövlət Xəbər Agentlikləri Rəhbərləri Şurasının növbəti iclası keçirilib

**İyunun 3-də Peterburq Beynəlxalq İqtisadi Forumu (SPIEF) çərçivəsində Müstəqil Dövlətlər Birliyinin (MDB) Dövlət Xəbər Agentlikləri Rəhbərləri Şurasının (İnformşura) 34-cü iclası keçirilib. AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev iclasda iştirak edib.**



İclasda Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya və Tacikistan dövlət xəbər agentliklərinin rəhbərləri və nümayəndələri, həmçinin MDB İcraiyyə Komitəsinin təmsilçiləri süni intellektdən istifadə, bu kontekstdə peşəkar jurnalistika standartlarına riayət edilməsi, feyk məlumatlara qarşı mübarizə məsələlərini və bu sahədə xəbər agentlikləri arasında əməkdaşlıq perspektivlərini müzakirə ediblər. Çıxışlarda materialların sürətlə hazırlanması, mətnlərin müxtəlif dillərə tərcüməsi, beynəlxalq gündəmin monitorinqi, xəbər məzmununun keyfiyyətinin artırılması və beynəlxalq əməkdaşlığın genişləndirilməsi üçün müasir texnologiyalardan istifadənin vacibliyi vurğulanıb.

Xəbər agentlikləri arasında süni intellektdən istifadə sahəsində əməkdaşlığın genişləndirilməsi, birgə təlim proqramlarının yaradılması, avtomatlaşdırma sistemlərinin tətbiqi sahəsində təcrübə mübadiləsi ilə bağlı razılıq əldə olunub.

Tədbirdə Beynəlxalq Fakt Yoxlama Assosiasiyasının fəaliyyəti, MDB-nin 35 illiyi münasibətilə tədbirlərə hazırlıq məsələləri müzakirə olunub və Milli Xəbər Agentlikləri Assosiasiyasının (ANIA) yeni veb-saytının təqdimatı keçirilib.



# Tarixin ağır sınağından qüdrətli dövlətçiliyə...

**1993-cü ilin iyununda baş verən Gəncə hadisələrindən 33 il ötür. Üç onilliyi əhatə edən bu zaman kəsiyi bizə həmin günlərin Azərbaycan üçün nə qədər taleyüklü və təhlükəli olduğunu daha dərindən dərk etməyə imkan verir. Gəncədə baş verən silahlı toqquşma, sadəcə, lokal xarakterli qarşıdurma deyil, gənc müstəqil dövlətimizi birbaşa məhvə aparan, ölkəni vətəndaş müharibəsinin dərin, qarşısıalınmaz girdabına sürükləyən faciəli prosesin başlanğıcı idi.**

Həmin vaxt ağır və faciəli proseslərin qarşısını Heydər Əliyev dühası aldı. 33 il əvvəl ölkəmizin məhv olmaq, parçalanmaq və müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qaldığı bir vaxtda xalqın öz böyük oğluna - Heydər Əliyevə müraciət etməsi tarixi xilas oldu. Yalnız Ulu Öndərin proseslərə müdaxilə etməsi qardaş qırğınının qarşısını aldı, ölkəmizi və xalqımızı qurtuluş yoluna çıxardı.

## Böhran, xaos, anarxiya...

Müstəqilliyin ilk illərində işğal təhlükəsi ilə üz-üzə olan Azərbaycan həm də daxili çəkişmələr girdabında boğulurdu. Hakimiyyətdə olan siyasi qruplaşmalar dövlət quruculuğu, iqtisadi islahatlar və milli təhlükəsizliyin möhkəmləndirilməsi əvəzinə, hakimiyyət uğrunda kəskin mübarizəyə üstünlük verirdilər. Nəticədə bu naşı idarəçilik, hökm sürən dərəbəylik ölkəni dərin siyasi və hərbi böhrana sürüklədi. Cəbhədə torpaqlarımızın işğalına göz yumulur, daxildə isə anarxiya, separatizm və qanunsuz silahlı dəstələrin özbaşınalığı baş alıb gedirdi. Hakimiyyətdə bir-birini əvəzləyən siyasi qaragüruhların öz maraqları naminə xəyanətkar fəaliyyətlərinin nəticəsində vəziyyət getdikcə çıxılmaz hal alırdı və 1993-cü ilin yayına doğru siyasi və hərbi böhran daha da dərinləşərək mərkəzdənqaçmanın özünün ən yüksək səviyyəsinə çatmasına birbaşa rəvac verdi. AXC-Müsavat cütlüyü faktiki olaraq hakimiyyət orqanlarına, o cümlədən ordu qüvvələrinə nəzarəti itirmiş, cəmiyyət həyatının bütün sahələrində anarxiya, xaos baş alıb gedirdi. Cəbhədə döyüşməli olan hərbi hissələr hakimiyyət uğrunda mübarizəyə qoşulmuşdular, paytaxt küçələrində tanklar şütüyürdü. Həmin zaman ölkədə müşahidə olunan siyasi böhran mövcud iqtidarın problemlərin qarşısında aciz qaldığını, dövlət idarəetmə aparatının öz qarşısında duran vəzifələrin öhdəsindən gələ bilmədiyini göstərirdi.

Qeyd edək ki, 1993-cü ilin fevralında prezident Ə. Elçibəy keçmiş korpus komandiri S.Hüseynovun rəhbəlik etdiyi 709 saylı hərbi hissənin ləğvi barədə sərəncam imzalamışdı. Lakin ölkədəki mərkəzdənqaçmanın, hakimiyyətin yerlərdə nəzarəti itirməsinin nəticəsi idi ki, nə bu sərəncamın tələbləri, nə də bununla bağlı sonra qəbul edilən məsələlər yerinə yetirilmədi. Faktiki olaraq S.Hüseynovun əsiryesirinə çevrilmiş cəbhə-müsavat iqtidarı ölkəni uçuruma yuvarlamışdılar.

1993-cü il iyun ayının əvvəllərində Gəncə şəhərində sözügedən hərbi hissənin şəxsi heyəti ilə hökumət qüvvələri arasında silahlı toqquşma baş verdi, qardaş qanı axıdıldı. O vaxt iqtidarda olan qaragüruhun idarəçilikdəki bağışlanmaz səhvləri ucbatından çoxsaylı insan ölümünə səbəb olan bu hadisələr AXC-Müsavat cütlüyünün alnına yazılmış və tarix boyu nifrətlə xatırlanacaq qara ləkə oldu.

Gəncədə baş verən faciəvi hadisələrdən sonra ölkədəki vəziyyət ən acınacaqlı, idarəolunmaz vəziyyətə çatmışdı. Belə ağır şəraitdə S.Hüseynovun tabeçiliyindəki silahlı dəstənin Gəncə və ətraf rayonlarda hakimiyyət strukturlarını devirərək Bakıya doğru hərəkət etməyə başlaması daha böyük faciələrdən xəbər verirdi. Ölkə vətəndaş müharibəsinin bir addımlığında idi. Bütün bunlar Azərbaycanın bir dövlət kimi mövcudluğunu sual altında qoyurdu.

## Xalqın qurtuluş çağırışı

Belə ağır məqamda xalqın yeganə ümidi və tək dayağı Heydər Əliyev idi. O vaxt xalqın təkidli istəyi ilə Ümummilli Liderin Bakıya gəlməsi, siyasi hakimiyyətə qayıdışı həm də, sözün həqiqi mənasında, xalqın öz taleyinə sahib çıxması demək idi. Vətənpərvər şəxsiyyət Heydər Əliyev öz ömrünü və nüfuzunu dövlətin xilasına həsr etdi. Azərbaycanın bir dövlət kimi dünya xəritəsindən silinməsinə imkan vermədi.

Sonradan Azərbaycanın həmin mürəkkəb dövrü ilə bağlı Ulu Öndər Heydər Əliyev deyirdi ki, 1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı: "Azərbaycan dağılmağa başladı və ovaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi və qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycanın ərazisinin, demək olar ki, yarısından çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək və Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən ovaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri və ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".

Bakıya gəldiyi ilk gündən - 1993-cü il iyunun 9-dan etibarən Ulu Öndər birbaşa hadisələrin mərkəzinə, Gəncəyə üz tutdu. Ümummilli Liderin "ağsaqqal sözü", iradəsi və təcrübəsi ölkəni vətəndaş qarşıdurmasından, qardaş qırğınından qurtardı. Dahi şəxsiyyət Heydər Əliyev özünü bu ağır yükün altına verməklə, Azərbaycanın gələcəyini şəxsi maraqlarından üstün tutduğunu bir daha sübut etdi.

1993-cü il iyunun 15-də Heydər Əliyevin Ali Sovetin Sədri seçilməsi ilə Azərbaycanın dövlətçilik tarixində yeni, parlaq bir era - Milli Qurtuluş dövrü başladı. Bu, Azərbaycanın qurtuluşu, inkişafı və əsl müstəqilliyinin bünövrəsinin qoyulması demək idi.

Ulu Öndər özünün siyasi dühası ilə ölkəmizi uçurumun kənarından döndərdi, daxili sabitliyi bərpa etdi, ordu quruculuğuna təkan verdi və beynəlxalq arenada Azərbaycanın nüfuzunu formalaşdırdı. Heydər Əliyev siyasəti təkcə dövləti xilas etmədi, həm də onu dayanıqlı və müasir inkişaf yoluna çıxardı.

Bu gün Ümummilli Lider Heydər Əliyevin yaratdığı təməllər üzərində Azərbaycan özünün ən qüdrətli, ən parlaq dövrünü yaşayır. Ulu Öndərin siyasi məktəbinin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan tarixinə öz adını Qalib dövlət kimi yazdırdı. 30 illik işğala son qoyulması, ərazi bütövlüyümüzün bərpası, suverenliyimizin tam təmin edilməsi və bölgədə yeni reallıqların formalaşdırılması - bütün bunlar Ulu Öndər Heydər Əliyevin qoyduğu strateji xəttin ən böyük təntənəsidir.

33 il əvvəl Ulu Öndər Heydər Əliyev tərəfindən atılan tarixi addımlar, göstərilən fədakarlıq bu gün bizim qürur duyduğumuz müstəqil, güclü və qalib Azərbaycana aparan yolun ilk addımları idi. Tarix bir daha sübut etdi ki, dövlətin və xalqın taleyi, onun həqiqi, vətənpərvər və qətiyyətli liderləri ilə sıx bağlıdır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# AHİK nümayəndə heyəti Cenevrədə BƏT-in növbəti illik konfransında iştirak edir





**İsveçrənin Cenevrə şəhərində Beynəlxalq Əmək Təşkilatına (BƏT) üzv ölkələrin hökumət nümayəndələri və sosial tərəfdaşların iştirakı ilə Beynəlxalq Əmək Konfransının 114-cü sessiyası keçirilir.**



Tədbirdə ölkəmizi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) və Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının nümayəndə heyətləri təmsil edir.

Azərbaycan nümayəndə heyəti konfrans çərçivəsində bir sıra görüşlər keçirib. Beynəlxalq Əmək Təşkilatının İşçilərin Fəaliyyətləri Bürosunun (ACTRAV) direktoru Oliver Röpke ilə görüşdə işçilərin hüquqlarının müdafiəsi, əməyin təhlükəsizliyi, gender bərabərliyinin təşviqi, birgə təlim proqramları və institusional potensialın gücləndirilməsi istiqamətində həyata keçirilən layihələrdən bəhs olunub.

Konfederasiya sədri Sahib Məmmədov BƏT-lə uzunmüddətli və səmərəli əməkdaşlığın mövcud olduğunu qeyd edib. Bildirilib ki, Azərbaycanın BƏT-in 60 konvensiyasını və bir protokolunu ratifikasiya etməsi ölkədə beynəlxalq əmək standartlarının tətbiqinə və əmək münasibətlərinin müasir tələblərə uyğun tənzimlənməsinə verilən önəmin göstəricisidir. Bütün bunlar isə AHİK-lə BƏT arasında əlaqələrin daha da genişlənməsi üçün əlverişli zəmin yaradır.

Görüşdə AHİK və ACTRAV arasında 2025-ci ildə təhsil sahəsində imzalanmış əməkdaşlıq haqqında Bəyannamədən irəli gələn məsələlərin icrası, həmkarlar ittifaqı üzvlərinin bilik və peşə bacarıqlarının artırılması istiqamətində görülən işlər diqqətə çatdırılıb, gələcək əməkdaşlıq perspektivləri, birgə təşəbbüslər və layihələrin həyata keçirilməsi imkanları müzakirə olunub.

AHİK nümayəndələri tədbir çərçivəsində Ukrayna Həmkarlar İttifaqları Federasiyasının sədri Sergey Bızovla da görüşüblər.

Görüşdə Azərbaycan və Ukraynanın həmkarlar ittifaqları arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb, əmək hüquqlarının qorunması, əməyin mühafizəsi, layiqli əmək şəraitinin təmin olunması sahələrində təcrübə mübadiləsinin əhəmiyyəti vurğulanıb.

***Nərminə ƏSGƏROVA,***
***"Azərbaycan"***

# "Azərbaycanın rolu Cənubi Qafqazın strateji əhəmiyyətini artırır"

**Rumınıyanın "Libertatea" nəşrində dərc olunan geniş müsahibədə Amerika Birləşmiş Ştatlarının (ABŞ) nüfuzlu analitik mərkəzlərindən biri olan "German Marshall Fund"un Cənubi və Genişlənmiş Avropa Proqramının layihə rəhbəri İrina Neaqu Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqları, regionun Avropa üçün artan əhəmiyyətini və Rumınıyanın bu prosesdə oynaya biləcəyi rolu təhlil edib.**

AZƏRTAC xəbər verir ki, ekspertin fikrincə, son illərdə baş verən hadisələr Cənubi Qafqazı Avropa siyasətinin periferiyasından çıxararaq strateji maraqların kəsişdiyi əsas bölgələrdən birinə çevirib. Xüsusilə Ukraynada müharibənin başlamasından sonra Avropa İttifaqı və ABŞ regiona yalnız təhlükəsizlik deyil, enerji, logistika və geoiqtisadi baxımdan da daha böyük diqqət ayırmağa başlayıb.

İrina Neaqu qeyd edir ki, regionda baş verən dəyişikliklər fonunda Azərbaycanın rolu xüsusi olaraq ön plana çıxır. Onun sözlərinə görə, Azərbaycan bu gün yalnız enerji ixrac edən ölkə deyil, həm də Avropa ilə Asiya arasında formalaşan yeni nəqliyyat və logistika sisteminin əsas iştirakçılarından biridir. Son illərdə rəsmi Bakı tərəfindən həyata keçirilən iri infrastruktur layihələri ölkənin geosiyasi çəkisini əhəmiyyətli dərəcədə artırıb.

Müsahibədə vurğulanır ki, Avropanın enerji təhlükəsizliyi məsələsində Azərbaycanın əhəmiyyəti xüsusilə yüksəlib. Rusiyadan enerji asılılığını azaltmağa çalışan Avropa İttifaqı üçün Azərbaycan etibarlı və uzunmüddətli tərəfdaş kimi çıxış edir. "Cənub qaz dəhlizi", onun tərkib hissələri olan TANAP və TAP layihələri artıq Avropanın enerji xəritəsinin mühüm elementlərindən birinə çevrilib.




Ekspert hesab edir ki, Azərbaycanın strateji əhəmiyyəti yalnız enerji sahəsi ilə məhdudlaşmır. Orta dəhliz layihəsinin inkişafı nəticəsində ölkə Avropa ilə Mərkəzi Asiya arasında əsas tranzit qovşağına çevrilməkdədir. Çindən Avropaya qədər uzanan yeni nəqliyyat marşrutlarında Azərbaycanın iştirakı regionun geoiqtisadi əhəmiyyətini daha da artırır. Bu baxımdan Bakı yalnız Cənubi Qafqazın deyil, bütövlükdə Avrasiya məkanının əsas logistika mərkəzlərindən biri kimi çıxış edir.

İrina Neaqu bildirir ki, Ermənistan-Azərbaycan münaqişəsinin başa çatmasından sonra regionda yaranan yeni reallıq iqtisadi əməkdaşlıq və nəqliyyat əlaqələrinin genişləndirilməsi üçün əlavə imkanlar yaradıb. Onun fikrincə, davamlı sülhün təmin olunması Cənubi Qafqazı Avropa ilə Asiya arasında ən vacib geoiqtisadi körpülərdən birinə çevirə bilər.

Qeyd olunur ki, Rumınıya da bu prosesdən faydalana biləcək əsas ölkələr sırasındadır. Konstansa limanı, Qara dəniz üzərindən daşımalar və Avropa nəqliyyat şəbəkələri Rumınıyanı Azərbaycan və Mərkəzi Asiyadan gələn yük axınları üçün mühüm istiqamətə çevirə bilər. Ekspert hesab edir ki, Buxarestin strateji maraqları Azərbaycan və Cənubi Qafqazla əməkdaşlığın genişləndirilməsini zəruri edir.

İrina Neaqu vurğulayır ki, Qara dəniz regionu ilə Cənubi Qafqaz artıq bir-birindən ayrılmaz geosiyasi məkan kimi nəzərdən keçirilir. Bu kontekstdə Azərbaycan həm enerji təhlükəsizliyi, həm nəqliyyat marşrutları, həm də regional sabitliyin təmin olunması baxımından Avropa üçün xüsusi əhəmiyyət daşıyır.

Ekspertin sözlərinə görə, Vaşinqton və Brüsselin regiona yanaşmalarında müəyyən fərqlər olsa da, hər iki tərəf Azərbaycanın və bütövlükdə Cənubi Qafqazın strateji əhəmiyyətini qəbul edir. ABŞ daha çox təhlükəsizlik və geosiyasi sabitliyə diqqət yetirirsə, Avropa İttifaqı enerji və iqtisadi inteqrasiya layihələrinə üstünlük verir. Lakin hər iki yanaşmanın mərkəzində regionun sabitliyi və beynəlxalq nəqliyyat əlaqələrinin inkişafı dayanır.

Müsahibədə xüsusi vurğulanır ki, Rumıniya Vaşinqton və Brüssel arasında seçim etmək məcburiyyətində deyil. Əksinə, Buxarest Avropa İttifaqının iqtisadi imkanları ilə ABŞ-nin təhlükəsizlik təşəbbüslərini birləşdirən körpü rolunu oynaya bilər. Bu isə Rumıniyanın Qara dəniz regionunda mövqelərini daha da gücləndirə bilər.

İrina Neaqu hesab edir ki, qarşıdakı illərdə Cənubi Qafqazın beynəlxalq siyasətdə rolu daha da artacaq. Azərbaycanın enerji resursları, nəqliyyat imkanları və müstəqil xarici siyasəti ölkəni regionun əsas strateji aktorlarından birinə çevirib. Bu səbəbdən Avropa İttifaqı və ABŞ regionla bağlı siyasətlərini formalaşdırarkən Bakının rolunu nəzərə almağa məcburdur.

Belə bir nəticəyə gəlinir ki, yeni geosiyasi şəraitdə Azərbaycan artıq yalnız Cənubi Qafqaz ölkəsi deyil, Avropa ilə Asiyanı birləşdirən strateji platformanın əsas iştirakçılarından biri kimi çıxış edir. Bu reallıq həm Rumıniyanın, həm də bütövlükdə Avropa İttifaqının regiona marağını artıran əsas amillərdən biri hesab olunur.

# Azərbaycanın enerji diplomatiyası qlobal enerji təhlükəsizliyinin mühüm dayaqlarından birinə çevrilib

**"Azərbaycanın son illərdə həyata keçirdiyi məqsədyönlü enerji siyasəti ölkəni qlobal enerji təhlükəsizliyinin təmin olunmasında mühüm aktorlardan birinə çevirib. Xüsusilə "Cənub qaz dəhlizi"nin əsas seqmentləri olan TANAP və TAP layihələri enerji resurslarının təhlükəsiz, etibarlı və dayanıqlı şəkildə dünya bazarlarına çatdırılmasında strateji rol oynayır".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında türkiyəli iqtisadçı-ekspert İlhan İşbaş bildirib.

Onun sözlərinə görə, son illərdə dünyada enerji təhlükəsizliyi məsələsi qlobal gündəliyin əsas mövzularından birinə çevrilib.

"Geosiyasi gərginliklər, enerji bazarlarında qiymət dəyişkənliyi və təchizat zəncirlərində yaranan problemlər bir çox ölkələri alternativ enerji mənbələri və etibarlı tərəfdaşlar axtarmağa sövq edib. Məhz belə bir şəraitdə Azərbaycan özünü etibarlı enerji tərəfdaşı kimi təsdiqləməyi bacarıb. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi enerji strategiyası Azərbaycanın yalnız enerji resurslarına malik ölkə kimi deyil, həm də enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayan dövlət kimi tanınmasına şərait yaradıb. Azərbaycanın təşəbbüsü və liderliyi ilə reallaşdırılan "Cənub qaz dəhlizi" XXI əsrin ən iri enerji layihələrindən biri hesab olunur. TANAP və TAP layihələri Avrasiyanın enerji xəritəsini dəyişdirən mühüm təşəbbüslərdir. TANAP Azərbaycan qazını Türkiyə üzərindən Avropaya nəql edən əsas magistral kəmər olmaqla yanaşı, Türkiyənin də enerji mərkəzinə çevrilməsinə töhfə verir. TAP isə bu qazı Avropanın müxtəlif ölkələrinə çatdıraraq qitənin enerji mənbələrinin şaxələndirilməsində mühüm rol oynayır. Bu layihələrin uğuru Azərbaycanın uzunmüddətli strateji baxışının nəticəsidir. Vaxtilə böyük investisiyalar və ciddi siyasi iradə tələb edən bu təşəbbüslər bu gün həm region ölkələri, həm də Avropa üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycan qazının Avropa bazarına çıxışı qitənin enerji təhlükəsizliyinin gücləndirilməsinə real töhfə verir", - deyə ekspert vurğulayıb.

İlhan İşbaş bildirib ki, hazırda Azərbaycanın təbii qaz ixrac etdiyi ölkələrin sayının 16-ya çatması ölkənin enerji siyasətinin uğurunu əks etdirən mühüm göstəricidir. Bu ölkələr arasında Türkiyə, Gürcüstan və Avropa İttifaqına üzv bir sıra dövlətlər yer alır. Azərbaycan qazına olan tələbatın artması ixrac coğrafiyasının gələcəkdə daha da genişlənəcəyindən xəbər verir.

Ekspert qeyd edib ki, Avropada enerji təhlükəsizliyi məsələlərinin aktuallaşdığı bir dövrdə Azərbaycan qazına marağın artması tamamilə qanunauyğundur. Çünki Azərbaycan uzun illərdir bütün müqavilə öhdəliklərini vaxtında və tam şəkildə yerinə yetirən etibarlı tərəfdaş kimi tanınır. Bu etimadın formalaşması isə uzunmüddətli və sabit enerji siyasətinin nəticəsidir.

Onun sözlərinə görə, Azərbaycanın enerji sektorunda əldə etdiyi uğurlar yalnız iqtisadi göstəricilərlə məhdudlaşmır: "Enerji layihələri regional əməkdaşlığın genişlənməsinə, siyasi dialoqun möhkəmlənməsinə və yeni iqtisadi imkanların yaranmasına şərait yaradır. Bu baxımdan Azərbaycan enerji diplomatiyasını uğurla həyata keçirən ölkələrdən biri kimi seçilir. Azərbaycan həm ənənəvi enerji resurslarının ixracında, həm də "yaşıl enerji" sahəsində həyata keçirdiyi layihələrlə gələcəyin enerji xəritəsinin formalaşmasında fəal iştirak edir. Xəzər dənizinin külək enerjisi potensialı, işğaldan azad olunmuş ərazilərdə reallaşdırılan "yaşıl enerji" layihələri və beynəlxalq tərəfdaşlarla qurulan əməkdaşlıq əlaqələri ölkənin enerji sektorunda yeni inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir".

Ekspert vurğulayıb ki, qlobal enerji keçidi dövründə Azərbaycan öz strateji əhəmiyyətini daha da artırır. Ölkə həm karbohidrogen ehtiyatlarının etibarlı təchizatçısı, həm də bərpaolunan enerji sahəsində perspektivli tərəfdaş kimi çıxış edir. Bu isə Azərbaycanın beynəlxalq nüfuzunu gücləndirməklə yanaşı, regional və qlobal enerji təhlükəsizliyinə verdiyi töhfənin əhəmiyyətini daha da artırır.

# Azərbaycanın xarici siyasətinin uğurları

## ABŞ Azərbaycanla əlaqələri daha da geniş müstəviyə keçirmək istəyir

**Son günlər Azərbaycan-ABŞ münasibətlərində müşahidə olunan dinamika ciddi geosiyasi əhəmiyyət kəsb edir. ABŞ Prezidenti Donald Trampın "Bakı Enerji Həftəsi"nin iştirakçılarına ünvanladığı məktub, Prezident İlham Əliyevin bu müraciətə verdiyi konseptual cavab, həmçinin ABŞ dövlət katibinin köməkçisi Kaleb Orrun Bakıya səfəri və ilk Azərbaycan-ABŞ İqtisadi Dialoqunun işə başlaması əhəmiyyətli diplomatik hadisələrdir. Bu addımlar Vaşinqtonun Cənubi Qafqaz strategiyasında Bakının mütləq liderliyini və əvəzolunmaz rolunu qəbul etdiyini göstərən vahid siyasi xəttin təzahürüdür. Proseslərin dərin təhlili sübut edir ki, ikitərəfli münasibətlər keyfiyyətcə yeni, daha praqmatik mərhələyə qədəm qoyub.**



**Milli Məclisin deputatı Sevinc FƏTƏLİYEVA** qəzetimizə açıqlamasında deyib ki, Ağ Evin vasitəçiliyi ilə Vaşinqtonda Azərbaycan-Ermənistan arasında əldə olunmuş razılaşmalar, vitse-prezident Cey Di Vensin Bakıya səfəri və imzalanmış strateji sənədlər göstərir ki, ABŞ artıq regiona xəyali illüziyalarla deyil, Bakının diktə etdiyi real geosiyasi reallıqlar prizmasından baxır: "Donald Trampın "Bakı Enerji Həftəsi"nə ünvanladığı məktub Vaşinqtonun qlobal enerji təhlükəsizliyində Azərbaycanın roluna verdiyi strateji qiymətdir. ABŞ Prezidentinin enerji inteqrasiyasını sülh prosesinin mühüm komponenti kimi qeyd etməsi Ağ Evin regionda sabitliyin təməlini nədə gördüyünün rəsmi göstəricisidir. Prezident İlham Əliyevin bu məktuba reaksiyası isə təkcə təşəkkür jesti deyil, həm də qlobal enerji siyasətinə dair ciddi bir manifestdir. Dövlətimizin başçısı Qərbin bəzi dairələrinin uzun illər boyu neft-qaz sənayesinə qarşı apardığı əsassız və ideoloji kampaniyaları ifşa edərək, Tramp administrasiyasının rasional mövqeyini "enerji sahəsində normal yanaşmanın bərpası" kimi xarakterizə etdi".

Deputatın fikrincə, Bakı ilə Vaşinqtonun baxışları ondan ibarətdir ki, qlobal enerji keçidi reallıqlara əsaslanmalıdır. Azərbaycan "yaşıl enerji"yə milyardlarla dollar investisiya yatırsa da, ənənəvi karbohidrogen resurslarının hələ uzun müddət dünya iqtisadiyyatının sütunu olacağını açıq bəyan edir və Tramp administrasiyasının sənaye yönümlü kursu ilə bu nöqtədə tam üst-üstə düşür. ABŞ dövlət katibinin köməkçisi Kaleb Orrun Bakı səfəri və ilk iqtisadi dialoqun təşkili ikitərəfli əlaqələrin şaxələnməsinin bariz nümunəsidir. Bu, Vaşinqtonun Azərbaycanla münasibətləri artıq yalnız təhlükəsizlik və ya hərbi komponentlər üzərindən deyil, genişmiqyaslı iqtisadiyyat, investisiya və biznes tərəfdaşlığı müstəvisinə keçirmək istəyindən xəbər verir.

Sevinc Fətəliyeva qeyd edib ki, Vaşinqtonun Cənubi Qafqaz siyasətində baş verən bu transformasiya fundamental amillərlə şərtlənir: "Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tam bərpa etdikdən sonra, ABŞ-nin regiona "erməni məsələsi" və ya münaqişə prizmasından baxmaq rıçaqları sıradan çıxdı və keçmiş münaqişə arxivə gömüldü. Bu gün Vaşinqton üçün regionda əsas mövzular - Orta dəhlizin təhlükəsizliyi, rəqəmsal bağlantılar, Mərkəzi Asiyanın Qərblə inteqrasiyası və qlobal təchizat zəncirinin kəsintisiz işləməsidir ki, bunun da mərkəzi və əvəzolunmaz qovşağı məhz Azərbaycandır. Əgər əvvəlki illərdə ABŞ-nin regional siyasətində müəyyən təzyiq və birtərəfli yanaşma elementləri hiss olunurdusa, bu gün reallıq tamamilə fərqlidir. "Vaşinqton dərk edir ki, Azərbaycan həm Qərb, həm də Şərq istiqamətində tam müstəqil, milli maraqlara söykənən və balanslaşdırılmış xarici siyasət yürüdür. Bakı ilə təzyiq dilində danışmağın qeyri-mümkün olduğunu anlayan Ağ Ev bu gün qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıq modelini seçib. Məhz buna görə də, Trampın məktubu və yüksəksəviyyəli ABŞ nümayəndə heyətinin Bakı rəsmiləri ilə təmasları, sadəcə diplomatik protokol deyil. Bu, rəsmi Bakının apardığı qətiyyətli siyasətin Vaşinqton tərəfindən qəbul edilməsi və Cənubi Qafqazın şəksiz lideri ilə uzunmüddətli strateji ittifaqın qurulması prosesidir", - deyə o bildirib.

Deputat əlavə edib ki, iki ölkə arasında formalaşan bu praqmatik dialoqun qarşıdakı dövrdə daha da dərinləşəcəyi və regionun iqtisadi xəritəsini yenidən formalaşdıracağı şübhə doğurmur.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Zəngəzur dəhlizi Naxçıvanın sosial-iqtisadi inkişafına yeni imkanlar yaradacaq

**Azərbaycan Prezidenti İlham Əliyevin "Bakı Enerji Həftəsi"nin rəsmi açılışındakı geniş nitqi ölkəmizin bu günə qədər keçdiyi zəngin inkişaf yolunu, qlobal miqyasda qazanılan uğurları və perspektiv hədəfləri beynəlxalq birliyin diqqətinə bir daha təqdim etdi. Vaxtilə lokal xarakterli Xəzər Neft və Qaz Sərgisi kimi fəaliyyətə başlayan bu platforma hazırda qlobal enerji gündəminin müəyyənləşdirildiyi ən nüfuzlu beynəlxalq forumlardan birinə çevrilib. Məhz Azərbaycan rəhbərliyinin düşünülmüş enerji strategiyası ölkəmizin siyasi-iqtisadi baxımdan güclənməsinə, makroiqtisadi sıçrayışa və beynəlxalq arenadakı çəkisinin artmasına zəmin yaratdı.**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında **Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədr müavini Arzu ABDULLAYEV** deyib. Onun sözlərinə görə, Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP kimi nəhəng transmilli infrastruktur layihələri birbaşa Azərbaycanın strateji təşəbbüsü, dövlətimizin başçısının siyasi iradəsi və liderliyi sayəsində həyata vəsiqə qazanıb: "Hazırda "Cənub qaz dəhlizi"nin geniş imkanları sayəsində Azərbaycanın mavi qazı 16 müxtəlif ölkəyə uğurla nəql olunur ki, onların da 10-u birbaşa Avropa İttifaqının üzvləridir. Bu göstərici Azərbaycanın Avropa qitəsinin enerji təhlükəsizliyində əvəzsiz rolunu aydın nümayiş etdirir. Xüsusilə indiki geosiyasi gərginliklər və qlobal bazarlardakı qeyri-sabitlik fonunda ölkəmiz etibarlı tərəfdaş imicini tam mənada möhkəmləndirib. İxrac coğrafiyamız durmadan genişlənir, yeni resurs mənbələrinin dövriyyəyə buraxılması isə gələcək potensialımızı daha da artıracaq".

Arzu Abdullayev vurğulayıb ki, Azərbaycanın enerji sahəsində qazandığı uğurlar təkcə zəngin yataqlarla yox, həmçinin xarici siyasət kursu ilə birbaşa bağlıdır: "Bu gün Azərbaycan reallaşdırdığı layihələr vasitəsilə Avropa, Türkiyə, Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarını ortaq maraqlar ətrafında birləşdirən nəhəng əməkdaşlıq arxitekturası qurub. Prezident İlham Əliyevin də vurğuladığı kimi, bu regional əməkdaşlıq formatlarının əsas ideya müəllifi və hərəkətverici qüvvəsi məhz Azərbaycandır".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini diqqətə çatdırıb ki, "Bakı Enerji Həftəsi"ndə Prezident İlham Əliyevin toxunduğu digər mühüm məqamlardan bir də Zəngəzur dəhlizi (TRIPP) ilə bağlıdır: "Dövlətimizin başçısı xüsusi olaraq vurğulayır ki, yaradılan infrastruktur yalnız yükdaşımalar və tranzit maraqlarına xidmət etmir. Nəqliyyat xətləri, o cümlədən dəmir və avtomobil yolları regional inteqrasiyanın, siyasi sabitliyin və təhlükəsizliyin əsasını qoyur: "Beləliklə, söhbət geniş coğrafiyanı əhatə edən böyük əməkdaşlıq məkanından gedir və bu bağlılıq yalnız nəqliyyat sahəsi ilə məhdudlaşmır. Halbuki nəqliyyat sahəsində əldə etdiyimiz nailiyyətlərlə də haqlı olaraq fəxr edə bilərik. Dəmir yolu və avtomobil yolu infrastrukturuna qoyduğumuz sərmayələr sayəsində yeni nəqliyyat dəhlizləri açmışıq və qitələri bir-biri ilə əlaqələndirmişik". Çıxışın mühüm məqamı Zəngəzur dəhlizinin inşası və onun əsaslandığı sənədlə bağlıdır. Prezident İlham Əliyev bu dəhlizin reallaşmasını konkret hüquqi-siyasi çərçivəyə bağlayır: "Şərq-Qərb dəhlizi uğurla fəaliyyət göstərir. Şübhəsiz ki, Şərq-Qərb dəhlizinin yeni qolu olacaq Zəngəzur dəhlizi də inşa ediləcəkdir. Bu, ötən il avqustun 8-də Ağ Evdə Amerika Birləşmiş Ştatlarının Prezidenti, Ermənistanın Baş naziri və mənim tərəfimdən imzalanmış sənədə əsaslanır. Bütün bunlar hamımız üçün böyük sərvətdir". Bu fakt göstərir ki, Zəngəzur dəhlizi (TRİPP) artıq hər iki tərəfin və beynəlxalq vasitəçilərin rəsmi olaraq öhdəlik götürdüyü, regionda davamlı sülhün və iqtisadi blokadanın aradan qaldırılmasının əsas şərti kimi qəbul edilən hüquqi layihədir".

A.Abdullayev deyib ki, layihənin əsas mahiyyəti ondan ibarətdir ki, Zəngəzur dəhlizi vasitəsilə Azərbaycan strateji hədəflərindən birini reallığa çevirəcək: "Dəhliz vasitəsilə uzun illər blokada şəraitində qalan Naxçıvan Muxtar Respublikası ilə maneəsiz quru bağlantısı yaranacaq. Uzunluğu 42 kilometr olan Zəngəzur dəhlizinin açılması, ilk növbədə, Naxçıvan Muxtar Respublikasının təcriddən çıxmasını təmin edəcək və bölgənin sosial-iqtisadi inkişafına xüsusi təkan verəcək. Eyni zamanda Azərbaycanın digər bölgələri ilə daha sıx inteqrasiyasına xidmət edəcək. Yeni yollar, dəmir yolları, enerji xətləri və rəqəmsal bağlantı Naxçıvanı mühüm logistika mərkəzinə çevirəcək. Bu isə ticarət və turizm imkanlarının genişlənməsinə, yerli istehsalın ixrac potensialının artmasına şərait yaradacaq".

Müsahibimizin qənaətincə, Zəngəzur dəhlizi Naxçıvanda istehsal olunan məhsulların xarici bazarlara çıxarılmasına şərait yaradacaq: "Cənubi Qafqazdan keçən həm "Şimal-Cənub", həm də "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin bir hissəsi olaraq Naxçıvan Muxtar Respublikası sənayesinin ixrac potensialının artmasına, inkişafına imkanlar yaradacaq. Naxçıvan Muxtar Respublikasında duz, polimetallik filizlər, mis, mərmər, qranit, bazalt, qızıl, gümüş yataqlarının işlənməsi və hasil olunan məhsulların ixracı da Zəngəzur dəhlizinin fəaliyyətindən asılı olacaq. Dolayısı ilə bu dəhliz muxtar respublikaya sərmayə axınını təmin edəcək ki, bu da büdcə gəlirlərinin artmasını, əhalinin sosial-iqtisadi vəziyyətinin yüksəlməsini şərtləndirəcək".

Arzu Abdullayev əlavə edib ki, Azərbaycanın tranzit potensialından geniş istifadə edilməsində Zəngəzur dəhlizinin çox böyük əhəmiyyəti var və bu nəqliyyat sistemi təkcə Azərbaycanla Naxçıvanı, Azərbaycanla Türkiyəni deyil, həmçinin Avropa ilə Asiyanı birləşdirən əsas nəqliyyat sistemi olacaq: "Zəngəzur dəhlizi daha geniş anlamda yeni regional nəqliyyat və iqtisadi inteqrasiyanın əsasını qoyacaq. Avropanı Asiya ilə birləşdirəcək bu unikal yol regionun nəqliyyat xəritəsinə dəyişikliklər edəcək, bir çox ölkələr arasında ticarət əlaqələrini sürətləndirəcək. Dəhlizin keçdiyi hər bir ölkənin tranzit ixrac imkanları artacaq, onların dünya iqtisadiyyatına daha geniş şəkildə inteqrasiyası baş verəcək. Zəngəzur dəhlizi Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta dəhliz) ən mühüm halqası kimi Çindən gələn yüklərin Avropaya daşınma müddətini ənənəvi dəniz yolu ilə müqayisədə 30-35 gündən 12-15 günə qədər azaldır. Süveyş kanalında və Qırmızı dənizdə yaşanan son geosiyasi böhranlar fonunda bu quru marşrutu qlobal təchizat zəncirinin kəsilməməsi üçün ən təhlükəsiz alternativlərdən biridir. Zəngəzur dəhlizinin tamamlayıcısı olaraq Türkiyə tərəfindən inşası planlaşdırılan Qars-Iğdır-Naxçıvan dəmir yolu xətti Azərbaycanın əsas hissəsindən gələn qatarların birbaşa olaraq Türkiyənin daxili dəmir yolu şəbəkəsinə və oradan Avropaya çıxışını təmin edəcək. Bu, Naxçıvanı sadəcə son məntəqə deyil, qlobal bir kəsişmə nöqtəsi edir".

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

## Strateji tərəfdaşlığın uğurlu modeli

### Azərbaycan - İtaliya münasibətləri qarşılıqlı etimada, etibarlı müttəfiqliyə əsaslanır

**İtaliya və Azərbaycan arasında münasibətlər qarşılıqlı etimada, strateji tərəfdaşlığa və iqtisadi-mədəni bağlara söykənir. Hər iki ölkə Cənubi Qafqaz və Aralıq dənizi regionları arasında mühüm geosiyasi körpü rolunu oynayır və bu əlaqələr ildən-ilə daha da şaxələnir. Avrasiyanın enerji xəritəsini dəyişdirən nəhəng infrastruktur layihələrindən tutmuş beynəlxalq təhlükəsizlik platformalarına qədər geniş spektri əhatə edən bu əməkdaşlıq regional sabitliyin və iqtisadi tərəqqinin əsas hərəkətverici qüvvələrindən birinə çevrilib.**





Bakı və Roma arasında qurulan yüksəksəviyyəli münasibətlərin və səmimi dostluğun bariz nümunəsi Azərbaycan Prezidenti İlham Əliyevin İtaliya Respublikasının yaranmasının 80-ci ildönümü münasibətilə Prezident Sercio Mattarellaya ünvanladığı təbrik məktubunda öz rəsmi ifadəsini tapıb. Prezident İlham Əliyev məktubda İtaliyanın Azərbaycan üçün etibarlı və yaxın dost olduğunu xüsusi vurğulayaraq, iki ölkə arasında çoxölçülü strateji tərəfdaşlığın hər keçən gün yeni məzmunla zənginləşdiyini bəyan edib: "Şadam ki, ölkələrimiz arasında münasibətlər qarşılıqlı hörmət və etimad ruhunda inkişaf edir, çoxölçülü strateji tərəfdaşlığımız gündən-günə genişlənir və yeni məzmunla zənginləşir. Biz İtaliya ilə münasibətlərimizin bütün sahələrdə inkişafına xüsusi əhəmiyyət veririk. Keçən ilin oktyabrında Sizin Azərbaycana ikinci dəfə rəsmi səfər etməyiniz dövlətlərarası əlaqələrimizin və aramızdakı siyasi dialoqun yüksək səviyyəsindən xəbər verir".

Dövlətimizin başçısının məktubu Azərbaycan-İtaliya arasındakı strateji tərəfdaşlığın mövcud vəziyyətini, əldə olunmuş uğurları və gələcək hədəfləri ortaya qoyur. Prezident İlham Əliyevin İtaliya ilə münasibətlərin qarşılıqlı hörmət və etimad ruhunda inkişaf etdiyini bildirməsi iki ölkə arasında əlaqələrin səmimiyyət üzərində qurulduğunu nümayiş etdirir.

Azərbaycan Prezidenti bəyan edib ki, siyasi əlaqələrimizin yüksək səviyyəsi Azərbaycan-İtaliya qarşılıqlı fəaliyyətinin inkişafında mühüm rol oynayır: "Uğurlu iqtisadi-ticari, enerji, sənaye istehsalı tərəfdaşlığından tutmuş təhsilə qədər uzanan və ildən-ilə yeni sahələri əhatə edən əməkdaşlığımız strateji xarakter daşıyır. İqtisadi əlaqələrimizin mövcud potensialının tam şəkildə reallaşdırılması, sərmayə, müdafiə, humanitar, o cümlədən yeni istiqamətlər üzrə əməkdaşlığın şaxələndirilməsi qarşımızda duran əsas məsələlərdəndir".

İqtisadiyyat, ticarət, enerji və sənaye istehsalı sahəsindəki mövcud uğurlu tərəfdaşlıq iki ölkə arasındakı münasibətlərin real, praktiki nəticələrə əsaslandığını göstərir. Bu tərəfdaşlıq hər iki dövlətin milli maraqlarına tam cavab verir. Sərmayə, müdafiə və humanitar sahələrdə əməkdaşlığın şaxələndirilməsi hədəfi isə münasibətlərin gələcək yol xəritəsidir. Xüsusilə müdafiə və digər istiqamətlər üzrə əməkdaşlığın vurğulanması ondan xəbər verir ki, Bakı və Roma münasibətlərini daha strateji sahələrə doğru genişləndirmək əzmindədirlər.

İtaliya Azərbaycanın Avropa İttifaqında mühüm strateji və ən böyük iqtisadi tərəfdaşıdır. Bu tərəfdaşlıq imzalanmış sənədlərlə hüquqi müstəvidə ən yüksək səviyyəyə çatdırılıb. Eyni zamanda İtaliya Azərbaycanın enerji resurslarının ilk alıcılarındandır. Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə Azərbaycan qazının İtaliyaya nəql edilməsi bu ölkənin enerji təhlükəsizliyində Bakının rolunu strateji dərəcədə artırıb və İtaliyanı Azərbaycanın ən böyük ixrac bazarlarından birinə çevirib.

Prezident İlham Əliyevin Avropada ən çox səfər etdiyi ölkələrdən birinin məhz İtaliya olması təsadüfi deyil və bu, yüksəksəviyyəli siyasi dialoqun təzahürüdür. İntensiv səfərlər tərəflər arasında qarşılıqlı etimadın yüksək olduğuna, mühüm qərarların operativ şəkildə qəbul edildiyinə və siyasi iradənin möhkəmliyinə dəlalət edir.

2025-ci ilin 30 sentyabr-1 oktyabr tarixlərində İtaliya Prezidenti Sercio Mattarellanın, 2026-cı il mayın 4-də Baş nazir Ciorcia Meloninin Azərbaycana səfərləri Romanın Bakıya verdiyi yüksək siyasi əhəmiyyətin, strateji xəttin sabit qaldığının bariz göstəricisidir. Bir ölkə rəhbərliyinin qısa müddətdə tərəfdaş ölkəyə ardıcıl səfərləri xarici siyasətdə həmin dövlətə verilən müstəsna önəmin nümayişidir. Bu səfərlər tərəflər arasındakı strateji bağları daha da möhkəmləndirir və yeni əməkdaşlıq platformalarının əsasını qoyur.

Rəsmi Roma Bakının haqlı mövqeyini hər zaman birmənalı dəstəkləyib. Digər Avropa dövlətlərindən fərqli olaraq, İtaliya Azərbaycanın ərazi bütövlüyünü hər zaman müdafiə edərək etibarlı tərəfdaş olduğunu ortaya qoyub.

İtaliyanın Azərbaycanın qeyri-neft sektoruna sərmayə yatırması iqtisadi əlaqələrin şaxələndirilməsini hədəfləyir. Bu ölkənin texnologiyaları və investisiyaları Azərbaycanın sənaye, kənd təsərrüfatı və infrastruktur layihələrində tətbiq olunmaqla ölkə iqtisadiyyatının dayanıqlı inkişafına töhfə verir.

İtaliya şirkətlərinin Qarabağda bərpa-quruculuq işlərində çox fəal iştirakı İtaliyanın postmünaqişə dövründə də Bakının yanında yer aldığının əyani göstəricisidir. Azad edilmiş ərazilərin minalardan təmizlənməsi, enerji infrastrukturunun qurulması, "ağıllı şəhər" layihələri və tarixi abidələrin bərpasında İtaliya şirkətlərinə üstünlük verilməsi iki dövlətin dostluğunun təcəssümüdür.

Onu da xüsusilə qeyd etmək lazımdır ki, Heydər Əliyev Fondunun xətti ilə İtaliyada, Vatikanda çox mühüm işlər görülüb, dini və tarixi abidələr bərpa edilib. Bu layihələr, xüsusən Vatikandakı katakombaların bərpası Azərbaycanın multikultural dəyərlərini İtaliya və dünya ictimaiyyətinə tanıtdırmaqla yanaşı, iki ölkənin xalqları arasında güclü əlaqələr də yaradır.

Nəticə etibarilə, Bakı və Roma arasındakı münasibətlər sınaqlardan keçmiş dostluğun nümunəsidir. Enerji təhlükəsizliyindən Qarabağın qurulmasına, Vatikandakı bərpa layihələrindən müdafiə sənayesinə qədər uzanan çoxşaxəli əməkdaşlıq hər iki ölkənin gələcəyə eyni strateji nəzərlərlə baxdığının isbatıdır. Avropa ilə Asiya arasında mühüm geosiyasi körpülər quran Azərbaycanın İtaliya ilə tərəfdaşlığı regional və qlobal sabitliyə mühüm töhfələr verməkdədir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

## "Gürcüstan-Azərbaycan-Türkiyə əməkdaşlığı bizim üçün xüsusi əhəmiyyət kəsb edir"

**"Gürcüstan tranzit funksiyasının inkişafına, bağlantı baxımından imkanlarımızın təkmilləşdirilməsinə xüsusi əhəmiyyət verir və bu baxımdan, Gürcüstan, Azərbaycan və Türkiyə arasında əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir".**

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Gürcüstanın Baş naziri İrakli Kobaxidze bildirib. Baş nazirin sözlərinə görə, yeni Bakı-Tbilisi-Qars dəmir yolu xətti tarixi bir layihədir və Gürcüstan, Azərbaycan və Türkiyə arasında uğurlu əməkdaşlığın ən yaxşı ifadəsidir.

"Bu layihə həm də dost ölkələrimizlə nə qədər sıx əməkdaşlıq etdiyimizin ən yaxşı ifadəsidir. Bu əməkdaşlıq daha da inkişaf etdiriləcək", - deyə Kobaxidze bildirib.

## Kanada Siqh Federasiyasının üzvü: "Azərbaycanda açıq dialoq üçün geniş imkanlar yaradılıb"

**"Siqh icması və Bakı Təşəbbüs Qrupu arasında qurulan tərəfdaşlığı çox yüksək qiymətləndirirəm. Siqh icmasının yaşadıqları ilə Azərbaycan xalqının keçmişdə üzləşdiyi tarixi sınaqlar arasında müəyyən oxşarlıqlar olduğunu anlayan bir platformanın mövcudluğunu görmək olduqca qürurvericidir".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında Kanada Siqh Federasiyasının üzvü Hansra Harprit Sinqh söyləyib.

O bildirib ki, Azərbaycanda açıq dialoq və fikir mübadiləsi üçün geniş imkanlar yaradılıb.

"Bu gün Bakıda transmilli təzyiqlər, Hindistan hökumətinin Siqh icmasına hələ 1984-cü ildən çox-çox əvvəl başlayan genişmiqyaslı təsirləri, eləcə də 1984-cü il Siqh hadisələri barədə danışmaq üçün belə açıq və təhlükəsiz bir mühitin formalaşması həqiqətən böyük dəyər daşıyır. Bu mühiti və imkanı yaratdığına görə Bakı Təşəbbüs Qrupuna dərin təşəkkürümü bildirirəm.

Fəaliyyət göstərən Atəşgah məbədini ziyarət edərkən, bu ərazilərdə siqh icması və burada iz qoymuş siqh dini liderləri ilə bağlı qorunub saxlanılmış tarixi irsi görmək bizim üçün çox unikal və dəyərli bir təcrübə oldu. Bu tarixi irsin qorunub saxlanılmasına göstərdikləri dəstəyə görə Azərbaycana minnətdarlığımızı ifadə edirik", - deyə o əlavə edib.

# Azərbaycanın enerji sahəsində uğurlarını nümayiş etdirən platforma

**Azərbaycan qlobal enerji liderlərinin bir araya gəldiyi "Bakı Enerji Həftəsi"nə" növbəti dəfə evsahibliyi etdi. Həm regional, həm də beynəlxalq səviyyədə etibarlı enerji platforması kimi formalaşan "Bakı Enerji Həftəsi" özündə 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi, 14-cü Xəzər Beynəlxalq Energetika və "Yaşıl Enerji" Sərgisi və 31-ci "Baku Energy Forum"nu birləşdirir. Builki enerji həftəsində 46 ölkədən 270-dən çox şirkət iştirak etdi. Bu, sözün əsl mənasında, böyük bir göstəricidir.**



**Milli Məclisin deputatı Müşfiq CƏFƏROV** qəzetimizə açıqlamasında deyib ki, bu beynəlxalq platforma Azərbaycanın enerji sahəsində əldə etdiyi uğurları nümayiş etdirməklə yanaşı, yeni çağırışlara uyğun təşəbbüslərin, texnologiyaların və əməkdaşlıqların müzakirə olunduğu mühüm bir mərkəzdir: "Azərbaycanın müasir enerji siyasətinin təməli 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə imzalanmış "Əsrin müqaviləsi" əsasında qoyulub. Bu müqavilə yalnız bir neft sənaye layihəsi deyil, həm də ölkənin beynəlxalq enerji bazarına inteqrasiyasının başlanğıcı idi. Bu hadisə Azərbaycanın iqtisadi müstəqilliyini və siyasi suverenliyini gücləndirməyə xidmət etdi".

Deputat qeyd edib ki, Prezident İlham Əliyevin bu tədbirin açılış mərasimində çıxışı zamanı səsləndirdiyi fikirlər Azərbaycanın enerji sahəsindəki gələcək prioritetlərini də aydın şəkildə göstərir. Dövlət başçısının vurğuladığı kimi, Azərbaycan enerji siyasətini təkcə neft və qaz hasilatı ilə məhdudlaşmır, həm də "yaşıl enerji" keçidi, təchizatın şaxələndirilməsi və dayanıqlı infrastrukturun qurulması kimi vacib layihələrin icrasını da həyata keçirir. Azərbaycanın uzun illər uğurla həyata keçirdiyi enerji layihələri onun regionda sabitliyin təminatçısına çevrilməsini təmin edib.

M.Cəfərov bildirib ki, "Bakı Enerji Həftəsi" Azərbaycanın yalnız enerji siyasətini deyil, həm də qlobal əməkdaşlıq mədəniyyətini, dayanıqlı inkişaf prinsipini, iqtisadi suverenliyini və müasir dövlətçiliyini nümayiş etdirir: "Bu tədbir Azərbaycanın enerji strategiyasının nümayiş platformasıdır. Layihə çərçivəsində təşkil olunan tədbirlər həm keçmişin uğurlarını xatırladır, həm bu günün reallıqlarını təqdim edir, həm də gələcəyi aydın şəkildə göstərir.

Deputat vurğulayıb ki, Prezident İlham Əliyevin "Bakı Enerji Həftəsi"ndəki çıxışı Azərbaycanın qlobal enerji siyasətinin ənənəvi enerji ehtiyatlarından "yaşıl enerji"yə keçid strategiyasını və artan regional liderlik rolunu təsdiqləməklə yanaşı, ölkəmizlə ABŞ arasındakı strateji münasibətlərin inkişafının da təsdiqi oldu.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# AZƏRBAYCAN-ABŞ: enerji sektorundan süni intellektəcən inkişaf edən tərəfdaşlıq

**Azərbaycan ilə Amerika Birləşmiş Ştatları (ABŞ) arasında iqtisadi əməkdaşlıq bir çox sahələr üzrə genişlənir. Bunlar regional bağlantılar, ticarət, investisiya, enerji təhlükəsizliyi, eləcə də süni intellekt, rəqəmsal infrastruktur və digər sahələrdir. Əməkdaşlıq artıq strateji tərəfdaşlıq çərçivəsində yeni mərhələyə qədəm qoyur.**



"Bakı Enerji Həftəsi" çərçivəsində iyunun 2-də keçirilən Azərbaycan İqtisadiyyat Nazirliyi və ABŞ Dövlət Departamentinin birgə təşkilatçılığı ilə Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyaya uyğun olaraq Azərbaycan-ABŞ İqtisadi Dialoqunun ilk iclasında da məhz bu sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub. İqtisadiyyat naziri Mikayıl Cabbarov və ABŞ dövlət katibinin iqtisadi, enerji və biznes məsələləri üzrə köməkçisi Kaleb Orrun həmsədrliyi ilə keçirilən tədbirdə hər iki ölkənin dövlət qurumları, beynəlxalq maliyyə institutları və özəl sektorun nümayəndələri iştirak ediblər. Tədbirdə bir daha vurğulanıb ki, bu tərəfdaşlıq Prezident İlham Əliyevin və Prezident Donald Trampın baxışları və liderliyinə əsaslanır. 2025-ci ilin avqustunda dövlətimizin başçısının Vaşinqtona tarixi səfəri və həmin səfər zamanı siyasi anlaşma əldə olunduğu, Strateji Tərəfdaşlıq Xartiyasına dair memorandumun razılaşdırıldığı xatırlanıb.

İqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycan-ABŞ münasibətlərinin dinamik şəkildə inkişaf etdiyini vurğulayıb, Strateji Tərəfdaşlıq Xartiyasının iqtisadi əməkdaşlığın möhkəmləndirilməsində mühüm rol oynadığını qeyd edib: "Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutu (TRIPP) və Orta dəhliz vasitəsilə ticarət əlaqələrinin genişləndirilməsi, enerji təhlükəsizliyinin gücləndirilməsi, kritik minerallar üzrə təchizat zəncirlərinin inkişafı, eləcə də nəqliyyat, logistika və rəqəmsal infrastruktur sahələrində yeni investisiya imkanlarının araşdırılması üçün əhəmiyyətli perspektivlər mövcuddur. Birgə layihələrin müəyyənləşdirilməsi, işgüzar əlaqələrin daha da möhkəmləndirilməsi və qarşılıqlı faydalı təşəbbüslərin həyata keçirilməsi üzrə konstruktiv dialoq ikitərəfli əməkdaşlığa töhfə verəcək".

Başqa sözlə, hər iki ölkə iqtisadi əməkdaşlığın genişləndirilməsində və iqtisadiyyatın strateji sektorlarına investisiyaların artırılmasında maraqlıdır.

İqtisadi münasibətlərin əsas dayaqlarından biri olaraq enerji sektoru qalır. ABŞ-nin "ExxonMobil" və "Chevron" kimi qlobal şirkətləri Azərbaycanın neft-qaz sənayesində mühüm rol oynayırlar. ABŞ rəsmisi də sözügedən tədbirdə vurğulayıb ki, enerji sektoruna investisiyalar artırılır, bu təməl daha böyük əməkdaşlıq platformasına çevrilir. Təkcə bu həftə ABŞ şirkətləri tərəfindən müxtəlif sahələri əhatə edən 8 milyard dollardan çox dəyərdə sazişlər imzalanıb: "Bu razılaşmalar yalnız enerji sektorunu deyil, həm də investisiya fondlarının, o cümlədən Apollo kimi qurumların Azərbaycanın enerji sektoruna cəlb olunmasını əhatə edir".

Enerji təhlükəsizliyi məsələləri müzakirə olunarkən "Cənub qaz dəhlizi"nin inkişafı, elektrik bağlantıları və enerji istehsalının artırılması istiqamətində əməkdaşlıq imkanları nəzərdən keçirilib. Təchizat zəncirlərinin diversifikasiyası, kritik mineral təchizat zəncirlərinin şaxələndirilməsi və digər sahələrdə tərəfdaşlıq məsələləri müzakirə olunub.

Xatırladaq ki, "Bakı Enerji Həftəsi" çərçivəsində ABŞ özəl sektoru ilə SOCAR arasında, eləcə də İqtisadiyyat Nazirliyində əlavə kommersiya sənədləri imzalanıb.

Azərbaycan-ABŞ İqtisadi Dialoqunda həmçinin biznes dairələri ilə görüş keçirilib, özəl sektor arasında əməkdaşlığın inkişafı və yeni tərəfdaşlıqların qurulmasının əhəmiyyəti qeyd olunub. Eləcə də bildirilib ki, ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə əldə olunmuş tarixi sülh razılaşması Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutunu da özündə ehtiva edir. Bu, investisiya yatırılan tarixi infrastruktur dəhlizidir və multimodal xarakter daşıyacaq. Bu dəhlizin yalnız sərnişin daşımalarını deyil, həm də enerji və rəqəmsal infrastrukturun inkişafını təmin edəcəyi gözlənilir.

Göründüyü kimi, ikitərəfli iqtisadi münasibətlərin möhkəm təməli enerji sektoru olsa da, artıq bu çərçivədən daha geniş əməkdaşlığa doğru irəliləyir. Təsadüfi deyil ki, sözügedən tədbirin iqtisadi investisiyalar üzrə panelində hər iki xalqın qarşılıqlı rifahına xidmət edən iqtisadi layihələrin, o cümlədən nəqliyyat və logistika, enerji və rəqəmsal texnologiyalara ikitərəfli investisiyaların təşviqi məsələləri müzakirə olunub. Həmçinin investorlar üçün təşviq mexanizmləri, üstünlüklər və əlverişli hüquqi rejim təklif edən Ələt Azad İqtisadi Zonası daxil olmaqla müxtəlif istiqamətlərdə ABŞ sərmayələrinin təşviqi imkanları diqqət mərkəzində olub.

Süni intellekt və rəqəmsal infrastruktur üzrə müzakirələrdə isə ABŞ-nin yüksək texnoloji həlləri barədə məlumat verilib. Data mərkəzləri, süni intellekt texnologiyalarının tətbiqi istiqamətində əməkdaşlıq, tənzimləyici çərçivələrin inkişafı və bu sahədə gələcək tərəfdaşlıq nəzərdən keçirilib. Tərəflər iqtisadi əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı investisiyaların təşviqi və innovativ layihələrin dəstəklənməsinin əhəmiyyətini vurğulayıblar.

ABŞ-nin Azərbaycanın rəqəmsal infrastrukturunun inkişafı və təhlükəsizliyinin gücləndirilməsi məqsədilə süni intellekt sahəsində əməkdaşlığı genişləndirməyə hazır olduğu vurğulanıb. Qeyd edilib ki, süni intellekt yeni iqtisadi imkanlar yaradacaq əsas istiqamətlərdən biridir. Kaleb Orr bu barədə belə deyib: "Süni intellektin görünməmiş rifah yaratmaq potensialını nəzərə alaraq, Azərbaycanın rəqəmsal infrastrukturunun yenilənməsi və təhlükəsizliyinin gücləndirilməsi üçün süni intellekt texnologiyalarının daha geniş tətbiqi istiqamətində yol xəritəsini müəyyən etdik".

Azərbaycan və ABŞ arasında kritik minerallar sahəsində əməkdaşlığa dair çərçivə sazişinin imzalanması isə iqtisadi münasibətlərdə yeni mərhələnin əsasını qoyur və müasir iqtisadiyyat üçün mühüm əhəmiyyət daşıyan sahənin inkişafına xidmət edəcək. Qeyd edək ki, bu sənəd "Bakı Enerji Həftəsi" çərçivəsində Prezident İlham Əliyevin iştirakı ilə imzalanıb.

İqtisadiyyat naziri Mikayıl Cabbarov bütün bunların ABŞ-nin Azərbaycanla iqtisadi əlaqələri genişləndirmək və ölkə iqtisadiyyatının əsas sektorlarına investisiyaları artırmaq istiqamətində qətiyyətli səylərini nümayiş etdirdiyini deyib.

Dialoqun sonunda bu il Bakının ABŞ-nin II Dünya Süni İntellekt Həftəsinə evsahibliyi edəcəyi elan olunub. Azərbaycanda rəqəmsal infrastrukturun yaradılması, texnologiya transferi və səmərəli sənaye həllərinin tətbiqi sahələrində bir sıra sənədlərin və protokolun imzalanması da ölkələrimiz arasında iqtisadi əməkdaşlığın genişləndiyinin və möhkəmləndiyinin təsdiqidir.

*Flora SADIQLI,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Bìr yol, üç ölkə

## Bakı-Tbilisi-Qars dəmir yolunun modernləşdirilməsi başa çatdı

**Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu regionun nəqliyyat və iqtisadi əlaqələrini gücləndirən strateji layihələrdəndir. Bu xətt Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirərək, Avrasiyanın şərq və qərb hissələri arasında yük və sərnişin daşımalarını sürətləndirməyə xidmət edir. Layihənin əsas məqsədi üç ölkə arasında nəqliyyatı asanlaşdırmaq, beynəlxalq ticarət yollarını şaxələndirmək və regionun iqtisadi inkişafını gücləndirməkdir.**




Tikintisi 2007-ci il noyabrın 27-də başlayan BTQ dəmir yolu xəttinin təntənəli açılışı 10 il sonra - 2017-ci il oktyabrın 30-da baş tutub. Uzunluğu təxminən 850 kilometr olan dəmir yolunun 500 kilometrdən çoxu Azərbaycan ərazisindən keçir. Tarixi inkişaf prosesinə nəzər saldıqda görünür ki, bu mühüm nəqliyyat layihəsinin reallaşması asan başa gəlməyib. Onun tikilməsi və fəaliyyətə başlaması regionda baş verən siyasi hadisələr, geostrateji maraqlar və uzunmüddətli diplomatik danışıqlar fonunda mümkün olub. 1993-cü ildə Türkiyə keçmiş Dağlıq Qarabağ münaqişəsində Azərbaycana dəstək məqsədilə Ermənistanla sərhədlərini bağladı. Bununla da Qars-Gümrü-Tbilisi dəmir yolu xəttinin fəaliyyəti dayandırıldı. Məhz bağlanan bu marşruta alternativ olaraq, Azərbaycan ilə Türkiyə arasında Gürcüstan üzərindən yeni dəmir yolu xəttinin çəkilməsi ideyası həmin il iyulda müzakirəyə çıxarıldı.

Layihənin reallaşdırılması ilə bağlı üç ölkə arasında ilkin razılaşma 2005-ci ilin yanvarında imzalansa da, maliyyə çatışmazlığına görə icrası bir müddət təxirə salındı. Amma 2005-ci ilin may ayında Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinin Azərbaycan hissəsinin açılışı zamanı Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri yeni dəmir yolu xəttinin tikintisində maraqlı olduqlarını bəyan edərək, layihəyə yenidən təkan veriblər. 2007-ci il noyabrın 21-də Gürcüstanın Marabda stansiyasında hər üç ölkənin prezidentinin iştirakı ilə BTQ dəmir yolu xəttinin təməlqoyma mərasimi keçirilib və layihənin tikintisinə rəsmi olaraq start verilib.

Yeri gəlmişkən, Marabdada qoyulan həmin təməl təkcə yeni bir dəmir yolu xəttinin başlanğıcı deyildi. Bu, Avrasiyanın nəqliyyat xəritəsini dəyişdirəcək strateji bir layihənin həyata vəsiqə alması idi. Sonrakı illərdə BTQ xəttinin potensialının artırılması istiqamətində mühüm işlər görüldü və bu proses 2024-cü ildə Gürcüstan hissəsində aparılan genişmiqyaslı modernləşdirmə ilə yeni mərhələyə qədəm qoydu. Həmin yenilənmə işləri beş mərhələdə həyata keçirilib: Marabda-Tetriskaro, Tetriskaro-Tsalka, Tsalka-Axalkalaki, Axalkalaki-Kartsaxi və Axalkalaki kompleksi. 110 hektar ərazini əhatə edən Axalkalaki kompleksi həm texniki, həm də vizual baxımdan yenilənərək müasir görkəm alıb. Burada estakadalar, körpülər, suötürücülər və yol ötürücüləri yenidən qurulub, qardan mühafizə divarları tikilib. 17,9 kilometr yeni əlaqə şəbəkəsi quraşdırılıb, dartı yarımstansiyasının gücü artırılıb. Eləcə də stansiyadaxili yollar və avtomobil yolları yenilənərək nəqliyyatın fasiləsiz hərəkəti təmin olunub. Modernləşdirmə zamanı Avropa istehsalı olan müasir texnologiyalardan istifadə olunması layihəyə əlavə keyfiyyət və etibarlılıq qatıb.

Görülmüş işlər nəticəsində BTQ-nin illik yük ötürmə qabiliyyəti 1 milyon tondan 5 milyon tona çatdırılıb. 2024-cü il mayın 20-dən etibarən yükdaşımalar bərpa olunub və ilk qatar Türkiyəyə istiqamət götürüb - 20 konteynerdə 632 ton plastik xammalı Bakıdan Qarsa çatdırıb. Əslində, milyonlarla ton yük daşıyan, Avrasiya məkanının mühüm nəqliyyat arteriyalarından birinə çevrilən BTQ-nin uğur hekayəsinin təməlində 2017-ci ilin tarixi payız günü dayanır. Uzun illər davam edən hazırlıq, mürəkkəb diplomatik danışıqlar və böyük infrastruktur layihələrinin nəticəsi olaraq BTQ 2017-ci il oktyabrın 30-da rəsmi şəkildə istismara verildi. Bakıdan başlayaraq, Tbilisi və Axalkalaki üzərindən Qarsa uzanan bu polad yol təkcə Azərbaycanla Türkiyəni birləşdirmədi, eyni zamanda Asiya ilə Avropa arasında yeni bir nəqliyyat körpüsü yaratdı.

Qeyd edək ki, layihənin açılışı bir neçə dəfə təxirə salınmışdı. İlkin olaraq 2010-cu ildə istifadəyə verilməsi planlaşdırılan xəttin açılış tarixi 2016-cı ildə keçirilən üçtərəfli görüşdən sonra yekun tarix müəyyənləşdirildi və layihə 2017-ci ildə gerçəkləşdirildi. Açılışdan bir neçə həftə əvvəl, 27 sentyabr 2017-ci ildə Tbilisidən Axalkalakiyə doğru hərəkət edən sərnişin qatarı ilk sınaq olaraq yeni dəmir yolunun imkanlarını nümayiş etdirdi. Ardınca isə Ələt limanında keçirilən təntənəli mərasimdə BTQ-nin istifadəyə verilməsi elan olundu. Həmin gün yalnız yeni bir dəmir yolu xətti açılmırdı, iki qitəni bir-birinə yaxınlaşdıran yeni bir nəqliyyat dəhlizi fəaliyyətə başlayırdı.

Hesablamalara görə, bu marşrut vasitəsilə Asiyadan Avropaya daşınan yüklərin çatdırılma müddəti təxminən 15 günə qədər azalır. İlk illər milyonlarla ton yük daşımaq üçün nəzərdə tutulan BTQ zaman keçdikcə regionun iqtisadi inteqrasiyasının və beynəlxalq ticarətin mühüm sütunlarından biri kimi diqqət çəkməyə başladı. Bununla belə, yükdaşımalar uğurla həyata keçirilsə də, layihənin ilkin konsepsiyasında nəzərdə tutulan sərnişindaşıma xidmətləri hələ də tam şəkildə istifadəyə verilməyib.

Bu günlər Gürcüstanın Axalkalaki dəmir yolu və logistika kompleksində uzun müddət gözlənilən daha bir mərhələ başa çatdı: regionun mühüm yükdaşıma marşrutlarından biri modernləşdirildikdən sonra yenidən istifadəyə verildi. Tədbirə üç qonşu ölkənin nəqliyyat və iqtisadiyyat sahəsindəki yüksəkvəzifəli şəxsləri və dəmir yolu administrasiyalarının rəhbərləri qatıldı. Çıxış edənlər modernləşdirmə layihəsini həm əməkdaşlığın uğurlu nümunəsi, həm də regionun iqtisadi inteqrasiyasını gücləndirən strateji addım kimi qiymətləndirdilər. Qeyd edildi ki, aparılan yenilənmə işləri müasir standartlara uyğun icra olunub, nəticədə dəmir yolu üzərindən regional yükdaşımaların həcmi və tranzit imkanları əhəmiyyətli dərəcədə artıb.

Buradaca əlavə edək ki, Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvili bu il mayın 18-də Bakıda BTQ-nin yeni dəmir yolu layihəsi çərçivəsində Marabdadan Türkiyə sərhədinə qədər (Kartsaxi) olan dəmir yolu sahəsinin reabilitasiyası, rekonstruksiyası və inşası üzrə Koordinasiya Şurasının 41-ci iclasının protokolunu imzalayıblar. Mərasimdə Prezident İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidze iştirak edib. Bu sənəd BTQ layihəsi üzrə modernləşdirmə işlərinin tamamlandığını və yekun qəbulu təsdiq edir.

BTQ dəmir yolunu təkcə rels və qatarlardan ibarət infrastruktur kimi qəbul etməyək. O, Avrasiyanın ürəyində vuran nəbz, ölkələri yaxınlaşdıran körpü və gələcəyin üfüqlərinə açılan yoldur. Hər yük qatarı, hər modern addım bu xəttin həyat verdiyi imkanların və region üçün yaratdığı ümidlərin təcəssümüdür. BTQ keçmişin arzularını gerçəkləşdirir və gələcəyin yol xəritəsini işıqlandırır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# *Devid RİD:* "Azərbaycan Avropa ilə Asiya arasında mühüm strateji körpü rolunu oynayır"

## Böyük Britaniya Azərbaycanın növbəti inkişaf mərhələsini dəstəkləməkdə qərarlıdır

**Böyük Britaniyanın Şərqi Avropa və Mərkəzi Asiya üzrə ticarət komissarı Devid Rid 31-ci "Bakı Enerji Həftəsi"ndə iştirak edib. O, Azərbaycana səfərindən sonra AZƏRTAC-a eksklüziv müsahibə verib.**



Devid Rid müsahibəsində Böyük Britaniya-Azərbaycan iqtisadi əlaqələrinin hazırkı vəziyyəti, enerji sektorundan kənar əməkdaşlıq imkanları, eləcə də Britaniya şirkətlərinin ölkəmizin müxtəlif sahələrinə artan marağı barədə danışıb.

*- Böyük Britaniyanın Şərqi Avropa və Mərkəzi Asiya üzrə ticarət komissarı kimi Böyük Britaniya-Azərbaycan iqtisadi əlaqələrinin hazırkı vəziyyətini necə qiymətləndirirsiniz?*

- Azərbaycanla iqtisadi münasibətlər Böyük Britaniyanın ən köklü və strateji əhəmiyyətli tərəfdaşlıqlarından biridir. Bu 30 ildən artıq müddətdə formalaşmış ticarət, investisiya və qarşılıqlı əməkdaşlığa əsaslanır. Hazırda iki ölkə arasında ikitərəfli ticarətin həcmi təxminən 1 milyard funt sterlinq təşkil edir.

Böyük Britaniya Azərbaycanda ən böyük xarici investordur və yüzlərlə Britaniya şirkəti enerji, infrastruktur, maliyyə xidmətləri, texnologiya və aviasiya kimi sahələrdə fəaliyyət göstərir. Bakıya səfərim zamanı əməkdaşlığımızın yeni mərhələyə qədəm qoyduğunun şahid oldum. Enerji sektoru münasibətlərimizin əsas sütunlarından biri olsa da, ikitərəfli əməkdaşlıq artıq daha geniş istiqamətləri əhatə edir. Rəqəmsal infrastruktur, aviasiya, nəqliyyat və kapital bazarları sahələrində də əhəmiyyətli əməkdaşlıq imkanları mövcuddur.

Böyük Britaniya-Azərbaycan Strateji Tərəfdaşlığı qarşıdakı illərdə əməkdaşlığımızın daha da genişləndirilməsi üçün möhkəm əsas yaradır. Hər iki ölkə iqtisadiyyatın şaxələndirilməsi, regional bağlantılar, innovasiya və inkişaf istiqamətlərinə xüsusi diqqət yetirir ki, bu da uzunmüddətli əməkdaşlıq üçün güclü zəmin yaradır.

*- Britaniya şirkətləri uzun illərdir Azərbaycanın enerji sektorunda mühüm rol oynayırlar. Qeyri-enerji sektoruna da marağın artdığını müşahidə edirsinizmi?*

- Bəli. Enerji sektoru münasibətlərimizin mərkəzində qalır və BP-nin son 30 ildəki fəaliyyəti bu əməkdaşlığın vacib hissəsidir. Lakin Britaniya şirkətlərinin Azərbaycandakı fəaliyyəti getdikcə daha çox sahəni əhatə edir.

Bunun ən aydın nümunələrindən biri təmiz enerji sahəsidir. Hazırda təxminən 50 Britaniya şirkəti günəş enerjisi, dənizdə külək enerjisi, elektrik şəbəkələrinin modernləşdirilməsi və enerji sistemlərinin digər istiqamətlərində fəaliyyət göstərir. "SOCAR Green" və digər tərəfdaşlarla keçirdiyim görüşlər zamanı Azərbaycanın bərpaolunan enerji sahəsində böyük hədəflərə malik olduğunu və Böyük Britaniyanı bu məqsədlərin reallaşdırılmasında etibarlı tərəfdaş kimi gördüyünü müşahidə etdim.

Aviasiya sektoru da əməkdaşlıq üçün mühüm istiqamətlərdən biridir. Səfərim çərçivəsində "Silk Way Group" və Azərbaycan Hava Yolları ilə pilot hazırlığı, uçuş simulyatorları, sərnişin və yük daşımalarının inkişafı, eləcə də hava limanı infrastrukturu sahələrində əməkdaşlıq imkanlarını müzakirə etdik. Böyük Britaniya şirkətləri bu sahələrdə geniş təcrübəyə malikdir və Böyük Britaniyanın ixrac maliyyələşdirilməsi üzrə dövlət agentliyi (UK Export Finance) böyük layihələrin həyata keçirilməsinə dəstək verir.

Eyni zamanda süni intellekt infrastrukturu, kibertəhlükəsizlik və məlumat mərkəzləri daxil olmaqla texnologiya və rəqəmsal infrastruktur sahələrinə maraq artır. "Entrust" və "Nscale" kimi Britaniya şirkətləri Azərbaycanın növbəti inkişaf mərhələsinə mühüm töhfə verə bilər.

Beləliklə, iqtisadi münasibətlərimiz Azərbaycanın iqtisadi transformasiya prioritetlərinə uyğun şəkildə daha da şaxələnir.

*- Bakıya səfəriniz zamanı Azərbaycanın iqtisadi inkişafı və biznes mühiti ilə bağlı hansı məqamlar diqqətinizi daha çox cəlb etdi və bunlar Böyük Britaniyanın ölkə ilə uzunmüddətli əməkdaşlığına necə təsir göstərir?*

- Ən çox diqqətçəkən məqam Azərbaycanın ambisiyaları və Böyük Britaniya ilə Azərbaycan arasında formalaşmış uzunmüddətli tərəfdaşlığın gücü oldu.

Azərbaycan Avropa ilə Asiya arasında mühüm strateji körpü rolunu oynayır və logistika, bağlantılar, eləcə də fiziki və rəqəmsal infrastruktur sahələrində artan imkanlara malikdir. Bu, təkcə Azərbaycan üçün deyil, bütövlükdə region üçün əhəmiyyətlidir.

BP, "SOCAR Green", "Silk Way Group", iqtisadiyyat və energetika nazirliklərinin nümayəndələri ilə görüşlər zamanı müzakirələr çox praktik xarakter daşıyırdı. Biz konkret layihələr, maliyyələşdirmə mexanizmləri və tərəfdaşlıq imkanlarını müzakirə etdik. Həmçinin Böyük Britaniyanın ixrac maliyyələşdirilməsi üzrə dövlət agentliyi (UK Export Finance) və London Fond Birjası Qrupunun investisiyaların təşviqi, kapital bazarlarının inkişafı və beynəlxalq maliyyə resurslarına çıxışın genişləndirilməsi istiqamətində verə biləcəyi dəstəkdən danışdıq.

Məhz bu ambisiya, açıqlıq və nəticəyə yönəlmiş yanaşma mənə Böyük Britaniya-Azərbaycan iqtisadi münasibətlərinin gələcəyinə nikbin baxmağa əsas verir. Böyük Britaniya artıq 30 ildən çoxdur ki, Azərbaycanın tərəfdaşıdır və ölkənin növbəti inkişaf mərhələsini dəstəkləməkdə qərarlıdır.

# Bakı Amritsar hadisələrinə həsr olunan beynəlxalq konfransa evsahibliyi edir




**İyunun 3-də Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə ölkəmizdə Hindistan hökumətinin etnik azlıqlara qarşı repressiv siyasətinə həsr edilmiş "İyun 1984, Amritsar hadisələri: Hindistanın etnik azlıqlara qarşı transmilli repressiyaları soyqırımı kontekstində" adlı beynəlxalq konfrans keçirilir.**

AZƏRTAC xəbər verir ki, Hindistan hökumətinin repressiv və sistemli ayrı-seçkilik siyasətindən əziyyət çəkən Dalit icmasının nümayəndələri də ilk dəfə olaraq ölkəmizdə keçirilən tədbirlərə qatılıblar.

Tədbirdə həmçinin sigh icmasının Kanada, Böyük Britaniya, Niderland, Almaniya, İsveçrə, Avstraliya və ABŞ-dəki nüfuzlu nümayəndələri, həmçinin beyin mərkəzlərinin rəhbərləri, insan hüquqları və etnik azlıqlar sahəsində fəaliyyət göstərən ekspertlər, Hindistan hökumətinin repressiv, irqçilik və təqib siyasətinin birbaşa qurbanı olan şəxslər iştirak edirlər.

Konfransda Hindistan hökumətinin etnik və dini azlıqlara, xüsusilə Siqh və Dalit diasporlarının nümayəndələrinə və onların ailə üzvlərinə qarşı həyata keçirdiyi transmilli repressiya və sistemli təqib siyasətinin beynəlxalq təşkilatların gündəliyində daimi saxlanılması məsələləri müzakirə olunacaq. Eyni zamanda repressiyalardan zərərçəkmiş diaspor təşkilatlarıarasında koordinasiyalı əməkdaşlığın gücləndirilməsi, transmilli təqiblərə qarşı ortaq hüquqi müdafiə mexanizmlərinin gücləndirilməsi və beynəlxalq platformalarda birgə fəaliyyət istiqamətində fikir mübadiləsi aparılacaq.

Bununla yanaşı, 1984-cü ilin iyun ayında Amritsar hadisələri zamanı Hindistan tərəfindən siqh icmasına və onların dini-mədəni dəyərlərinə qarşı həyata keçirilmiş silahlı hücumlar, zorakılıq aktları və minlərlə günahsız insanın həlak olması faktlarına beynəlxalq səviyyədə hüquqi qiymət verilməsi və Hindistan hökumətinin siqh icması və dini azlıqlarla bağlı beynəlxalq təşkilatlar qarşısında götürdüyü öhdəliklərinə əməl etməsi məsələləri ətrafında müzakirələr aparılacaq.

1984-cü ilin iyun ayının əvvəllərindən etibarən Hindistan hökuməti tərəfindən siqh icmasının müqəddəs dini məkanlarından biri hesab edilən Amritsardakı Harmandir Sahib (Qızıl Məbəd) kompleksinə qarşı həyata keçirilmiş silahlı hücum, icmanın dini-mənəvi dəyərlərinə, ibadət azadlığına və tarixi-mədəni irsinə qarşı yönələn dövlət səviyyəsində təşkil edilmiş zorakılıq aktıdır. Beynəlxalq qeyri-hökumət təşkilatlarının hesabatları, müstəqil mənbələr və şahid ifadələri əsasında toplanmış məlumatlara əsasən, silahlı hücum nəticəsində Amritsar və ətraf şəhərlərdə 8 minə qədər mülki şəxsin həyatını itirdiyi bildirilir.

Qeyd edək ki, bu ilin mart ayında Bakı Təşəbbüs Qrupu və "Siqh Federation International" tərəfindən birgə hazırlanmış "Sərhədləri aşaraq: Siqh diasporuna qarşı Hindistanın transmilli repressiyası" adlı hesabatda Hindistan hökumətinin ölkədən kənarda yaşayan diaspor nümayəndələrinə qarşı repressiv siyasəti və 1984-cü il Amritsar hadisələri barədə faktlar öz əksini tapıb.

# Amritsar hadisələrində zərərçəkənlər hələ də ədalətin bərqərar olmasını gözləyirlər



**"O gün minlərlə siqh zəvvar müqəddəs dini gün münasibətilə Qızıl Məbədə dua və ibadət üçün getmişdi. Lakin həmin vaxt Hindistan hökuməti məbədə və digər onlarla ibadət məkanına hərbi əməliyyat həyata keçirdi. Oradakı insanların böyük əksəriyyəti siyasətlə əlaqəsi olmayan adi zəvvarlar - analar, atalar, uşaqlar və yaşlı insanlar idi".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında Böyük Britaniya Siqh Federasiyasının üzvü Suxvinder Sinqh söyləyib.

O təəssüflə bildirib ki, baş verən zorakılıq və atışmalar nəticəsində minlərlə günahsız insan həyatını itirdi: "Bu gün biz onların xatirəsini yaşatmaq, həmin faciəni dünyaya çatdırmaq və mülki insanların itkisini unutmamaq üçün toplaşmışıq. Bir çox ailələr övladlarını, atalarını və yaxınlarını itirdi. Onlar yalnız siqh olduqları üçün bu hadisələrin qurbanına çevrildilər. Aradan 40 ildən çox vaxt keçməsinə baxmayaraq, zərərçəkənlər hələ də ədalətin bərqərar olmasını gözləyirlər".

## Siqh icması müstəqil Xalistanın yaradılması uğrunda qətiyyətlə mübarizəsini davam etdirir



**"Siqh icması və xalqı 1849-cu ildə itirilmiş suverenliyini yenidən bərpa etmək üçün həm də qətiyyətlə və əzmlə mübarizə aparır".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında Kanada Siqh Federasiyasının hüquq məsləhətçisi Virrinq Prabcot Sinqh söyləyib.

O bildirib ki, Hindistan dövləti hələ də siqh xalqına qarşı repressiyaları davam etdirir. 1984-cü Qızıl Məbədə edilən hücum onilliklər boyu davam edən zorakılığın, repressiyanın və assimilyasiya cəhdlərinin kulminasiyası idi və nəticədə bir soyqırımla sona çatdı.

"Bu zorakılığa baxmayaraq, Siqh icması bütün dünyada, o cümlədən diasporada siqh liderlərinə və fəallarına qarşı Hindistanın davam edən təhdidlərinə, təzyiqlərinə və sui-qəsd cəhdlərinə baxmayaraq, müstəqil Xalistanın yaradılması uğrunda qətiyyətlə mübarizəsini davam etdirir", - deyə Kanada Siqh Federasiyasının hüquq məsləhətçisi əlavə edib.

# "Türkiyə Zəngəzur dəhlizinin açılması məsələsində iradə nümayiş etdirir"

**"Türkiyə açılması türk dünyasına daha qısa yol təqdim edəcək Zəngəzur dəhlizinə sadiqliyini nümayiş etdirir".**



AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu bildirib.

O qeyd edib ki, Zəngəzur dəhlizinin 224 kilometrlik dəmir yolu hissəsi Türkiyədə tikilir, daha 180 kilometri isə Azərbaycanda modernləşdirilir və ya inşa edilir.

"Dəhlizin Azərbaycan hissəsində işlər başa çatmaq üzrədir. Biz, həmçinin Ermənistandan keçən 40 kilometrlik hissənin tikintisini də izləyirik. Bu xətt istifadəyə verildikdən sonra biz daha qısa marşrutla Mərkəzi Asiya ilə birləşəcəyik", - deyə nazir mövcud Bakı-Tbilisi-Qars dəmir yolunun mövcudluğunu da xatırladaraq bildirib.

# "Moldovadakı Azərbaycan diasporu sistemli diskriminasiya ilə qarşılaşmır"

**Kişineuda Avropa Şurasının nümayəndə heyəti Moldova Respublikasında milli azlıqları təmsil edən vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, tədbir Milli Azlıqların Müdafiəsi üzrə Çərçivə Konvensiyasının icrasına dair 6-cı monitorinq səfərinin bir hissəsi olub.

Nümayəndə heyətinə Macarıstan, Çexiya və Yeni Zelandiyadan Avropa Şurası Məşvərət Komitəsinin mütəxəssisləri daxil idi və onları Çərçivə Konvensiyası Katibliyinin nümayəndələri müşayiət edirdi.

Görüşdə çıxış edən Moldova Azərbaycanlıları Konqresinin sədri Elçin Bayramov bildirib ki, Azərbaycan diasporu bütövlükdə sistemli diskriminasiya ilə qarşılaşmır, lakin hakimiyyət orqanlarından daha çox iştirak tələb edir. Xüsusilə, o, icmanın mədəni və təhsil təşəbbüslərini dəstəkləmək üçün mexanizmlərin yaradılmasının vacibliyini vurğulayıb.

Ölkənin müsəlman icması üçün xüsusi əhəmiyyət kəsb edən məsələlər də müzakirə olunub. Elçin Bayramov qeyd edib ki, Moldovada hələ də dindarlar üçün mühüm mənəvi mərkəz kimi xidmət edə biləcək məscid yoxdur. "Doyna" qəbiristanlığında müsəlmanların dəfn edilməsi üçün ayrıca bir sahənin ayrılmasına da təcili ehtiyac var. Belə bir sahə əvvəllər mövcud idi, lakin indi tamamilə doludur.

Tədbir zamanı E. Bayramov Avropa Şurasının qərargahında Milli azlıqlar və dil hüquqları bölməsindən Tankut Soykan ilə də görüşüb. Görüşdə dövlət qurumları ilə etnik icmalar arasında qarşılıqlı əlaqə, mədəni müxtəlifliyin qorunmasının vacibliyi və etnik-mədəni təşkilatların fəaliyyətinin dəstəklənməsi mexanizmlərinin daha da təkmilləşdirilməsi məsələləri müzakirə olunub.

Bu cür görüşlərdə iştirak etnik icmaların nümayəndələrinə öz fikirlərini beynəlxalq ekspertlərə birbaşa çatdırmağa imkan yaradır və onların hüquqlarının qorunması üçün effektiv tədbirlərin hazırlanmasına töhfə verir.

# Yaxın Şərqin "boğaz ağrısı"

**Yaxın Şərqdə fevral ayından başlayan gərginlik hələ başa çatmayıb. Regionda alovlanan irimiqyaslı hərbi qarşıdurma qlobal iqtisadiyyatın ən həssas marşrutlarından birini, Hörmüz boğazını iflic vəziyyətinə salıb. Yaxın Şərqdə hava əməliyyatlarından dərhal sonra qlobal neft və qaz ticarətinin damarı sayılan bu dəhliz hərbi blokada zonasına çevrilib.**




Bəs hazırda boğazda nə baş verir? Hörmüzdə yaşanan vəziyyət digər dəniz blokadalarından fərqləndirilərək "doldurulmuş asimmetrik mühasirə" adlandırılır. Son bir neçə ayın xronikası qlobal logistika şirkətlərinin kabusuna çevrilib. Fevralın 28-dən bəri "Maersk", "MSC" və "CMA CGM" kimi dünyanın ən böyük gəmiçilik nəhəngləri boğazdan keçidi tamamilə dayandırıb. "Skylight", "Safeen Prestige" və "Sonangol Namibe" kimi müxtəlif ölkələrin bayraqları altında üzən onlarla tanker və yük gəmisi raket və PUA zərbələrinə məruz qalıb, bəziləri batıb, bəziləri isə ələ keçirilib. Beynəlxalq qurumların rəsmi hesabatlarına görə, hazırda boğaz ətrafında 1550-dən çox kommersiya gəmisi lövbər salaraq çərsizcə gözləyir və 22 min 500-dən çox dənizçi Fars körfəzində sıxılıb qalaraq girov vəziyyətinə düşüb.

Vəziyyəti daha da dramatikləşdirən amil Yaxın Şərqdəki "ikiqat blokada" böhranıdır. Yəməndəki husilərin Qırmızı dənizdə mülki gəmilərə hücumları bərpa etməsi ilə eyni vaxtda Hörmüzün də bağlanması dünya ticarətini çıxılmaz vəziyyətə salıb. Müasir tarixdə ilk dəfədir ki, Yaxın Şərqin hər iki əsas dəniz koridoru eyni vaxtda bloklanır. Gəmilər alternativ olaraq Afrikanın cənubundakı Ümid burnunu dolanmaq məcburiyyətindədirlər. Bu isə daşınma müddətini 10-14 gün uzadır, logistika xərclərini fantastik səviyyəyə qaldırır və qlobal konteyner çatışmazlığı yaradır.

Beynəlxalq Enerji Agentliyi (BEA) mövcud vəziyyəti "dünya neft bazarı tarixinin ən böyük tədarük kəsintisi" kimi xarakterizə edib. Hörmüzün bağlanması qlobal neft tədarükünün 20 faizini, maye qazın isə beşdəbirini bazarlardan qoparıb. Qətərin ("QatarEnergy") boğazdakı müharibə və blokada səbəbindən "əlində olmayan fövqəladə vəziyyətə görə qazı çatdıra bilməyəcəyini" rəsmən bildirməsi xüsusilə Avropada təbii qaz qiymətlərini ikiqat artırıb, neftin bareli isə kəskin sıçrayışlarla dünya iqtisadiyyatına təsir edir. Lakin böhran sadəcə neftlə bağlı məhdudlaşmır. Diqqətdən qaçan, ancaq qlobal ərzaq təhlükəsizliyinə birbaşa zərbə vuran başqa bir fakt da var. Dünyanın dəniz yolu ilə daşınan kükürd ticarətinin 50 faizi, karbamid ticarətinin isə 32 faizi məhz bu boğazdan keçir. Bu maddələr kənd təsərrüfatı gübrələrinin istehsalı üçün əsas xammaldır. Braziliya və Hindistan kimi nəhəng aqrar ölkələr bu tədarükdən asılı olduğu üçün boğazın bağlanması dünyada "aqroinflyasiya" (ərzaq qiymətlərinin kəskin artması) təhlükəsini pik həddə çatdırıb.

Mart ayının əvvəlindən beynəlxalq sığorta şirkətləri Hörmüz boğazından keçən gəmilər üçün müharibə riski sığortasını tamamilə ləğv ediblər. Bu, o deməkdir ki, bu gün hər hansı bir gəmi sahibi sığortasız şəkildə boğaza daxil olacağı təqdirdə milyardlarla dollarlıq riski təkbaşına üzərinə götürməlidir. Standart sığorta haqları gəmi dəyərinin 0,01 faizindən reaktiv sürətlə 1 faizə yüksəlib. Bu nöqtədə isə qaydalar dəyişir. ABŞ və İran arasında müvəqqəti sakitlik yaratmaq üçün aparılan diplomatik danışıqlar qlobal bazarlara anlıq təsəlli verir. Lakin reallıq budur ki, artıq boğazdan keçid geosiyasi idarəetmə ilə müəyyən olunur. Yəni, gəmilərin oradan keçə bilməsi regional güclərin siyasi şərtlərinə tabe etdirilir.

Bu regional asılılıqlar bütün dünyada zəncirvari problemlərə yol açır. Bir tərəfdən, Çin, Hindistan, Yaponiya və Cənubi Koreya kimi Asiya ölkələri Körfəz neftinin və qazının 75 faizini işlətdiyi üçün boğazın bağlanmasına görə kəskin enerji qıtlığı ilə üzləşir və bu, onların sənayesini zəiflədir. Digər tərəfdən, Avropa İttifaqı Qətər qazından və Yaxın Şərq mallarından çox asılı olduğu üçün problem yaşayır. Körfəz ölkələrinin (BƏƏ, Səudiyyə Ərəbistanı, Qətər) özündə isə həm neft ixracının, həm də xaricdən gələn ərzağın 80 faizi məhz bu boğazdan keçir. Bu səbəbdən problem onların iqtisadiyyatına təsir edir və həmin dövlətlər qurudan alternativ yollar axtarmağa məcbur olurlar.

Yaxın Şərqdəki bu böhran qloballaşmanın bitdiyini yox, sadəcə formasını dəyişdiyini sübut edir. Dövlətlərin və şirkətlərin illərdir güvəndiyi "problemsiz qlobal ticarət" düşüncəsi artıq keçərsiz hala gəlib. Gəmilərin yolu açılsa, xərclər azalsa belə, itən etimadın bərpa olunması çətindir. Çünki strateji dəniz keçidləri artıq siyasi münaqişələrdən uzaq, təhlükəsiz yerlər sayılmır. Yeni dünya nizamında isə hər bir dövlət və şirkət öz iş planını təkrarlanan böhranlara və geosiyasi təzyiqlərə uyğun qurmağa məcburdur.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Ermənistanda seçki rəqabətinin son günləri yaşanır

## Rəy sorğularına görə, Nikol Paşinyanın qalib gəlmək şansı revanşistlərdən çoxdur

**Ermənistan cəmiyyəti daxili siyasi böhranlar və xarici təzyiqlər fonunda ölkənin gələcək taleyini müəyyənləşdirəcək növbəti sınaq qarşısındadır. Regionda formalaşan yeni geosiyasi reallıqlar, xüsusilə Azərbaycanla aparılan birbaşa sülh danışıqları bu ölkədə hakimiyyət uğrunda mübarizəni daha da kəskinləşdirib. Gərgin abhava fonunda ölkədə seçki marafonunun son və həlledici mərhələsinə start verilib. İyunun 7-də keçiriləcək parlament seçkilərinin nəticələrinə görə, qanunverici orqanda mütləq üstünlüyə malik olan siyasi qüvvə baş nazir seçmək hüququ əldə edəcək.**



Seçki marafonunda iki blok və 17 partiya daxil olmaqla 19 siyasi təşkilat iştirak edir. Lakin sorğulara əsasən, bu qüvvələrdən yalnız dördünün parlamentə düşmək üçün real mübarizə şansı var. ABŞ-nin "International Republican Institute" təşkilatının sifarişi ilə "Breavis" şirkəti tərəfindən 1511 nəfər vətəndaş arasında keçirilən sorğuda iştirakçılardan 29 faizi, yəni 491 nəfəri Baş nazir Nikol Paşinyanı və onun rəhbərlik etdiyi "Mülki Müqavilə" partiyasını dəstəkləyiblər. Sorğuda ikinci yerdə oliqarx Samvel Karapetyan qərarlaşıb, respondentlərin 8 faizi onu baş nazir kimi görmək istədiklərini bildirib. Ermənistanın sabiq prezidenti və "Hayastan" seçki blokunun baş namizədi Robert Koçaryana etibar edənlərin göstəricisi isə 4 faiz olub.

Sorğunun diqqətçəkən nəticələrindən biri respondentlərin bəzilərinin siyasətçilərə inamının olmamasıdır. Belə ki, iştirakçıların 40 faizi heç kimə etibar etmədiyini söyləyib. Bununla belə, respondentlərin 61 faizi ölkənin düzgün istiqamətdə getdiyini bildirib. Ümumiyyətlə isə Paşinyanın əsas rəqibləri R.Koçaryan, S.Karapetyan və Q.Sarukyanın reytinqi parlament baryerini keçmək üçün kifayət etmir. Samvel Karapetyan və Robert Koçaryanın reytinqlərinin çox aşağı olması Ermənistan müxalifətinin cəmiyyət tərəfindən ciddi bir alternativ kimi qəbul edilmədiyini sübut edir.

Ekspertlərin fikrincə, Paşinyanın reytinqinin yüksəlməsi Azərbaycanla sülh prosesini davam etdirməsi, real iqtisadi addımların atılması, müxalifətin isə "Qarabağ məsələsi"ni yenidən gündəmə daşıması ilə bağlıdır. Müxalifətin köhnə ritorikanı davam etdirməsi cəmiyyətdə qarşılıq tapmır, çünki erməni toplumu artıq keçmişin fəsadlarından uzaqlaşmaq istəyir. Eyni zamanda kənar güclərin təzyiqləri və Ermənistan iqtisadiyyatına təbiq edilən məhdudiyyətlər Paşinyanı zəiflətmək əvəzinə, əks-effekt verərək mövqeyini daha da gücləndirib. Beləliklə, hazırkı geosiyasi və daxili proseslər N.Paşinyanın hakimiyyətini qorumaq şansını artırır.

Köhnə ambisiyalarını yenidən gündəmə daşıyan R.Koçaryan iddia edib ki, onun yanaşması danışıqlar prosesinin sıfırlanması demək deyil və sülh müqaviləsi üçün "zəmanətçilər" lazımdır: "Əgər mən və komandam Ermənistanda hakimiyyətə gəlsək, Azərbaycanla sülh danışıqları sıfır nöqtəsindən başlamayacaq". "Zəmanətçi tərəflər"ə gəlincə, Koçaryan bu rolda Rusiya və ABŞ-ni gördüyünü açıqlayıb: "Avropa İttifaqının iştirakı da arzuolunan olardı, amma mən Rusiya, ABŞ və Çinin daxil edilməsini ideal variant hesab edirəm".

Nikol Paşinyan Koçaryanın açıqlamasına sərt etirazını bildirib və deyib ki, ermənilər xarici qüvvələrin onları başqa kənar qüvvələrə qarşı istifadə etməsinə imkan verməməlidirlər. Baş nazir bildirib ki, Ermənistan keçmişin ağrılı dərslərindən nəticə çıxarmalıdır. Paşinyan sabiq prezidentin tərəflər arasında "sülh zəmanətçisi"nin olması ilə bağlı fikrinə də qarşı çıxıb: "Bu, ölkənin taleyini başqalarının əlinə vermək deməkdir. Biz taleyimizi çox çətinliklə öz əlimizə almışıq, sükanı əlimizdən buraxa bilmərik".

Koçaryanın sülh prosesinə xarici "zəmanətçi dövlətlər"in cəlb olunması təklifi Ermənistanın ənənəvi xarici siyasət modelinə, yəni təhlükəsizliyi böyük güclərin himayəsinə buraxmaq strategiyasına qayıtmaq cəhdidir. O, Rusiya, ABŞ, Çin və Avropa İttifaqı kimi qlobal oyunçuları prosesə daxil etməklə Ermənistan üçün əlavə diplomatik qalxan yaratmağa çalışır. Bununla yanaşı, hakimiyyətə gələcəyi təqdirdə danışıqları tamamilə sıfırlamayacağını vəd edərək özünü daha "rasional alternativ" kimi təqdim etmək istəyir.

Hazırda Bakı və İrəvanın vasitəçilər olmadan, birbaşa ikitərəfli danışıqlar aparması regionda yeni dialoq platformasının yarandığını göstərir. Tərəflər kənar müdaxiləyə ehtiyac olmadığını dəfələrlə bəyan ediblər. Regionda tamamilə yeni və birbaşa ikitərəfli münasibətlər modelinin bərqərar olduğu bir vaxtda "xarici zəmanətçi"lər axtarışına çıxmaq mövcud reallıqlara kəskin ziddiyyət təşkil edir. Nəticə etibarilə, Cənubi Qafqazın gələcək sülh arxitekturası böyük güclərin maraq toqquşmaları üzərində deyil, məhz vasitəçisiz təmasların praktiki nəticələri əsasında qurulacaq.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# REGİONLAR

## Aqrar sektor bundan sonra da ölkənin inkişaf strategiyasının prioritet istiqamətlərindən biri olacaq

### Kənd təsərrüfatı "dəstək" modelindən "səmərəlilik" modelinə keçir

**Azərbaycan Prezidenti İlham Əliyevin hökumət nümayəndələri ilə keçirdiyi müşavirədə səsləndirdiyi fikirlər sadəcə kənd təsərrüfatı sahəsinə dair növbəti müzakirə kimi qiymətləndirilə bilməz. Müşavirədə söhbət geosiyasi çağırışlar, regional müharibələr, iqlim dəyişiklikləri, ərzaq təhlükəsizliyi məsələləri və iqtisadiyyatın postneft transformasiyası fonunda aqrar sektorun ölkənin iqtisadi modelindəki rolunun yenidən dəyərləndirilməsindən getmişdir.**

Bu gün dünyada getdikcə daha çox dövlət qeyd etdiyimiz çağırışlar fonunda kənd təsərrüfatının əhəmiyyətini dərk edir. Müasir dünya kənd təsərrüfatı son onilliklərin həm ən mürəkkəb, həm də ən texnoloji dövrlərindən birini yaşayır. İqlim dəyişiklikləri, geosiyasi proseslər, demoqrafik artım, su qıtlığı və qiymətlərin yüksəlməsi sektora ciddi təzyiq göstərsə də, məhz bu çağırışlar innovasiyaları sürətləndirir və yeni imkanlar yaradır.

Bundan əlavə, son illər aydın şəkildə görünür ki, ərzaq təhlükəsizliyi dövlət siyasətinin ən vacib istiqamətlərindən birinə və milli təhlükəsizliyin əsas elementlərindən birinə çevrilib. Pandemiya, müharibələr, qlobal inflyasiya, iqlim dəyişiklikləri və logistika zəncirlərində yaranan problemlər göstərdi ki, özünü əsas ərzaq məhsulları ilə təmin edə bilməyən ölkələr xarici böhranlara daha həssas olurlar.



Dövlət başçısı, özünün də etiraf etdiyi kimi, fəaliyyətinin ilk illərindən başlayaraq, kənd təsərrüfatına və regionların inkişafına xüsusi diqqət verir. Həqiqətən, İlham Əliyevin prezidentliyi dövründə Azərbaycanda regionların modernləşdirilməsi istiqamətində genişmiqyaslı dövlət proqramları icra edilib. Məhz bu proqramlar regionların inkişafı üçün möhkəm təməl olmuşdur. Kilometrlərlə avtomobil yolları salınmış və yenidən qurulmuş, su təchizatı və irriqasiya sistemləri, elektrik xətləri, qaz şəbəkələri, sosial infrastruktur, logistika və emal müəssisələri yaradılmışdır. Həmin proqramlar sayəsində regionlarda yeni iş yerləri yaradılmış, sahibkarlıq fəallığı artmış, ölkənin daxili ərzaq bazarı möhkəmlənmişdir.

Müşavirədə prezident torpaq və su ehtiyatlarından səmərəli istifadənin, həmçinin region ətrafında dəyişən şərait fonunda məhsuldarlığın artırılmasının vacibliyini vurğuladı. Bu yanaşma qlobal tendensiyalarla tam uzlaşır. Məlumdur ki, dayanıqlı daxili ərzaq istehsalına malik dövlətlər əlavə strateji müstəqillik elementi əldə edirlər. Xüsusi qeyd edilməli bir vacib məqam da ondan ibarətdir ki, Azərbaycanda aqrar mövzu artıq çoxdan regionların sosial dəstəyi çərçivəsindən çıxıb. Bu sahə artıq makroiqtisadi və geosiyasi strategiyanın mühüm tərkib hissəsinə çevrilir.

Müşavirə həm də göstərdi ki, mərkəzi hakimiyyət aqrar siyasətin yerlərdə icrasına daha ciddi nəzarət mərhələsinə keçir. Faktiki olaraq söhbət "dəstək" modelindən "səmərəlik" modelinə keçiddən gedir. Bu isə Kənd Təsərrüfatı Nazirliyi və onun yerli icra strukturları üçün məsuliyyətin daha da artması deməkdir.

Ümumilikdə, dünya kənd təsərrüfatı elə bir dövrə daxil olur ki, burada əsas resurslar artıq yalnız torpaq və su deyil, həm də idarəetmənin səmərəliyi, texnologiyalar və regional siyasətdir. Məhz buna görə də Prezident İlham Əliyevin kənd təsərrüfatının, regionların və infrastrukturun inkişafına yönəlmiş siyasəti bu gün daha strateji məna kəsb edir. Son 20 ildə Azərbaycanda qəbul edilmiş bir çox qərarlar faktiki olaraq müasir qlobal tendensiyaları qabaqlayıb. Bu baxımdan su təchizatı sistemlərinin, meliorasiya tədbirlərinin, enerji infrastrukturunun, qazlaşdırmanın yenidən qurulması, kənd yollarının abadlaşdırılması, fermerlərə və aqrar istehsala verilən dəstək ölkənin daxili ərzaq potensialının gücləndirilməsi üçün möhkəm zəmin yaradıb.

Bu gün bir çox dövlətlər ərzaq qıtlığı və idxaldan asılılığın artması riskləri ilə üzləşdiyi halda, Azərbaycan bu çağırışlara daha hazırlıqlı görünür. Beləliklə, əminliklə demək olar ki, Azərbaycanda kənd təsərrüfatı bundan sonra da dövlətin uzunmüddətli inkişaf strategiyasının prioritet istiqamətlərindən biri olacaq.

***Zaur MƏMMƏDOV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti, politoloq***

## Yağışlar sınağa çəksə də...

### Tərtər kəndlisi bolluq yaratmaq əzmindən geri çəkilmir

**Azərbaycanın bütün bölgələri bizim üçün doğmadır, əzizdir. Ancaq Tərtərin iqlimində, torpağında bir qeyri-adilik, insanları bura cəlb edən xüsusi gözəllik var. Bəlkə də bu, rayonun dağətəyi olmasından irəli gəlir. Tərtər Kiçik Qafqazın şimal-şərq ətəklərində, Qarabağ düzündə, Tərtər çayının sahilində yerləşdiyinə görə iqlimi də mülayimdir.**

Rayonun ümumi ərazisi 42258 hektardır. Bunun 25352 hektarı suvarılandır. Onun da 20332,7 hektarı əkinəyararlı, 1969,9 hektarı həyətyanı, 2623,4 hektarı meyvə, giləmeyvə və üzüm bağları, 426 hektarı isə meşə sahələridir. Bunlardan əlavə, rayonun 3669,52 hektar örüş sahəsi var.

Tərtər çayı üzərində su tutumu 560 milyon kubmetr olan Sərsəng Su Anbarı və 5,84 milyon kubmetr su tutan Suqovuşan Su Anbarı tikilmişdir. Sərsəng Su Anbarındakı su ilə rayonun əkin sahələrinin 70 faizini suvarmaq mümkündür. Bu yerdə qeyd edək ki, rayonda məşğul əhalinin 57,9 faizi, yəni 21,93 min nəfəri kənd təsərrüfatı işləri ilə məşğuldur.

Tərtərin iqtisadiyyatında kənd təsərrüfatının sanballı payı var. Ötən il rayon üzrə ümumi daxili məhsul istehsalının dəyəri 270,7 milyon manat olmuşdur ki, onun da 128,4 milyon manatı (47,4 faizi) kənd təsərrüfatı məhsullarının payıdır. Bunun 55,8 faizi bitkiçilik, 44,2 faizi heyvandarlıq məhsullarının dəyəri olmuşdur.

Hazırda kənd təsərrüfatı işlərinin qızğın çağıdır. Hava şəraitinin həddən artıq yağmurlu keçməsi əkinçiləri ciddi sınağa çəkir. İllərdir su qıtlığından gileylənən kəndli hazırda suyun bolluğundan, intensiv yağan yağışlardan əziyyət çəkir. "Su həyatdır", "su dirilikdir" deməyə adət etmiş əkinçi indi dahi Nizaminin su haqqında dediyi hikmətli sözlərin doğruluğuna bir daha əmin olur.

Uzun illər pambıqçılıqla məşğul olan Qapanlı kənd sakini Teyyub Cəfərovla iş üstündə görüşdük. Çox qayğılıydı. Bildirdi ki, uşaqlıqdan valideynləri ilə birlikdə bir zamanlar "ağ qızıl" deyilən bu qiymətli bitkinin əkilib-becərilməsi ilə məğul olub. Zəngin təcrübə qazanıb, eyni zamanda ailəsinin dolanışığını pambıqdan götürdüyü qazancla təmin edib. Elə ötən mövsümdə 8 hektar pambıq sahəsinin hər hektarından 34 sentner məhsul toplamışdı. Subsidiya ilə birlikdə qazancı yaxşı oldu. Bu mövsüm isə çox çətindir. Öyrəndik ki, təkcə Qapanlıda deyil, elə ətraf kəndlərdə də intensiv yağışlar yağması səbəbindən çiyid səpini xeyli gecikib. İndi bitiş alınsa da, bitkilərin normal inkişafı üçün bir sıra əlavə tədbirlər həyata keçirilməlidir. Odur ki, müqavilə bağladıqları "Prime Cotton" MMC şirkətinin mütəxəssisləri mütəmadi olaraq sahələri gəzir, fermerləri lazım olan dərman preparatları ilə təmin edir, məsləhətlər verirlər. Bütün aqrotexniki tədbirlərin düzgün və ardıcıl qaydada aparılması nəzarətə götürülüb.

Tərtər Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Arif Behbudov bildirdi ki, son illər ərzində bu qədər yağmurlu yaz müşahidə edilməmişdir. Belə vəziyyət təsərrüfatın bütün sahələrində, xüsusən də pambıqçılıqda, taxılçılıqda çətinliklər yaradıb. Buna baxmayaraq, rayonda ciyid səpini uğurla başa çatıb və hazırda becərmə işləri aparılır. Hər iki sahədə ötən il qazanılan yüksək nəticələr heç kəsi arxayınlaşdırmır, fermerlər əzmlə çalışır, məhsul bolluğuna etibarlı bünövrə qoyurlar.

Taxılçılıqla məşğul olan fermerlərdən Suliddin Ələkbərovun, Loğman Müseyibovun sözlərinə görə, zəmilərdə məhsul boldur, ancaq təbiətin şıltaqlığı, yağışların dayanmaması onları rahatsız edir. İndi torpağın da, bitkinin də, elə insanların özlərinin də günəşin istisinə ehtiyacı var. Məqsəd ötən il olduğu kimi, bu il də məhsuldarlığı nəinki 40 sentnerə çatdırmaq, bundan da yüksək məhsul götürməkdir.












Ölkədə qeyri-neft sektorunun, xüsusən kənd təsərrüfatının dayanıqlı və sürətli inkişafının dövlət siyasətinin mühüm prioritetlərindən biri olduğunu yaxşı bilən tərtərlilər son illər baramaçılığın inkişafında da uğurlu nəticələr əldə edirlər. Cari mövsümdə rayonda əhaliyə 300 qutu ipəkqurdu paylanılıb. Baramaçılıq qısamüddətli və gəlirli sahə hesab edilsə də, əslində, bu işlərin görülməsini yalnız qurdların bəslənməsi dövrü ilə əlaqələndirmək düz deyil. Təcrübəli kümçü Atamoğlan İsmayılov deyir ki, əsl kümçünün işi qısa müddət deyil, il boyu davam edir: "Çünki əgər yaxşı məhsul götürüb qazanc əldə etmək istəyirsənsə, əvvəlcə işıqlı, təmiz və səliqəli kümxanaların olmalıdır, baramaçılığın yem bazası yaradılmalıdır. Bunların hamısını nəzərə alaraq, cari mövsümdə xeyli ipəkqurdu bəsləməyi öhdəmə götürmüşəm. Əminəm ki, həm ailə büdcəmizi möhkəmləndirəcəyəm, həm də bu sahənin inkişafına öz töhfəmi verəcəyəm".

Kənd təsərrüfatının inkişafına dair prezidentin sədrliyi ilə keçirilən son müşavirədə göstərilib ki, Azərbaycan dünyada genişmiqyaslı, çoxçeşidli subsidiya mexanizmlərini və fermerlərə gübrə, yanacaq güzəştlərini bir arada tətbiq edən nadir ölkələrdəndir. Eyni zamanda istehsalçılara davamlı metodik tövsiyələr verilir, güzəştli kreditlər ayrılır. Bu dövlət dəstəyi nəticəsində vaxtilə hektardan məhsuldarlığı maksimum 1 tona (10 sentnerə) düşən və ümumi istehsalı cəmi 20 min ton təşkil edən pambıqçılıq sahəsi yenidən bərpa olunaraq son göstəricilərə görə 360 min tondan yuxarı qaldırılmışdır ki, bu da pambıqçılıq rayonlarında, o cümlədən Tərtər bölgəsində kənd əhalisinin rifahına müsbət təsir göstərmişdir. Tamamilə məhv olmaq təhlükəsi yaşayan baramaçılıq və deməli, ipəkçilik də dövlətin birbaşa müdaxiləsi ilə yenidən dirçəldilmişdir.

Rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov ölkədə kənd təsərrüfatının inkişafına həsr edilən müşavirədə Prezident İlham Əliyevin səsləndirdiyi fikirlərin, tapşırıq və tövsiyələrin Tərtər kəndlisi tərəfindən konkret fəaliyyət proqramı kimi qəbul edildiyini bildirdi. Qeyd etdi ki, tərtərlilər hələ Zəfərdən əvvəlki illərdə də nankor qonşularımızın yaratdığı suni su qıtlığı probleminə baxmayaraq, əsl fədakarlıq göstərir, bol pambıq, taxıl, bostan-tərəvəz məhsulları istehsal edir, ölkə iqtisadiyyatının güclənməsinə öz sanballı töhfələrini verirdilər: "Bu gün dövlətin, Prezident İlham Əliyevin güclü və qüdrətli əli, böyük qayğı və diqqəti, isti və doğma nəfəsi kəndlinin üstündədir. Təbiət sınağa çəksə də, ana torpağa, halal zəhmətə bağlı tərtərlilər kənd təsərrüfatının bütün sahələrində yüksək məhsuldarlığa nail olacaq, ölkə iqtisadiyyatının daha da güclənməsinə sanballı töhfələr verəcək, daha çox qazanacaq, özlərinin həyat şəraitini daha da yaxşılaşdıracaqlar".

Hazırda Tərtərdə əhalinin böyük bir hissəsi kənd təsərrüfatı sahəsində çalışır və qürurverici haldır ki, onların çoxu gənclərdir. Kəndlərimizdə həyat şəraitinin yaxşılaşdırılması, elektrik enerjisi, qaz və su problemlərinin həll edilməsi, yolların abadlaşdırılması kəndlərimizi cavanlar üçün cəlbedici edib. 6 ildir 30 ilin ağırlığını çiyinlərindən atan tərtərlilər sabaha ümidlə baxır, güzəranlarını daha da yaxşılaşdırmaq, məhsul bolluğu yaratmaq üçün əzmlə çalışırlar.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Zəngilan və Cəbrayıl sakinlərinə bostan-tərəvəz şitili paylanılıb

**Cəbrayıl ərazisində sakinlərin həyatyanı sahələrdə bostan və tərəvəz bitkilərinin əkininə dəstək göstərilməsi, kənd təsərrüfatı fəaliyyətinin genişləndirilməsi və ailə təsərrüfatlarının inkişafının təşviqi məqsədilə genişmiqyaslı şitil paylanılması həyata keçirilib.**




AZƏRTAC-a Cəbrayıl, Qubadlı və Zəngilan Rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətindən verilən məlumata görə, dövlət və qeyri-dövlət qurumları tərəfindən ianə olaraq təqdim edilmiş bostan-tərəvəz şitilləri Cəbrayıl rayonunun Horovlu, Şükürbəyli, Cocuq Mərcanlı kəndləri və Cəbrayıl şəhəri sakinləri, həmçinin Zəngilan rayonu üzrə Ağalı və Məmmədbəyli kənd sakinləri arasında bölüşdürülərək paylanılıb.

Bu təşəbbüs nəticəsində kəndlərdə həyatyanı sahələrdə bostan və tərəvəz bitkilərinin əkininin genişlənəcəyi gözlənilir.

## Azərbaycanın təcrübəsi Özbəkistanda tətbiq olunur

**Kənd Təsərrüfatı Nazirliyinin Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun nümayəndə heyəti aqrar sektorda fəaliyyət göstərən tərəfdaş qurumlar arasında əməkdaşlığın möhkəmləndirilməsi, eləcə də müasir tingçilik sahəsində qabaqcıl təcrübələrin tətbiqi məqsədilə Özbəkistana səfər edib.**

İnstitutdan AZƏRTAC-a bildirilib ki, nümayəndə heyəti Özbəkistanda institutun elmi təminatı əsasında yaradılan, ilkin mərhələdə illik 300 min ting istehsal gücünə malik meyvə tingliyində olub.

Gələcəkdə bu tingliyin istehsal gücünün 1 milyon tingə çatdırılması nəzərdə tutulub. İnstitut əməkdaşları müəssisənin mövcud vəziyyətini qiymətləndirərək, müvafiq məsləhət xidmətləri göstəriblər.

Səfər zamanı tinglikdə aparılan işlər, istehsal prosesinin təşkili, yetişdirilən tinglərin fitosanitar vəziyyəti və aqrotexniki tədbirlərin icrası yerində araşdırılıb, müəssisə əməkdaşlarına elmi-praktiki tövsiyələr verilib. Həmçinin tərəflər arasında əməkdaşlığın gələcək inkişaf perspektivləri və birgə layihələrin həyata keçirilməsi imkanları müzakirə olunub.

Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu, "Azərting" MMC, "Quba Ting" MMC və Özbəkistan Respublikasının "Langar" MMC şirkəti arasında qurulmuş əməkdaşlıq çərçivəsində cari ildə Namanqan vilayətinin Turakurgan rayonunda müasir meyvə tingliyi yaradılıb. Layihə çərçivəsində yüksək məhsuldarlığa və keyfiyyət göstəricilərinə malik sertifikatlı əkin materialının istehsalı nəzərdə tutulur.

## Goranboyda tütünçülükdən yaxşı qazanc əldə edilir



**İqtisadi əhəmiyyətinə görə ikinci texniki bitki sayılan tütün hələ keçən əsrin 70-ci illərində respublikamızda kənd təsərrüfatının əsas sahələrindən biri idi. Amma 90-cı illərin əvvəllərində digər sahələr kimi, tütünçülük də tənəzzülə uğradı.**

Yalnız 2016-cı ildə dövlət başçısının təşəbbüsü və dəstəyi ilə bu sahə yenidən dirçəlməyə başladı. Onun inkişafına nail olmaq üçün dövlət tərəfindən məqsədyönlü tədbirlər görüldü. Hazırda bu gəlirli sahəyə maraq getdikcə artır.

Tütünçülük üçün əlverişli mühitə malik olan rayonlardan biri də Goranboydur. Hər il rayonda bu gəlirli sahənin inkişafı üçün müxtəlif tədbirlər həyata keçirilir. Zeyvə, Yenikənd, Şəfəq, Qarbucaq, Todan və Qaraçanaq kəndlərində tütün əkən fermerlər qazanclarından razıdırlar. Təkcə keçən il rayon üzrə hər hektardan 1,5 ton olmaqla ümumilikdə 14,7 ton tütün təhvil verilmişdir ki, bu da yaxşı gəlir deməkdir.

Goranboyda tütünçülüyü inkişaf etdirmək, onun istehsalını artırmaq və tütünçülüklə məşğul olan insanların gəlir əldə etmə imkanlarını genişləndirmək üçün əlverişli şərait yaradılmışdır. Aşağı Ağcakənd qəsəbəsi ərazisində 2,45 hektar sahədə tütün toxumu üçün 13 istixana qurulmuşdur. Hazırda burada 40 nəfərə yaxın insan daimi işlə təmin edilmişdir. Əkin sahələri müasir suvarma sistemləri ilə təchiz olunmuşdur ki, bu da su ehtiyatlarından səmərəli istifadəni və məhsuldarlığın artımını təmin edir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Xankəndinin su təchizatı və kanalizasiya sisteminin vəziyyəti açıqlanıb

**Xankəndi şəhərinin su təchizatı, hidravliki zonaları və kanalizasiya sistemlərinin mövcud vəziyyəti ilə bağlı genişmiqyaslı araşdırmalar aparılıb.**

Azərbaycan Su Ehtiyatları Agentliyindən (ADSEA) bildirilib ki, Xankəndi şəhərinin su təchizatı üzrə aparılmış araşdırmalara əsasən, şəhər ərazisində 15 ədəd subartezian quyusu mövcuddur.

Şəhər relyefinə görə 10 zonaya bölünüb və hər bir zona üzrə su anbarları (15000 m3) mövcuddur. Şəbəkə polietilen borulardan ibarətdir, suyun təmizlənməsi ilə bağlı 2 ədəd su təmizləyici qurğu, eləcə də suyun zərərsizləşdirilməsi ilə bağlı xlorator qurğusu və suyun uçotunun aparılması üçün yeraltı quyularda quraşdırılmış su sayğacları mövcuddur.

Xankəndidə fəaliyyəti bərpa edilimiş dövlət qurumlarına və müxtəlif təşkilatların işçilərinin məskunlaşdığı 3264 abonentə xidmət göstərilir. Eyni zamanda şəhərin hidravliki zonalarının və kanalizasiya sisteminin araşdırılması işləri aparılıb.

Şəhərin tullantı sularının kənarlaşdırılması üçün şəbəkə və kollektorlar mövcuddur. Tullantı suları 27 nöqtədən şəhərin kənarında yerləşən dərələrə axıdılır. Hazırda 67 kilometr uzunluqda kanalizasiya şəbəkəsi istismar olunur.

## Tovuzda iki minifutbol meydançası istifadəyə verilib

**İdmanın inkişafı, sağlam həyat tərzinin təşviqi və müasir idman infrastrukturunun yaradılması dövlət siyasətinin prioritet istiqamətlərdən biridir. Bu istiqamətdə Tovuz rayonunda da bir sıra tədbirlər görülür.**

Elə bu günlər rayonun iki ünvanında minifutbol meydançası istifadəyə verilib. Müasir tələblərə cavab verən, məhəllə futbolunun inkişafına, kiçik yaşlı uşaqlarda idmanın bu növünə maraq və sevginin artırılmasına xidmət edən hər iki meydançada kiçik futbolçular üçün hər cür şərait yaradılıb.



Layihənin əsas məqsədi gələcəkdə yüksək liqalarda çıxış edəcək klublarımıza yerli və peşəkar futbolçular qazandırmaq, regionlarda futbol ənənələrini daha da gücləndirmək, həmçinin uşaqların idmana cəlb olunmasına, onların fiziki və mənəvi inkişafına mühüm töhfə verməkdir.

***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***



# 2026 Şəhərsalma və Memarlıq İli



# Zamanı qabaqlayan irs

## Sadıq Dadaşov daşdan milli naxışlar toxuyurdu

**2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan olunması təkcə gələcəyin modern layihələrini təqdim etmək deyil, həm də milli memarlıq fəlsəfəmizin köklərinə - onun banilərinə ehtiram bəsləmək missiyası daşıyır. Bu mənada adı Azərbaycan memarlığı ilə qoşa çəkilən, qısa, lakin titanik fəaliyyəti ilə Bakının vizual pasportunu yaradan akademik Sadıq Dadaşovun irsi cari ilin əsas elmi-nəzəri dayaq nöqtəsidir. Təsadüfi deyil ki, "Şəhərsalma və Memarlıq İli" çərçivəsində keçirilən forum və seminarlarda gənc mütəxəssislər gələcəyin şəhərlərini məhz Dadaşovun klassik irsi ilə müasir trendlərin sintezi üzərində qururlar.**



S.Dadaşov daşın soyuqluğuna milli ruh qatan, Bakının küçələrinə Şərqin füsunkar nağılını yazan bir sənətkar idi. Həmkarı və sadiq dostu Mikayıl Hüseynovla çiyin-çiyinə çalışan memar XX əsrin ortalarında sovet memarlığının boz və totalitar qəliblərini sındırmağı bacardı. Onlar Bakını sadəcə böyütmədilər, şəhərə bənzərsiz bir kimlik, milli bir sima qazandırdılar.

Görkəmli alimin yaradıcılıq irsi Şərq ornamentlərinin daş yaddaşını oyatmaqdan keçirdi. O, əsrlər boyu Şirvan-Abşeron memarlıq məktəbinin bəzəyi olmuş daşoyma sənətini, stalaktitlərin sirli həndəsəsini müasir binaların baş qapılarına - portal sistemlərinə köçürdü. Bu gün qarşısından heyranlıqla keçdiyimiz Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin fasadındakı o incə şəbəkələr, oxvari tağlar məhz bu arzunun məhsuludur. Memar Azərbaycan xalçalarının toxunuşunu, butaların və nəbati naxışların zərifliyini binaların divarlarına elə həkk edirdi ki, daşlar sanki dil açıb qədim bir nəğməni pıçıldayırdı.

Bu sənət həm də Şərqlə Qərbin möhtəşəm bir dialoqu idi. Sadıq Dadaşov dövrün sərt ideoloji tələbi olan "formaca milli, məzmunca sosialist" formulunu tamamilə estetik bir müstəviyə daşıdı. O, Avropa klassisizminin monumental, ağır və simmetrik sütunlarını Şərqin incə eyvanları, kölgəli lojaları ilə yüngülləşdirdi. Bu sintez təkcə gözəllik üçün deyildi, həm də Bakının qızmar günəşinə, xəzrisinə və gilavarına meydan oxumaq üçün yaradılmışdı. M.F.Axundzadə adına Milli Kitabxananın binasına diqqətlə baxanda nə görürük - Avropa memarlığının əzəmətli nizamı üzərində ucalan milli tağlar və dahi şəxsiyyətlərin heykəlləri üçün ayrılmış o incə taxçalar bu iki fərqli mədəniyyətin necə harmoniyada qovuşduğunun canlı sübutu olduğunu müşahidə edirik.

Sadıq Dadaşov bütün dünyaya sübut etdi ki, milli ornament sadəcə keçmişin muzey eksponatı deyil. Onun əlində qədim naxışlar müasir və modern şəhər arxitekturasının içində döyünən canlı bir ürəyə çevrilir.

### Daş yaddaşından gələcəyə

Sadıq Dadaşov sadəcə binalar ucaldan bir mühəndis deyildi, Azərbaycanın qədim memarlıq irsini elmi müstəviyə çıxaran ilk böyük tədqiqatçı idi. Onun hələ 1930-1940-cı illərdə Şirvanşahlar sarayı, bütövlükdə İçərişəhər və Azərbaycanın müxtəlif regionlarında apardığı ölçmə-tədqiqat işləri bu gün işğaldan azad edilmiş ərazilərin (Ağdam, Şuşa, Xankəndi) tarixi-memarlıq bərpasında əsas elmi mənbə kimi istifadə olunur. Nəticə olaraq, Şirvanşahlar sarayı Sadıq Dadaşov üçün sadəcə tarixi bir abidə yox, onun memarlıq dilinin əlifbası idi. O, bu əlifba ilə Bakının müasir küçələrində tamamilə yeni, modern və milli layihələr qura bildi. "Şəhərsalma və Memarlıq İli"ndə reallaşan elmi forumlar sübut edir ki, Dadaşovun elmi irsi olmadan müasir milli-estetik şəhərsalma konsepsiyasını tamamlamaq mümkün deyil.

Sadıq Dadaşov və onun yaradıcılıq dostu Mikayıl Hüseynovun Bakıya qazandırdığı memarlıq abidələri bu gün paytaxtın ən gözəl vizual brendləridir: Klassik elementlərlə modern strukturun möhtəşəm vəhdətini əks etdirən "Nizami" kinoteatrı (1937), Şərq memarlığı motivlərinin monumentallığı kimi qiymətləndirilən Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, keçmiş Mərkəzi Komitənin binası və s. heyranlıq doğuran tikililər Bakının mərkəzinin memarlıq ansamblını tamamlayan layihələrdir.

S.Dadaşov və M.Hüseynov Bakıdakı Şirvanşahlar Sarayı Kompleksinin, Naxçıvandakı Möminə xatun türbəsi, Yusif Kuseyir oğlu türbəsinin və Qarabağlar türbəsi ilə yanındakı minarəli zəfər tağının, Bərdədəki "Nüşabə" türbəsinin, Ordubadın yaşayış binalarını və yüzlərlə digər Orta əsr memarlıq abidələrinin ilk tədqiqatçıları olublar. 1937-ci ildə "Nizami" kinoteatrının binası və onunla üz-üzə inşa olunmuş inzibati bina da memarlığımızın klassik əsərləri kimi bu gün də öz dəyərini saxlayır.

1938-ci ildə S.Dadaşov Bakı Musiqi Akademiyasının binasını layihələndirib burada dahi Azərbaycan bəstəkarı Ü.Hacıbəylinin heykəlini ucaltmaqla memarlıqla heykəltəraşlığın həm məzmun, həm də sənətkarlıq baxımından biri digərini tamamlayan bitkin bir kompozisiya həmahəngliyi yaradıb. Musiqinin daşlaşmış forması kimi xarakterizə olunan bu bina təhsil və sənət ocağının funksionallığını əks etdirir. Bina daxili planlaşdırılması baxımından akustik tələblərə tam cavab verən şəkildə simmetrik və relyefli fasadla layihələndirilmişdir. Tikilinin mərkəzi girişi klassik yunan-Roma sütunlu portiklərini xatırlatsa da, detallardakı və kapitellərdəki (sütun başlıqları) incə Şərq oyma naxışları bu monolitliyi yüngülləşdirir və ona milli kolorit qatır.





S.Dadaşovun memarlıq sənəti respublikamızdan kənarda da tanınıb və şöhrət qazanıb. Onun böyük yaradıcılıq nailiyyətlərindən biri də Moskvada tikilmiş Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi (XTNS) kompleksinin Azərbaycan pavilyonu olub. Bu layihə milli memarlığın ittifaq miqyasında təsdiqi idi. Pavilyonun əsas fasadında tətbiq edilən nəhəng və incə şəbəkə pəncərələr sanki Şəki Xan Sarayının ənənələrini nümayiş etdirirdi. Daxili məkana süzülən rəngli işıq şüaları memarın interyerdə emosional mühit yaratmaq bacarığını əyani şəkildə göstərirdi. Stalaktitli tağtavanlar isə Şərq saraylarının lətafətini əks etdirirdi. 1941-ci ildə Moskvada XTNS-də Sadıq Dadaşov və Mikayıl Hüseynovun layihələndirdiyi Azərbaycan pavilyonu o qədər böyük əks-səda doğurur ki, memarlar SSRİ Dövlət mükafatına layiq görülürlər. Layihədəki milli şəbəkə və stalaktit elementləri sovet rəhbərliyini heyran qoyur.

Mütəxəssislər Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin binasını "Metropol"u muzeyə çevirən sehrli toxunuş" adlandırırlar. Bina, əslində, XIX əsrin sonunda mehmanxana ("Metropol" hoteli) kimi tikilmişdi. Sadıq Dadaşov binanı sıfırdan tikməyib, lakin onun üzərində elə bir möhtəşəm yenidənqurma işi aparıb ki, keçmiş hotel binası Şərq intibahı üslubunda əzəmətli bir saraya çevrilib. Ümumiyyətlə, yalnız 1944-1945-ci illərdə S.Dadaşov 8 böyük memarlıq əsəri layihələndirib.

Yer gəlmişkən, bir faktı da qeyd edək ki, Mikayıl Hüseynovla Sadıq Dadaşovun dostluğu sadəcə tələbəlik illərindən başlamayıb. Onlar uşaqlıqdan eyni məhəllədə böyümüş, eyni məktəbdə (Bakı Realnı Məktəbində) oxumuş, birlikdə institut bitirmiş və ömürlərinin sonuna qədər bütün binaları birgə layihələndirmişlər. Memarlıq tarixində iki müəllifin bu qədər uzunmüddətli və məhsuldar müştərək fəaliyyəti çox nadir hadisədir.

### Memarın yaradıcılıq irsi yüksək qiymətləndirilib

S.Dadaşovun fəaliyyəti və ölkə qarşısındakı xidmətləri yüksək qiymətləndirilib. 1940-cı ildə ona "Azərbaycan SSR Əməkdar incəsənət xadimi" fəxri adı verilib və 1941-ci ildə SSRİ Dövlət mükafatı laureatı olub. O, "Lenin", "Qırmızı Əmək Bayrağı" ordenləri və medallarla təltif edilib. 1941-ci ildə SSRİ Memarlıq Akademiyasının müxbir üzvü, 1945-ci ildə yeni yaradılmış Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilib. Sadıq Dadaşov Azərbaycan memarlıq tarixi və nəzəriyyəsi ilə bağlı bir sıra elmi əsərlər yazıb çap etdirib ki, bu gün də həmin əsərlər öz aktuallığını itirməyib və dəyərli, etibarlı mənbə kimi istifadə edilməkdədir.

İstedadlı memar 1946-cı ildə - yaradıcılığının və elmi fəaliyyətinin ən qızğın çağında - 41 yaşında bu dünyadan köçdü. Tale ona uzun bir ömür vermədi, lakin onun Bakının simasına vurduğu milli möhür əbədi yaşamaq haqqı qazandı. O, Şirvanşahlar sarayının qədim daş pıçıltılarını müasir şəhərin dinamik ritmi ilə birləşdirərək Azərbaycan memarlığında əsl bir intibah yaratdı. Onun memarlıq fəlsəfəsi bizə sadə bir həqiqəti deyir: modernləşmək keçmişi unutmaq və kor-koranə Qərbə bənzəmək deyil. Əsl böyüklük öz köklərinə sahib çıxaraq, dünyəvi dəyərlərlə qovuşa bilmək bacarığıdır. Sadıq Dadaşovun daşdan toxuduğu milli naxışlar, ucaltdığı əzəmətli tağlar və pəncərələrdən süzülən şəbəkə işıqları bu gün də Bakının bəzəyidir.

Görkəmli memarın vəfatından onilliklər keçsə də, paytaxtımızın mərkəzində ucalan hər bir şah əsəri onun canlı xatirəsidir. Biz hər gün o binaların yanından keçərkən, əslində, sadəcə daş divarlara deyil, Azərbaycan ruhunu daşlaşdıran, onu gələcək nəsillərə əmanət edən görkəmli memarın ölməz irsini seyr edirik. Çünki insan dünyadan köçür, amma onun xalqa, sənətə və vətənə sevgisindən ucaltdığı abidələr zamanın özünə belə meydan oxuyaraq əbədi yaşayır. Paytaxtımızın hər daşında Sadıq Dadaşovun estetik zövqü, milli irsə olan sonsuz ehtiramı hər zaman gözümüzün önündədir.

*İradə ƏLİYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Şəhərlər xalqın taleyini yaşayır









**Azərbaycanın elə qədim şəhərləri var ki, onlar sadəcə yaşayış məskəni deyil, xalqın yaddaşı, tarixi, mədəni irsi və gələcəyə baxışının daşlaşmış salnaməsidir. İnsanlar kimi şəhərlərin də taleyi olur. Onlar doğulur, inkişaf edir, sınaqlardan keçir, bəzən dağılır, sonra yenidən qurulur və tarixin izlərini öz simalarında yaşadırlar.**

Bu mənada Azərbaycanın qədim şəhərləri olan Gəncə və Şəki əsrlərin sınağından çıxaraq bu gün də milli kimliyimizin daşıyıcıları kimi yaşayırlar. 2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə şəhərlərimizin tarixi inkişaf yoluna, memarlıq irsinə və müasir urbanizasiya proseslərinə yeni baxış bucağından nəzərdən keçirmək üçün bir vəsilə oldu. Gəncə və Şəkini, bütövlükdə Şərqin şəhərsalma mədəniyyətinin nadir nümunələri hesab etmək olar.

Qafqazın qədim şəhərlərindən olan Gəncə əsrlər boyu Azərbaycanın siyasi, iqtisadi və mədəni həyatında mühüm rol oynayıb. Tarixi mənbələr şəhərin ən azı 2500 illik keçmişə malik olduğunu göstərir. Böyük İpək yolunun üzərində yerləşən Gəncə tarixən ticarətin, sənətkarlığın və elmin inkişaf etdiyi mühüm mərkəzlərdən olub.

Gəncə dünya ədəbiyyatının dahilərindən olan Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin vətənidir. Bəşəriyyətin mənəvi xəzinəsinə çevrilmiş "Xəmsə" kimi möhtəşəm əsərlər məhz bu şəhərdə yaradılıb. Nizaminin ideyaları əsrlər keçsə də, aktuallığını itirməmiş, insanlığa humanizm, ədalət və mənəviyyat dərsi verməkdə davam edir. Gəncə həm də görkəmli dövlət xadimi Cavad xanın qəhrəmanlıq salnaməsini yaşadan bir şəhərdir. Onun azadlıq uğrunda göstərdiyi misilsiz müqavimət Azərbaycan tarixinin şərəfli səhifələrindən biri kimi bu gün də qürurla xatırlanır.

Şəhərin memarlıq irsi onun qədim tarixinin canlı şahididir. Qırmızı kərpicdən tikilmiş tarixi binalar, qədim karvansaralar, məscidlər və məqbərələr Gəncənin özünəməxsus memarlıq simasını formalaşdırır. İmamzadə Türbə Kompleksi Azərbaycanın ən möhtəşəm dini-memarlıq abidələrindən biri hesab olunur. Əsrlərin yadigarı olan bu müqəddəs məkan həm dini, həm də memarlıq baxımından böyük əhəmiyyət daşıyır.

Gəncənin memarlıq xəzinəsində xüsusi yer tutan tarixi abidələrdən biri də Şah Abbas Məscidi, yaxud Gəncə Cümə məscididir. Gəncəçayın sol sahilində, şəhərin qədim mərkəzində ucalan bu möhtəşəm ibadət ocağı XVII əsrdə Aran memarlıq məktəbinin gözəl ənənələri əsasında inşa edilib. Əsrlərin sınağından çıxaraq bu günümüzə qədər gəlib çatan məscid yalnız dini abidə deyil, həm də Azərbaycan memarlıq təfəkkürünün zənginliyini əks etdirən nadir sənət nümunəsidir. Onun ümumi memarlıq kompozisiyası, günbəz quruluşu, portalların həlli və dekorativ elementləri Orta əsr Azərbaycan memarlığının klassik portal-günbəz ənənələrinin uğurlu davamı kimi diqqəti cəlb edir. Məscidin memarlığında Azərbaycanla yanaşı, qonşu ölkələrin zəngin memarlıq təcrübəsinin bəzi xüsusiyyətləri də yaradıcı şəkildə tətbiq olunub. Bununla belə, tikilidə heç bir təqlidçilik hiss olunmur, əksinə, Aran memarlıq məktəbinə xas olan sadəlik, aydınlıq, ifadəlilik və monumentallıq bütün elementlərdə özünü göstərir. Gəncə Cümə məscidi bu gün də şəhərin tarixi simasının ayrılmaz hissəsi kimi qədim Gəncənin mənəvi və mədəni əzəmətini yaşatmaqdadır.

Hazırda Gəncə qədim tarixlə müasirliyin vəhdət təşkil etdiyi şəhərə çevrilib. Geniş prospektlər, yaşıl parklar, müasir yaşayış kompleksləri, yeni təhsil və mədəniyyət müəssisələri şəhərin inkişafının göstəricisidir. Son illər həyata keçirilən yenidənqurma layihələri Gəncənin simasını daha da gözəlləşdirib. Heydər Əliyev Park Kompleksi, müasir bulvarlar və yaşıllıq zolaqları şəhərə xüsusi cazibə verir.

Prezident İlham Əliyev Gəncənin ölkəmizin həyatındakı rolu haqqında dəfələrlə qeyd edib: "Gəncə Azərbaycanın ikinci böyük şəhəridir və ölkəmizin iqtisadi, mədəni və tarixi həyatında xüsusi yer tutur". Bu fikir dövlət başçısının şəhərin inkişafına göstərdiyi diqqətin ifadəsidir.

Azərbaycanın şimal-qərbində yerləşən Şəki isə əsrlərin dərinliyindən gələn başqa bir mədəniyyət möcüzəsidir. Dağların qoynunda yerləşən bu şəhər təbiət və memarlığın möhtəşəm harmoniyasıdır. Şəkinin tarixi 2 min ildən artıq dövrü əhatə edir. Qədim Albaniya dövlətinin mühüm yaşayış məntəqələrindən biri olmuş şəhər sonralar ipək istehsalı və ticarəti ilə bütün Şərqdə şöhrət qazanıb. Şəki xanlığı dövründə şəhər regionun mühüm siyasi və iqtisadi mərkəzlərindən birinə çevrilib.

Şəkinin incisi, bu qədim şəhəri dünyada tanıdan ən nadir tarixi abidələrdən biri Şəki Xan Sarayıdır. Dünya memarlıq sənətinin nadir nümunələrindən sayılan bu saray rəngli şəbəkələri, incə naxışları və bənzərsiz bədii həlli ilə heyranlıq doğurur. Sarayın hər divarı, pəncərəsi xalqımızın yüksək estetik zövqünü nümayiş etdirir. Şəhərin qədim karvansaraları, məhəllə sistemi, daş küçələri və tarixi evləri əsrlərin ruhunu bu günə qədər qoruyub saxlayıb. Məhz bu xüsusiyyətlərinə görə Şəkinin tarixi hissəsi UNESCO-nun Dünya İrs Siyahısına daxil edilib.

Şəkinin memarlığını onun təbiətindən ayırmaq mümkün deyil. Yaşıl meşələrlə örtülmüş dağlar, gur bulaqlar, çaylar və saf hava şəhərə xüsusi gözəllik bəxş edir. Buraya gələn turistlər insanların təbiətin qoynunda yaşadığını hər addımda hiss edirlər. Şəki sanki dağların sinəsinə sığınmış bir sənət əsəridir.

Gəncə və Şəki yalnız tarixi abidələri ilə deyil, ətraf mühitlə yaratdıqları harmoniyaya görə də seçilirlər. Gəncənin geniş düzənlikləri, Göygöl bölgəsinin ecazkar mənzərələri, meşələrlə örtülmüş dağ silsilələri şəhərin təbii gözəlliyini tamamlayır. Göygöl Milli Parkı bölgənin təbiət incilərindən biri kimi minlərlə insanı özünə cəlb edir. Şəkinin isə dağ-meşə landşaftı, Kiş çayının sahilləri, əsrarəngiz təbiəti isə insanla təbiətin əbədi dialoqunu xatırladır. Burada əsrlər boyu formalaşmış memarlıq ənənələri ətraf mühitə uyğun inkişaf etmişdir.

Bu gün Azərbaycanın şəhərsalma siyasəti məhz bu harmoniyanın qorunmasına əsaslanır. Tarixi irsin mühafizəsi ilə müasir infrastrukturun yaradılması arasında tarazlıq təmin edilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkənin bütün bölgələrində həyata keçirilən genişmiqyaslı abadlıq və quruculuq işləri şəhərlərin tarixi simasını qorumaqla yanaşı, onların müasir inkişafına da xidmət edir.

Dövlətimizin başçısı Bakıda keçirilən beynəlxalq forum - WUF13-də Azərbaycanın qədim şəhərlərinin dünya mədəniyyətinə verdiyi töhfələri xüsusi vurğulayaraq Gəncə, Şəki və digər tarixi şəhərlərin ölkəmizin mədəni xəzinəsi olduğunu qeyd etmişdir.

Gəncə və Şəki bu gün də keçmişlə gələcək arasında körpü yaradır, tarixi yaddaşı qoruyur, müasir inkişafın ritminə uyğun durmadan inkişaf edir. Bu şəhərlərin küçələrində dolaşarkən insan yalnız daşları, binaları və meydanları görmür, burada əsrlərin nəfəsini, xalqın ruhunu və Azərbaycanın əzəmətli tarixini hiss edir.

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

## “Şəhər folkloru: sosial kimlik kontekstində kollektiv yaddaş”

**AMEA Folklor İnstitutunda Azərbaycan Respublikası Prezidentinin 2026-cı ilin ölkəmizdə “Şəhərsalma və Memarlıq İli” elan edilməsi haqqında sərəncamının icrasına həsr olunmuş “Şəhər folkloru: sosial kimlik kontekstində kollektiv yaddaş” mövzusunda elmi sessiya keçirilib.**



Folklor İnstitutunun direktoru filologiya elmləri doktoru Hikmət Quliyev qeyd edib ki, 44 günlük Vətən müharibəsindən sonra həyata keçirilən genişmiqyaslı yenidənqurma prosesi, Böyük qayıdış konsepsiyası və işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa işləri ölkənin strateji inkişaf istiqamətlərindən birini təşkil edir. Bildirib ki, 2030-cu ilədək sosial-iqtisadi inkişaf prioritetləri sırasında yer alan Böyük qayıdış proqramı yalnız fiziki infrastrukturun bərpasını deyil, həm də əhalinin reinteqrasiyasını və sosial-mədəni mühitin yenidən formalaşdırılmasını əhatə edir. Direktor vurğulayıb ki, şəhərsalma və memarlıq məsələləri müasir dövrdə yalnız tikinti və urbanizasiya ilə məhdudlaşmır, eyni zamanda kollektiv yaddaş, mədəni identiklik və sosial münasibətlər sisteminin formalaşmasına təsir göstərir. Bu baxımdan, şəhər mühitinin humanitar aspektlərdən araşdırılması xüsusi əhəmiyyət daşıyır.

Daha sonra Hikmət Quliyev “Sosial-mədəni transformasiya və kommunikativ dinamika müstəvisində şəhər folkloru” mövzusunda məruzə ilə çıxış edib. Məruzədə şəhər folklorunun Azərbaycanda kifayət qədər sistemli şəkildə araşdırılmadığı, folklorşünaslıqda tədqiqatların əsasən kənd mühiti üzərində qurulduğu qeyd olunub. Alim bildirib ki, şəhər folkloru ayrıca sosial-mədəni və kommunikativ mühit kimi öyrənilməli, urbanizasiya, miqrasiya və sənayeləşmə prosesləri kontekstində təhlil edilməlidir.

Daha sonra Folklor nəzəriyyəsi şöbəsinin müdiri professor Füzuli Bayat “Polisentrik kültür paradiqmasında şəhər folkloru” mövzusunda məruzə ilə çıxış edib. Məruzədə şəhər folklorunun formalaşma mexanizmləri, urbanizasiya prosesləri, sənaye inqilablarının sosial-mədəni mühitə təsiri və müxtəlif etnik-mədəni qrupların qarşılıqlı əlaqəsi nəticəsində yaranan yeni folklor modelləri təhlil olunub.

Folklor İnstitutunun elmi işlər üzrə direktor müavini dosent Afaq Xürrəmqızı “Hüseynqulu Sarabski və Bakı folkloru” mövzusunda məruzə ilə çıxış edib. Məruzədə Bakı şəhər folklor mühitinin formalaşması, onun Azərbaycan folklorşünaslığında uzun müddət diqqətdən kənarda qalması məsələləri və bu istiqamətdə aparılan ilk sistemli araşdırmalar geniş şəkildə təhlil olunub.

Elmi sessiya iştirakçıların sualları və müzakirələrlə başa çatıb.



# Məktublar: problemlər, rəylər, təkliflər...



● ŞƏHİDLƏRİMİZ

## Vətən Murad kimi oğulları unutmur

**Zəfər şəhidi Murad Vasıf oğlu Abbasov Lənkəranın Şıxəkəran kəndində dünyaya göz açıb. Vətənə sevgi, məhəbbət ruhunda boya-başa çatan Murad 2015-ci ildə orta təhsilini başa vurduqdan sonra ordu sıralarına yollanıb. O, cəbhə bölgəsində hərbi xidmətini bitirib üzüağ evinə qayıdıb.**



Murad 2020-ci il İkinci Qarabağ müharibəsi başlayanda könüllü olaraq cəbhəyə gedib. Vətənin qeyrətli oğulları ilə əlinə silah alaraq yağıya qarşı vuruşub. Neçə-neçə qanlı savaşdan zəfərlə çıxan igid döyüşçü 2020-ci il oktyabrın 23-də şəhidlik zirvəsinə ucalıb. Bir gün sonra doğma kəndində Vətən torpağının sinəsinə baş qoyub. Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını və xidməti vəzifələrini şərəflə yerinə yetirdiyi üçün "Vətən uğrunda", Cəbrayılın, Qubadlının azadlığına görə medalları ilə təltif edilib.

Bu günlər Lənkəran şəhər Heydər Əliyev Mərkəzində "Tariximiz qürurumuzdur" layihəsi çərçivəsində Murad Abbasovun xatirəsinə həsr olunmuş mövlud mərasimi keçirilib. Lənkəran şəhər rəhbərliyi, N.Həsənov adına Şıxəkəran kənd tam orta məktəbinin müəllim və şagird kollektivi, təhsil və mədəniyyət işçiləri, şəhid ailələri, müharibə iştirakçıları və rayon ictimaiyyətinin nümayəndələrinin qatıldığı tədbir zamanı ölümsüzlüyə qovuşan Muradın foto və şəxsi əşyalarından ibarət sərgi ilə tanışlıq olub, Azərbaycan Respublikasının Dövlət Himni səslənib, Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin xatirələri birdəqiqəlik sükutla yad edilib.

Heydər Əliyev Mərkəzinin direktoru Reyhanə Sadıxova tədbiri açaraq şəhid Murad Abbasovun Vətən uğrunda göstərdiyi şücaətdən, onun qəhrəmanlıq yolundan danışıb, belə igidlərin xatirələrinin daim ürəklərdə yaşayacağını vurğulayıb. Çıxışını bitirən natiq mərkəzin rəsm kursunda şəhidin yağlı boya ilə çəkilmiş portretini anasına təqdim edib.

Çıxış edən digər natiqlər bildiriblər ki, bu qəhrəmanlıq salnaməsi Azərbaycan xalqının tarixində əbədi yaşayacaq, qərinələr boyunca gələn nəsillər Vətəni sevməyi, torpağını necə qorumağı bu qəhrəmanlardan öyrənəcəklər.

Şəhidin valideynləri tədbirin təşkilində əməyi olan hər kəsə təşəkkür edib, şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

*Zəfər ORUCOĞLU,*
*Lənkəran şəhəri*

● TƏRBİYƏ

## Məktəb psixoloqlarının rolu böyükdür

**Məişət zorakılığı daim cəmiyyəti düşündürən məsələlərdəndir. Çünki məişət zorakılığı hallarında ən çox zərəri uşaqlar çəkir. Ona görə də belə uşaqların vaxtında müəyyən olunması və onlara psixoloji dəstəyin göstərilməsi vacib məsələdir.**



Abşeron rayonunda əvvəllər məişət zorakılığı ilə bağlı tədbirlərdə iştirakçıların sayı çox az idi. Qohum-qonşu qınağından çəkinən insanlar hətta məruz qaldıqları halları dilə gətirmirdilər. Son illər Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rayonda keçirdiyi tədbirlər də müsbət nəticələrini verir. Belə görüşlərdə dəfələrlə iştirak etdiyimdən bu qənaətə gəlmişəm ki, məişət və ailədaxili münaqişələrdə ən çox ziyan görən uşaqlardır. Onlara psixoloji yardımın göstərilməsində isə məktəbdə çalışan psixoloqların üzərinə böyük yük düşür.

Abşeronda bu sahədə geniş iş görülüb. Əvvəllər məktəblərdə bu sahənin adamları görünmürdü. Uşaqlarla söhbətlər aparılmırdı və nəticədə təhsil müəssisəsində yaranan neqativ halların sayı artırdı. Bu gün rayonun təhsil müəssisələrində vaxtaşırı məktəb psixoloqları üçün monitorinqlər təşkil edilir. Bəlkə də buna görədir ki, sona çatmaqda olan təhsil ilində rayon məktəblərində bir dəfə də olsun zorakılıq halı qeydə alınmayıb.

Gələcək üçün böyütdüyümüz övladlarımızın zorakılıqdan uzaq tərbiyə almaları vacib məsələdir. Ona görə də çalışaq ki, müəllimli-valideynli torpağa bağlı vətəndaş yetişdirək.

*Seymur QASIMBƏYLİ,*
*Abşeron rayon sakini*

● MİNNƏTDARLIQ

## Kəndimizin su problemi həll olundu

**Dəmirçilər rayonumuzun böyük yaşayış kəndlərindəndir. Hazırda kəndin 1500 nəfərdən artıq əhalisi var. Sakinlərimizin əsas məşğuliyyəti əkinçilikdir. Hər il bu sahədən götürülən qazanc demək olar ki, əhalinin dolanışığını təmin edir.**

Ancaq son illər kəndin əkin sahələrinin su ilə təminatında problemlər yaranmışdı. Kəndin daxilindən keçən su kanalında olan mövcud problem bizə imkan vermirdi ki, əkilmiş sahələri vaxtında suvaraq. Bu barədə rayon rəhbərliyinə xahişlə müraciət etdik. Təcili tədbirlər görüldü. Dəmirçilər kəndində sakinlərə məxsus pay torpaqlarını suvarma suyu ilə təmin edən arxın əsaslı şəkildə təmirinə başlanıldı. Arx kol-kosdan təmizləndi və ümumi



uzunluğu 6 min metr olan arxın 4710 metr hissəsinə yeni polietilen boru çəkildi.

Hörmətli redaksiya! İndi kəndin əkin sahələri demək olar ki, su ilə tam təmin olunur. Kənd sakinləri qəzetiniz vasitəsilə bu işdə əməyi olan təşkilatlara minnətdarlıqlarını bildirirlər.

*Oruc MURADOV,*
*Qazax rayonunun Dəmirçilər kənd sakini*

● ABADLIQ

## Yaşıllaşan sənaye şəhəri

**Sumqayıt bu gün təkcə sənaye şəhəri deyil, həm də yaşıllıqlar diyarıdır. Şəhərin ekoloji simasının yaxşılaşdırılması istiqamətində görülən tədbirlər isə yaşıllaşdırma işlərinin nə qədər sistemli və məqsədyönlü aparıldığını nümayiş etdirir.**

Təkcə son vaxtlar 317 ünvanda quru və təhlükəli ağaclar kəsilib, ağacların sağlam inkişafını təmin etmək üçün mövsümi budama, eləcə də təmizləmə işləri aparılıb. Bununla yanaşı, 3000 hektara yaxın ərazidə yaz əkin işləri görülüb, ağacların dibləri yumşaldılıb.

Şəhərin əsas prospekt və küçələri də yaşıllaşdırma tədbirlərindən kənarda qalmayıb. Bir sıra küçələrdə yeni çəmənliklər salınıb. Şəhərin müxtəlif ərazilərində, o cümlədən magistral yolun ətrafında 14 min müxtəlif növ ağac, bir o qədər qızılgül kolu, 25,5 min mövsümi gül və 5,2 min çoxillik gül kolu əkilib. Bu rəqəmlər şəhərin yaşıllıq fondunun nə qədər sürətlə genişləndiyini aydın göstərir.



Bütün görülən işlər onu deməyə əsas verir ki, Sumqayıtın yaşıllaşdırılması prosesi ardıcıl və davamlı xarakter daşıyır. Qarşıdan gələn yay mövsümündə də işlərin daha geniş miqyasda davam etdirilməsi planlaşdırılır.

Bir sözlə, Sumqayıt hər keçən gün yaşıllaşır, gözəlləşir. Bu isə şəhərimizdə sağlam və təmiz mühitin formalaşması deməkdir.

*İlhamə MƏHƏMMƏDQIZI,*
*Sumqayıt şəhər sakini*

● TRİBUNA

## Çeşidlərin çoxluğu - rahatlığın yoxluğu

### *Saysız təklif qərar verməyə çətinlik törədir*




**Gəlin bu dəfə bizi yoran, qərarsızlıq qarşısında qoyan çeşidlərdən danışaq. Bu gün hamı gündəlik həyatda saysız-hesabsız seçimlərlə üz-üzədir. Səhər hansı çayı içəcəyini, hansı yoldan getməli olduğunu, nə geyinməli olduğunu seçmək, sadəcə, başlanğıcdır. Mağazalarda minlərlə məhsul arasından seçim etmək, sosial mediada hansı xəbəri oxuyacağını qərarlaşdırmaq, işdə hansı layihəyə fokuslanmaq - bütün bunlar həyatın görünməz yükünü yaradır. Müasir insanın ən böyük ironiyalarından biri odur ki, daha çox seçim imkanı ona azadlıq və xoşbəxtlik gətirməli olsa da, əksinə, yorğunluq və qərarsızlıq hissi yaradır. Əvvəllər məhsul çeşidi az olduğu üçün seçim etmək daha rahat idi, qərarsızlıq insanı yormurdu.**

Seçim çoxluğu insanın diqqətini çox yayındırır. Hər bir seçim məsuliyyət daşıyır - səhv qərar verəcəyi qorxusu insanı passivləşdirir. Bir məhsulu almaq üçün saatlarla araşdırma etmək, hansı paltarın daha yaxşı olduğunu müəyyənləşdirmək və ya hansı filmə baxacağını seçmək - bunların hamısı gözə görünməyən enerji sərfiyyatıdır. Psixoloqlar bunu qərar yorğunluğu adlandırırlar. Qərar yorğunluğu insanın enerji səviyyəsinə, diqqətinə və hətta emosional vəziyyətinə birbaşa təsir edir. Sadə sözlə, nə qədər çox seçim imkanı olsa, insan bir o qədər yorulur və bəzən heç bir qərar vermək istəmir.

Sadə həyatın rahatlığı buradan gəlir. Minimalist yanaşma və ya gündəlik həyatın sadələşdirilməsi insanın qərar yükünü azaldır. Əşyaların sayının az olması, gündəlik rutinlərin strukturlaşdırılması və seçimlərin məhdudlaşdırılması stresi xeyli azaldır. İnsan seçim az olanda həm daha sürətli qərar verir, həm də nəticələrdən daha məmnun olur. Seçim azlığı habelə insanın diqqətini vacib olanlara yönəltməyə imkan verir, məsələn, münasibətlərə, ünsiyyətə, şəxsi inkişafa və ya zehni rahatlığa.

Qlobal baxımdan vəziyyət daha maraqlıdır. Dünya miqyasında müasir cəmiyyətlər daha çox məhsul və xidmət təklif edirlər. Marketlər, internet platformaları, sosial media - hamısı insanın seçim imkanını artırır. Lakin qeyd etdiyimiz kimi, seçim çoxluğu yalnız ilk baxışda azadlıq kimi görünür. Reallıqda isə insanlar bu çoxluq qarşısında qərarsız qalır, stres yaşayırlar. Hətta onlarda xoşbəxtlik hissi azalır. Bu fenomen hər bir ölkədə fərqli mədəniyyətlərdə müşahidə olunur və qlobal problem kimi qiymətləndirilir.

Araşdırmalardan belə nəticəyə gəlmək olur ki, çoxluq hər zaman yaxşılıq gətirmir. İnsan seçim etmək istəyir, amma çeşid çoxluğu bəzən onu çətinə salır və yorur. Məhdud seçim imkanı isə, əksinə, rahatlıq, məmnunluq və psixoloji balans təmin edir. Bu o deməkdir ki, insan üçün seçim imkanı artdıqca, xoşbəxtlik həmişə artmır, əksinə, bəlkə də azalır. Məsələn, ABŞ-də aparılan bir araşdırmaya görə gündəlik qərar verən insanların 40 faizi günün sonunda vacib seçimlər zamanı yorğunluq hiss edir və o üzdən bəzən səhv qərarlar verir. Eyni fenomen Avropada və Asiyada da təsdiqlənib. Yəni bu qlobal bir problemdir. Həqiqətən, marketdə 50 çay növü, 100 fərqli şirniyyat və ya sosial mediada minlərlə xəbər qarşısında seçim etmək insanın diqqətini yayındırır və enerjisini alır.

Sadə həyat bu problemi xeyli azaldır. Məsələn, Skandinaviya ölkələrində insanlar gündəlik həyatlarını minimalizm üzərində qururlar - az mebel, az geyim, az əşya. Araşdırmalar göstərir ki, belə insanlar daha az stresli və daha məmnundurlar. Belə isə onlardan nəyimiz əskikdir?

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

● SAĞLAMLIQ

## İndi kəndimizin futbol meydançası da var

**Yaşadığımız Sədan kəndi Siyəzən rayon mərkəzindən 8 kilometrlik məsafədə yerləşir. Kəndimizin sakinləri təsərrüfatla məşğul olmaqla yanaşı, mədəni-kütləvi tədbirlərdə də fəal iştirak edirlər. Bunun üçün Sədanda klub, kitabxana, mədəniyyət evi və digər ictimai məkanlar fəaliyyət göstərir.**



Bir müddət əvvəl camaat kənddə idman meydançasının salınması barədə yerli icra orqanlarına müraciət etdi. Çox keçmədən mütəxəssislər gələrək kənddə minifutbol meydançasının inşasına qərar verdilər. Qısa vaxtda eni 25, uzunluğu 45 metr olan minifutbol meydançası quruldu. Meydança dörd tərəfdən hündürlüyü 5 metr olan dəmir çərçivə ilə əhatələnib. Süni örtük və ləvazimatların saxlanılması üçün meydançanın yanında anbar da inşa edilib.

Onu da bildirim ki, biz Çarxana, Müşkülqazma, Sağolcan, Eynibulaq, Meşrif, Qozağacı, Daşlı Calğan kəndləri ilə qonşuyuq. Ona görə də futbol meydançamızdan sədanlılarla yanaşı, həmin kəndlərin sakinləri də istifadə edirlər.

Ümid edirik ki, gələcəkdə meydançamızda püxtələşən və bərkiyən həvəskar futbolçular ölkə idmanına töhfə verə biləcəklər. Çünki böyük idmançılar kiçik meydançalarda yetişir.

*İsmayıl MURADZADƏ,*
*Siyəzən rayonunun Sədan kənd sakini*

● TARİXİMİZ

## Əsrlərin şahidi, tarixin yadigarı "Günbəzli hamam"

**Quba zəngin və rəngarəng təbiəti ilə yanaşı, çoxsaylı qədim tarixi abidələri ilə də tanınır. Rayonda yerləşən Orta əsrlərə aid qalalar, məscidlər və hamamlar bölgənin qədim tarixindən xəbər verir. Bu abidələr Qubanın müxtəlif dövrlərdə mühüm mədəni və siyasi mərkəz olduğunu göstərir.**

Xüsusilə Çuxur hamamı kimi tikililər Şərq memarlığının incə xüsusiyyətlərini günümüzə qədər qoruyub saxlamışdır. XVIII-XIX əsrlərə aid tarixi Çuxur hamamı nadir tarixi-memarlıq abidələrindəndir. Bu tikili yerli əhali arasında "Çuxur hamam", "Günbəzli hamam", "Bəkir hamamı" və "Məşədi Əlimərdan hamamı" kimi müxtəlif adlarla tanınıb. Şərq memarlığının incə nümunələrindən hesab olunan hamam özünəməxsus plan quruluşu və günbəzli forması ilə seçilir.

Bu hamamın şöhrətini ölkəmizə gələn yazıçılar və səyyahlar öz memuarlarında xüsusi maraqla vurğulamışlar. Məşhur fransız yazıçısı Aleksandr Düma Qafqaza səfəri zamanı hamamı ziyarət etmiş və burada qeydlər aparmışdır. İslam mədəniyyətinin bir hissəsi - təmizlik barədə söz açan Düma Günbəzli hamamın quruluş və arxitekturasını Qərbin əzəmətli binalarından üstün saymışdır.

XX əsrin əvvəllərində bu hamam Qubanın faciəli günlərinə şahidlik etmişdir. Deyilənlərə görə, 1918-ci ildə Qubada baş verən faciəli hadisələr zamanı bəzi insanların hamamda boğularaq öldürüldüyü bildirilir. Onlar günahsız insanların başlarını kəsərək qanlarını axıtmaqdan belə çəkinməmişlər.



Sovet dönəmində uzun illər hamam öz əsas funksiyasını qoruyaraq 1985-ci ilə qədər fəaliyyət göstərmişdi. Lakin kanalizasiya sistemində yaranan problemlər səbəbindən onun istifadəsi dayandırılmışdı. Həmin dövrdə hamam yararsız hala düşmüşdü.

Bundan sonra 1986-1987-ci illərdə abidədə ilk bərpa işlərinə başlanılmışdır. Daha geniş bərpa işləri isə 2015-ci ildə aparılmış və hamam 26 mart 2018-ci ildə yenidən istifadəyə verilmişdir. Layihə ABŞ Səfirlərinin Mədəni İrsin Qorunması Fondu ilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin əməkdaşlığı çərçivəsində reallaşdırılmışdır.

Hazırda bu tarixi tikili dövlət tərəfindən qorunan mədəni irs nümunələrindən biri kimi xüsusi mühafizə altındadır.

*Abutalib TURABOV,*
*Quba rayon sakini*

Bu barədə düşünək

# Mənzil sahibi olmaq arzusu rəqəmsal şansın ümidinə qalanda...

## Yaxud MİDA-nın mənzil satışı qaydası nə qədər ədalətlidir



**Azərbaycanda mənzil tikintisi, sadəcə, insanların evlə təmin olunmaları demək deyil, bu, dövlətin öz vətəndaşlarının rifahını yüksəltmək istiqamətində atdığı ciddi addımların göstəricisidir. Güzəştli mənzil proqramları, infrastruktur layihələri və şəhərsalma təşəbbüsləri əhalinin sosial vəziyyətini yaxşılaşdırır, ölkənin iqtisadi inkişafına təkan verir, şəhərlərin planlı şəkildə müasirləşməsinə imkan yaradır.**

Sovetlər zamanı ədalətsiz tələblər, mürəkkəb prosedurlar və məhdud imkanlar insanların mənzil və ya ev arzularının reallaşmasını az qala bir ömür uzadırdı. İndi isə dövlətin fəal dəstəyi ilə özəl sektorun inkişafı sayəsində maddi imkanı olanlar istədikləri vaxt istədikləri yerdə istədikləri genişlikdə mənzil sahibi ola bilirlər. Bu gün ölkədə tikinti sektoru sürətlə inkişaf edir, hər cür infrastruktura malik yeni yaşayış kompleksləri salınır. Özəlliklə də son illər dövlət tərəfindən təqdim edilən güzəştli mənzillər hətta aztəminatlı ailələrə və insanlara ev sahibi olmaq imkanı verir. Bu cür mənzillərin inşası dövlətin öz vətəndaşlarına yalnız maddi dəstəyi deyil, həm də xüsusən gənclərin və yeni ailələrin möhkəm, güvənli həyat qurmalarına şərait yaradan sosial layihəsidir.

Bu vacib missiyanın həyata keçirilməsi 2016-cı ildən başlayıb. Həmin ilin aprelində Prezident İlham Əliyevin sərəncamı ilə Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) yaradılıb. Agentliyin əsas məqsədi vətəndaşların, ilk növbədə gənc ailələrin şəxsi mənzillərinə sahib olmalarını təmin etməkdir. Müəyyən edilmiş qaydalara əsasən, MİDA hər il Bakıda və digər iri şəhərlərdə inşa etdiyi yeni mənzilləri satışa çıxarır. Proses barədə məlumatlar əvvəlcədən geniş ictimaiyyətə təqdim olunur ki, vətəndaşlar müraciətlərini vaxtında edə bilsinlər. Onlar öz ailə vəziyyətləri, gəlirləri və s. barədə məlumatları elektron qaydada təqdim edirlər. Seçim prosesində ərizələr ekspertlər tərəfindən qiymətləndirilir, gənc ailələrin mənzilə olan ehtiyacları nəzərə alınır. Mənzil sahibi olmaq istəyənlərin sayı çox olduğundan vaxtında müraciət və düzgün sənəd təqdim etmək vacib şərt sayılır.

Bura qədər hamısı yaxşı. Amma sonrası... Nə sirdirsə, hər dəfə satış başa çatandan sonra narazılıqlar uzun müddət səngimir. İllərdir çoxları ümidlərini itirmədən bu fürsəti gözləyirlər. Lakin nəticə başqa reallıqdan soraq verir. Bu reallıq da ondan ibarətdir ki, mənzillərin bir qismi, daha doğrusu, əksəriyyəti ehtiyacı olanlara yox, hansı yolla isə "şans"lı olan, amma mənzilə ehtiyacı olmayanlara "qismət" olur. Beləcə, ümidlər sönür və bir zamanlar əlçatan görünən ev şirin arzu olaraq qalır. Bu, evsizlər üçün, sadəcə, bir mənzilin yoxluğu deyil, uzun illərin planlarının alt-üst olması deməkdir. O deməkdir ki, dövlətin bu nəcib sosial layihəsindən yararlanmaq üçün kimlərinsə ədalətsiz qərarı üzündən, sən demə, ehtiyaca ehtiyac yoxdur. "Şans"ın varsa, hətta bir neçə mənzilin, evin olsa da, MİDA-nın satış sistemi səni əliboş qoymayacaq.

Həmkarlarımızdan biri MİDA-nın Yeni Yasamalda inşa etdiyi massivində yaşayır. Deyir ki, oradakı mənzillərin çoxu - təxminən 70 faizi kirayəyə verilib. Bu o deməkdir ki, MİDA-nın inşa etdiyi massivdə mənzil alanların 70 faizinin evə ehtiyacı yoxdur. Acı və ağrılı mənzərədir, deyilmi? Halbuki bu mənzillər, əslində, kirayədə yaşayan gənc həmkarımız kimi ehtiyacı olan ailələr üçün nəzərdə tutulub. Budur, ədalətsiz satış qaydasının yaratdığı reallıq. O reallıq ki, dövlətin sosial proqramının mahiyyətinə kölgə salır.

Niyə də salmasın? Satışa çıxarılan mənzillərin çoxu saniyələr içində "tükənir" - cəmi 3-5 saniyəyə sahibini tapır. Ancaq bu, sadəcə, cəld olub qabağa düşmək deyil, evi olmayan gənc ailələrin əllərindən alınan fürsət və ədalətsiz satış şərtinin təəssüf doğuran nəticəsidir. Güzəştli mənzil almaq üçün şərt niyə ehtiyac yox, kompüter texnologiyasını daha yaxşı bilmək olmalıdır? Axı MİDA-nın mənzilləri yaranışından ehtiyacı olanlar üçün nəzərdə tutulub. Əgər belədirsə və onların satış qaydası evsizlərin mənzil əldə etməsinə imkan vermirsə, həmin qaydalar niyə dəyişdirilmir? Niyə unudulur ki, dövlət tərəfindən həyata keçirilən güzəştli mənzil proqramları məlum təbəqədən olan əhali qrupu üçün sosial dəstək siyasətidir?!

Bəs MİDA mənzillərin həqiqətən ehtiyacı olan şəxslərə çatmasını təmin etmək üçün hansı addımları atmalıdır? Bəzi ekspertlər hesab edirlər ki, 30-40 min vətəndaş mənzil üçün müraciət edirsə, 500-600 mənzilin eyni anda satışa çıxarılması ədaləti pozur və sistemin işləməsində ciddi çətinliklər yaradır. Onların fikrincə, mənzilləri birdəfəlik deyil, hissə-hissə satışa çıxarmaq daha məqsədəuyğundur. Məsələn, hər dəfə təxminən 50 mənzilin təqdim edilməsi ilə sistemin yüklənməsinin qarşısı alınar və müraciətlərin daha düzgün qəbul olunması həyata keçirilər. Ekspertlər həmçinin vurğulayırlar ki, mənzilə real ehtiyacı olan şəxslərin əvvəlcədən siyahıya alınmaları daha doğrudur və vacibdir. Düzdür, bu, köhnə üsuldur, sovetlərdən qalan bir sistem nümunəsidir. Amma ədalətlidir. Üstəlik, hazırkı narazılıqları və şübhələri aradan qaldırmaq üçün başqa alternativ də yoxdur. Siyahıya alınma və ictimai nəzarətin tətbiqi sui-istifadə hallarına son qoyar və satış prosesində şəffaflığı gücləndirər.

Sosioloq Elçin Bayramlı isə daha sərt mövqe sərgiləyir: "Bu layihə hakerlər, kompüter mühəndisləri kimi insanlar arasında keçirilən mənzil əldəetmə "çempionat"ına çevrilib. Burada heç bir ədalətdən, məntiqdən söhbət gedə bilməz. Başqa ölkələrin təcrübəsinə baxanda biz görürük ki, rahat şərtlərlə insanlar ev ala bilirlər. 1-2 faizlik kreditlərlə, uzunmüddətli və az tələblə mənzil sahibi olurlar. Bizdə isə şərtlər ağırdır, elə bir texnoloji hazırlıq tələb olunur ki, sadə insanların bu prosesdən anlayışları yoxdur, ola da bilməz. Kimin pulu varsa, 5-10 min manat verib özünə güclü bir mütəxəssis tutur və bir neçə saniyəyə evə sahib olur. Əgər bu sosial layihədirsə, ehtiyac meyarına görə seçim edilməlidir. Normal qaydada şərtlər olmalıdır və proses şəffaf, adi şəkildə aparılmalıdır".

Belə çıxır ki, proses nə qədər insan amili olmadan texnologiyalar vasitəsilə həyata keçirilsə də, bəri başdan mahiyyətində bir ədalətsizlik var. İlk növbədə rəqəmsal bacarığı olmayanların şansı elə öncədən sıfıra bərabər olur.

Mənzil, sadəcə, başın üstündəki dam deyil, ailənin gələcəyi, rifahın başlanğıcıdır. Amma göründüyü kimi, dövlətin güzəştli mənzil proqramı gənc ailələr üçün böyük ümidlər versə də, reallıqda prosesdəki texniki boşluqlar, sui-istifadələr və şəffaf olmayan hallar ehtiyac sahiblərini sınağa çəkir. Bu sınaqdan çıxmaq üçün MİDA mənzilə ehtiyacı olanlara arzusuna çatmaqda ədalətli şərait yaratmalı, şəffaf satış mexanizmləri işləyib hazırlamalıdır. Yalnız bu yolla proqramın sosial məqsədi tam gerçəkləşər, gənc ailələr öz evlərinə sahib olarlar. Əks halda, güzəştli mənzillərin satışı texnoloji yarış və əldən çıxan imkanlar olaraq qala bilər.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*

# Fransada 12 milyon şagirdin zorakılıqdan qorunmasına ehtiyac varmış

## Ölkə parlamenti "Məktəblərdə və məktəbdənkənar proqramlarda zorakılığa qarşı mübarizə haqqında" qanun layihəsini qəbul edib

**Milli Assambleyanın iclasında iştirak edən 187 deputatın hamısı yeni qanun layihəsinin lehinə səs verib. Onun müddəaları Notre-Dame de Betharram katolik internat məktəbindəki qalmaqalı araşdıran parlament komissiyasının nəticələri nəzərə alınmaqla hazırlanmışdır.**

Qanun layihəsini deputatlar Pol Vannier və Violette Spilbut təqdim ediblər. Violette Spilbut səsvermədən sonra "X" də yazıb: "Hisslər böyükdür. İlk növbədə, bu səsvermə qurbanlara görədir". Deputat əlləri ilə ürək yaradaraq zalda olan qurbanlara müraciət edib: "Biz sizinləyik".

Öz növbəsində xanım parlamentarinin həmkarı sosial şəbəkə səhifəsində yazıb: "Bu qələbə zorakılıq haqqında danışmağa cəsarət edən, danışmaq hüququ uğrunda güclü bir hərəkata başlayan və mühüm qanunvericilik dəyişikliklərinə yol açan qurbanlara məxsusdur". Pol Vannier hökuməti qanun layihəsinin 2026-2027-ci tədris ilinin əvvəlində qüvvəyə minməsi və "12 milyon şagirdi qoruması" üçün mətni Senatın gündəliyinə daxil etməyə çağırıb. Səsvermədən sonra deputat qeyd edib ki, uzun illərdən sonra ilk dəfə olaraq dövlətin müqavilə əsasında fəaliyyət göstərən özəl təhsil müəssisələri ilə münasibətlərini dəyişdirən sənəd qəbul etdik.

Səsvermə Notre-Dame de Betharram internat məktəbi işi ilə bağlı ilk açıqlamalardan təxminən 3 il sonra və Paris Şəhər Meriyasının məktəbdənkənar strukturlarda cinsi zorakılığa qarşı mübarizə tədbirlərini elan etməsindən 2 ay sonra baş tutub.

Sənəddə hər il noyabrın 19-da qeyd olunacaq "Qurbanların Anım Günü"nün təsis edilməsi nəzərdə tutulur. Həmçinin "yetkinlik yaşına çatmayan şəxsə qarşı törədilən müəyyən qəsdən zorakılıq hərəkətləri barədə məlumat verməmək cinayətinin müddətinin uzadılmasına" icazə verilir və "cismani cəza və alçaldıcı rəftarın qadağan edilməsi" təsbit olunur.

Qanun layihəsi hər 3 ildən bir yenilənməli olan "etibarlıq sertifikatı" mexanizmini tətbiq etməklə və davranışı təhlükəli hesab edilən şəxslərin qara siyahısını yaratmaqla profilaktikanı gücləndirməyi hədəfləyir.




Məqsəd onların digər uşaq müəssisələrində yenidən işə qəbullarının qarşısını almaqdır.

İlk növbədə, sənəd hər 5 ildən bir məcburi yoxlamalar tətbiq etməklə "onunla müqavilə əsasında fəaliyyət göstərən özəl təhsil müəssisələri üzərində dövlət nəzarətinin gücləndirilməsi"ni nəzərdə tutur. Bu cür müqavilələrin ləğvi barədə qərar qəbul edə biləcək özəl təhsil üzrə Akademik Şura da yaradılacaq.

Fransa katolik kilsəsinin güclü müqavimətinə səbəb olan ən mübahisəli tədbirlərdən biri yetkinlik yaşına çatmayanların cinsi istismarı hallarında etiraf sirrinin ləğvi idi. Bu, sağçı və ifrat sağçı partiyaların parlament üzvləri tərəfindən kəskin qarşılanıb və onlar bunun kilsə qanunlarını pozduğunu iddia ediblər. Müxtəlif fraksiyalar arasında kompromis əldə edilməzdən əvvəl onların tərəfindən qanunun qəbulunu əngəlləyən yüzlərlə düzəliş təqdim olunub.

Digər bir istisna müddəa özəl müəssisələr və dövlət arasında assosiasiya müqavilələrinin yenilənməsi mexanizmi idi. "Fransada pulsuz müqavilə təhsilini təşkil edən Debre Qanunu sosial müqavilənin, Təhsil İttifaqının vacib elementidir", - deyə kilsə nümayəndəsi şərh edib. Mətn həmçinin məktəblərdə və dərsdənkənar fəaliyyətlərdə uşaqlarla təmasda ola biləcək maraqlı tərəflərə nəzarətin gücləndirilməsini nəzərdə tutur.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

# Hava dəyişkən buludlu olacaq, əsasən yağmursuz keçəcək

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Şimal-qərb küləyi əsəcək, səhər cənub-şərq küləyi ilə əvəzlənəcək.

Havanın temperaturu gecə 12-16, gündüz 22-27 dərəcə isti olacaq. Atmosfer təzyiqi 762 millimetr civə sütunu, nisbi rütubət isə gecə 65-75, gündüz 50-55 faiz təşkil edəcək. Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 14-18, gündüz 26-31, dağlarda gecə 7-12, gündüz 15-20, bəzi yerlərdə 24-26 dərəcə isti olacağı ehtimal edilir.

# Qadın futbolçulardan ibarət Azərbaycan millisinin Macarıstanla oyununa təyinatlar açıqlanıb

**Qadın futbolçulardan ibarət komandalar arasında dünya çempionatının seçmə mərhələsi çərçivəsində gerçəkləşəcək Azərbaycan - Macarıstan oyununa hakim təyinatları açıqlanıb.**



AFFA-dan AZƏRTAC-a bildirilib ki, C Liqasının 3-cü qrupunda keçiriləcək qarşılaşmanı Sloveniyadan olan hakimlər briqadası idarə edəcək.

Baş hakim Vanya Yankoviçə Staşa Şpur və Helena Buh köməklik göstərəcəklər. Dördüncü hakim funksiyasını isə Aleksandra Çesen yerinə yetirəcək.

Qeyd edək ki, iyunun 5-də Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda təşkil olunacaq görüş saat 18:00-da başlayacaq.

# Gənc avarçəkənlərimiz Qazaxıstanda tam heyətlə medal qazanıblar

**Azərbaycanın gənc avarçəkənləri Qazaxıstanda tam heyətlə medal qazanıblar.**

Bu barədə AZƏRTAC-a Su İdman Növləri Federasiyasından məlumat verilib.

Bildirilib ki, Qazaxıstanın Uralsk şəhərində 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş kayak və kanoe üzrə beynəlxalq reqataya 4 nəfərlik heyətlə yollanan komandamızın bütün üzvləri fəxri kürsüyə qalxıblar.

İkinəfərlik kanoe qayığında mübarizə aparan Vaqif Mustafazadə və Fəxri Sadıqlı 200 metr məsafəyə yürüşlərdə 3-cü yer tutublar. İkinəfərlik kayak qayığında mübarizə aparan Sənan Cəfərzadə və Tahir Mövsümov cütlüyü 500 metr məsafədə fəxri kürsünün üçüncü pilləsinə yüksəlib. Onlar, həmçinin 200 metr məsafəyə yarışlarda gümüş medala layiq görülüblər.

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsi müdirinin müavini Səməd Sultanova əzizi

**ƏLİMUSA ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Araz Paşayevə əzizi

**GƏRAY PAŞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Arif Rəhimzadə, Rəşid Mahmudov, Rafiq Ramazanov, Eldar Əsgərov (Şəkibəyov) və Təhmin Şəkibəyov Azərbaycan Respublikası Milli Məclisinin sabiq deputatı

**CAHANGİR HÜSEYN OĞLU HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3791
Sifariş 692

Qiyməti 60 qəpik